
ASİYA XALQLARININ NAĞILLARI

ASİYA XALQLARININ NAĞILLARI



AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

ASİYA XALQLARININ NAĞILLARI

Bakı - 2026

ÖN SÖZ

Əziz oxucular!

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) üzv ölkələrin nağıllar toplusunu icazənizlə diqqətinizə təqdim edirəm.

2022-ci il AQEM üçün əlamətdar il hesab olunur. Forumun 30 illik yubileyini qeyd edirik.

Yubiley təqvimlərini yaddaqalan hadisələrlə qeyd etmək artıq xoş ənənəyə çevrilib. Təqdim etdiyimiz bu nəşr AQEM-ə üzv dövlətlərin xalqları arasında mədəni-humanitar əlaqələrin möhkəmlənməsinə, uşaqların çoxşaxəli Asiya ölkələrinin geniş coğrafiyası və zəngin adət-ənənələri il tanış olmasına, həmçinin yeni nəslin düşüncəsində tolerantlığın inkişafına xidmət edir.

İmkandan istifadə edərək mədəni-mənəvi və ümumbəşəri idealların qorunub saxlanılması və inkişafı istiqamətində əməkdaşlığa görə Azərbaycan, Banqladeş, Vyetnam, Hindistan, İordaniya, İran, Qazaxıstan, Kamboca, Qətər, Çin, Koreya, Qırğızıstan, Monqolustan, Fələstin, Rusiya, Tacikistan, Tailand, Türkiyə və Özbəkistana səmimi minnətdarlığımı bildirirəm.

Toplunun səhifələrində Asiya xalqlarının milli xüsusiyyətləri, ənənələri, mədəniyyəti, dəyərləri bütün rəngarəngliyi ilə əks olunur. Nağılların sətirlərindən geniş qitənin xalqlarının ətraf mühitlə qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, qarşılıqlı etimad və qarşılıqlı paylaşma səyləri qırmızı xətt kimi keçir.

Beləcə, xalqların müdrikliyi, özünəməxsus koloriti, incə yumoru, ibrətamiz rəvayətləri nəsillərdən nəsillərə, dillərdən dillərə ötürülür. Nəşrimizdə toplanan, uşaqlarla yanaşı, böyüklərin də mütaliəsi üçün nəzərdə tutulan nağıllar bu cəhətləri özündə birləşdirir.

Məsələn, Tailandın "Makatonun rəvayəti" oxucunu Sukxotay çarlığının hakimiyyəti illəri ilə tanış edir, "Yüz yumurtanın tarixçəsi" nağılı Vyetnam xalqının necə yaranmasından, niyə özlərini əjdaha və pərinin xələfləri adlandırmasından bəhs edir. Bəhreynin "Enki və Ninxursaq" nağılında isə müqəddəs Dilmun torpağında əmin-amanlıq içində yaşanan xoşbəxt həyat təsvir olunur.

Hindistanın “Xeyirxah fil” nağılında insanlara təmənnasız xidmətdən, İranın “Düşmənlə həqiqət və əmin-amanlıq içində” nağılında xoş əməllərdən və müsbət tərbiyədən, Türkiyənin “Xeyirxahlığın mükafatı” nağılında ədalətin zəfər çalmasından danışılır. İordaniyalı müəllif Xədicə Mahmud Mazarinin nağılında ağıllı qızın tarixçəsindən, Azərbaycanın “Cırtdan” nağılında balaca uşağın cəsarətindən bəhs edilir. Banqladeş nağılında Draxma səltənətində iplərlə toxunmuş tovuzquşunun qeyri-adi möcüzələrinin şahidi oluruq. Fələstin nağılında isə şair olmaq istəyən uşağın arzuları təsvir edilir.

Qazaxıstanın “Ayı və ağcaqanad”, həmçinin “Rusiyanın “Turp” nağıllarında həyatda yaranan çətinliklərin birlikdə qarşılıqlı şəkildə həllinin vacibliyi vurğulanır. Çin nağılı olan “Yay” isə oxucuya güclünün zəifə köməyi və dəstəyinin vacibliyi kimi yaranışın əzəli həqiqətini yada salır.

Qırğızıstanın sehrli leylək, Koreyanın dost qardaşlarından bəhs edən nağılları ailə dəyərləri, insanlar arasında harmoniya və məhəbbətin vacibliyini təlqin edir. Qətər nağılında oxşar mövzuya – əsl təmənnasız dostluq mövzusuna toxunulur. Dostluq uğrunda bütün çətinliklərdən və sınaqlardan çıxan kor Ax Kvakla iflic Ax Kvenin rəvayəti Kamboca nağılında təqdim olunur.

Monqolustan və Özbəkistan nağıllarında isə güclü, çevik, mərd və dözümlü döyüşçülərdən danışılır.

Asiyada yerləşən xalqların bu və digər nağılları motiv və süjet etibarilə müxtəlif olsalar da, hamısını sülh, dostluq və yaxın qonşuluq kimi eyni mövzu birləşdirir ki, bu da AQEM-in məqsəd və məramlarıyla üst-üstə düşür.

Xalq arasında belə bir deyim var: “Nağıl köhnə dost kimidir, imkan düşdükcə onunla görüşməlisən”. Bu mənada AQEM Asiya qitəsində mədəni müxtəlifliyin inkişafı istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcək.

Kayrat Sarıbay
Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə
Müşavirənin Baş katibi

CIRTDAN

Biri vardı, biri yoxdu, bir qarı vardı. Bu qarının balaca bir nəvəsi vardı. Nəvə o qədər balaca idi ki, ona Cırtdan deyərdilər.

Bir gün Cırtdan gördü ki, qonşu uşaqları meşəyə oduna gedirlər, gəlib nənəsinə dedi:

– Ay nənə, uşaqlarla oduna mən də gedəcəyəm.

Qarı uşaqları çağırıb hərəsinə bir parça yağ yaxmacı verdi. Cırtdanı da onlara tapşırdı.

Yolda Cırtdan özünü yerə vurub getmədi, yoldaşları dedilər:

– Ay Cırtdan, niyə gəlmirsən?

Cırtdan dedi:

– Nənəm məni sizə tapşırıb, məni dalınıza alıb aparın.

Yoldaşları onu növbə ilə dallarına alıb, meşəyə gətirdilər.

Uşaqlar başladılar odun yığmağa. Gördülər ki, Cırtdan yığmır. Dedilər:

– Ay Cırtdan, sən niyə odun yığmırsan?

Cırtdan cavab verdi:

– Nənəm məni sizə tapşırıb, mənə də yığın.

Uşaqlar ona da odun yığdılar. Sonra hər kəs öz odununu şələ bağlayıb dalına aldı. Gördülər Cırtdan oturub baxır. Ona dedilər:

– Ay Cırtdan, sən niyə odununu götürmürsən?

Cırtdan cavab verdi:

– Nənəm məni sizə tapşırıb, mənim odunumu da götürün.

Uşaqlar əlacsız qalıb, onun da odununu dallarına götürdülər. Bir az yol gedəndən sonra gördülər ki, Cırtdan geridə qalıb ağlayır. Dedilər:

– Ay Cırtdan, niyə ağlayırsan?

Cırtdan cavab verdi:

– Yorulmuşam. Nənəm sizə yağ yaxmacı verdi...

Yoldaşları onun sözünü ağzında qoydular. Onlardan biri Cırtdana acıqlandı:

– Pis öyrənərsən. Daha səni dalımıza götürən deyilik!

Cırtdan əlacsız qalıb yoldaşlarının dalınca getməyə başladı. Onlar bir xeyli getdikdən sonra axşam oldu. Qaranlıq qovuşdu, yolu azdılar. Meşədən çıxanda gördülər ki, bir tərəfdən işıq gəlir, o biri tərəfdə it hürür. Biri dedi: "İşıq gələn tərəfə gedək", o biri dedi: "İt hürən tərəfə gedək". Bilmədilər ha tərəfə getsinlər. Axırda Cırtdandan soruşdular:

– Ay Cırtdan, it hürən tərəfə gedək, yoxsa işıq gələn tərəfə?

Cırtdan cavab verdi:

– İt hürən tərəfə getsək, it bizi qapar. İşıq gələn tərəfə gedək, bəlkə, yolu tapa bildik.

Uşaqlar işıq gələn tərəfə gedib bir divin evinə çıxdılar. Div onları görəndə sevinib öz-özünə dedi: "Yaxşı oldu. Gecə onları birbir yeyərəm." Uşaqlara bir az çörək yedirdib yatırtdı. Gecədən bir az keçəndən sonra div uşaqların birini yemək istədi. Uşaqların yatıb-yatmadığını bilmək üçün dedi:

– Kim yatıb, kim oyaq?

Bu sözü eşidəndə Cırtdan tez başını qaldırıb dilləndi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan nə üçün oyaq?

Cırtdan dedi:


– Nənəm mənə hər gecə qayğanaq bişirərdi, yedirib yatırardı.

Div qalxdı, tez qayğanaq bişirib Cırtdana yedirtdi ki, bəlkə, yata.

Bir qədər keçəndən sonra div yenə soruşdu:

– Kim yatıb, kim oyaq?

Yenə Cırtdan başını qaldırıb dedi:



– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan nə üçün oyaq?

– Hər gecə nənəm mənə çaydan xəlbirlə su gətirərdi.

Div ayağa qalxdı, bir xəlbir götürüb çaydan su gətirməyə getdi. Cırtdan da tez yoldaşlarını oyadıb dedi:

– Bu div bizi yemək istəyir. Qalxın, qaçaq.

Uşaqlar tez qalxdılar, qaçıb çaydan keçdilər.

Bu tərəfdən div nə qədər xəlbiri suya salıb qaldırdısa, gördü ki, xəlbirdə su qalmır. Axırda təngə gəlib qayıtmaq istəyəndə, bir də gördü ki, uşaqlar çayın o tərəfindən gedirlər. İstədi sudan keçib uşaqların arxasınca düşsün, amma keçə bilmədi. Axırda onları səslədi:

– Ay uşaqlar, sudan nə təhər keçdiniz?

Cırtdan tez cavab verdi:

– Get bir dənə dəyirman daşı tap, boynuna keçirt, özünü suya at, onda keçərsən.

Div Cırtdanın sözünə inandı, gedib bir dəyirman daşı tapıb boynuna keçirtdi, özünü suya atdı, suda boğulub öldü.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıl söyləyənin.

Saydul İslam Naoqaon

İPLƏRLƏ TOXUNMUŞ TOVUZQUŞU

Dxarma səltənətində Camşed adlı bir şah var idi. Günlərin bir günü oğlu dünyaya gələndə bu hadisədən fərəhlənən şah vəziri hüzuruna çağırıb dedi:

– Vəzir, oğlumun dünyaya gəlişi mənim sarayımı nura qərq etdi. Mən bu gün çox xoşbəxtəm. Odur ki sən elə indi təbillə bütün məmləkətə car çəkdirib istəyimi xalqa çatdır. Xalqa bəyan et ki, şah oğlunun doğulmasını dəbdəbəli qarşılamaq üçün bu vaxtacan görmədiyi bir şeyi görmək istəyir. Mənim əvvəllər görmədiyim bir şeyi mənə göstərə biləcək adama min qızıl sikkə verəcəyəm.

Vəzir maraqlandı:

– Şahım, indiyəsən görmədiyiniz bir şey deyəndə siz nəyi nəzərdə tutursunuz?

Camşed cavab verdi:

– O şey ki, onu heç kim heç vaxt görməyib. Yəni indiyəcən görünməmiş bir şey. Onu mənə göstərə bilənə min qızıl sikkə verəcəyəm. İndi isə get, təbil çaldır və mənim sözlərimi xalqa çatdır.

Vəzir şahın əmrini yerinə yetirib səltənətin hər bir tərəfinə elan etdi ki, şah Camşed bu vaxtacan görmədiyi bir şeyi görmək istəyir və bunu ona göstərə biləcək adama min qızıl sikkə verəcək.

Bir cənub kəndində yaşayan yaşlı bir qadın hökmdarın bu elanını eşidib düşündü: “Nə yaxşı, bu cırıq, nimdaş döşəkağı ilə şahın sarayına yollanacağam. Şahımız kimi varlı bir adam, yəqin, ömründə heç vaxt belə nimdaş cır-cındır görməyib. Onu şaha göstərib min qızıl sikkəni hədiyyə alaram”.

Bir şimal kəndində yaşayan dul qadın belə düşündü: "Mən əyri yetişmiş balqabağımı saraya aparacağam. Əminəm ki, şahın yemək siyahısına belə ucuz məhsulları daxil etmirlər. O hər halda bahalı məhsullar, ət, balıq yeyir. Yəqin bilirəm ki, belə əyri balqabağı heç vaxt görməyib. Balqabağımı görəndə heyrətlənəcək və min qızıl sikkəni mənə verəcək".

Öz torpağını belləyən yaşlı bir kəndli kişi vəzirin təbilinin səsini eşidib fikirləşdi: "Şah həmişə sarayda oturur. O heç vaxt şum boyunduruğu görməyib. Mən bunu saraya aparıb ona göstərsəm, min qızıl sikkəni özüm qazanaram".

Vəzir bazar meydanında təbili çalanda elanı eşidən dəmirçi ona dedi:

– Vəzir ağa, mən dəmirdən gözəl balıqlar döyüb düzəldirəm. Onları suya atıb əl çalanda balıqlar üzməyə başlayır. Hələ bu vaxtacan heç kim belə balıqlar görməyib. Həmin o yüz min sikkəni yalnız mən qazana bilərəm.

Vəzir dəmirçiyə öz ixtirasıyla saraya gəlməyi tapşırdı.

Vəzir bazardan çıxmağa hazırlaşanda cavan bir qız ona yaxınlaşıb dedi:

– Cənab vəzir, mən dərzi qızıyam, ipdən tovuzquşu toxumağı bacarıram. İstərdim ki, öz tovuzquşumu şaha göstərim.

Vəzir maraqlandı:

– Sənin iplərlə toxunmuş tovuzquşun şahı nəyi ilə maraqlandıra bilər?

Dərzi qız izah etdi:

– Cənab vəzir, mənim tovuzquşum kənardan adi görünə bilər, əslində isə o, heyrətamizdir. Mənim tovuzquşum canlı deyil, amma mən əmr etsəm, uçacaq, sonra əmr etsəm, qayıdacaq. Belə bir quşu heç kim heç vaxt görməyib. Şübhə etmərəm ki, şah onu görəndə sevinəcək və min qızıl sikkəni mənə verəcək.

Vəzir onların hamısından ertəsi gün şah sarayına gəlmələrini xahiş etdi.

Səhər tezdən şah Camşedin sarayına ilk əvvəl yaşlı qadınla dul qadın gəldi. Onlardan dərhal sonra kəndli kişi şum boyunduruğuyla peyda oldu.

Şah yaşlı qadından soruşdu:

– Niyə sən öz cındır döşəkağınla gəlməyi qərara aldın?

Yaşlı qadın cavab verdi:

– Mən bilirəm ki, şah zər-zibalı, pərqu yorğan-döşəkli çarpayıda yatır. Güman etdim ki, siz belə nimdaş döşəkağını heç vaxt görməmisiniz.

Sonra şah dul qadından nəyə görə bura əyri-üyrü balqabağıyla gəldiyini soruşdu. Dul qadın cavabında dedi:

– Mənim ağam, bura min qızıl sikkəni almaq ümidiylə gəlmişəm, düşündüm ki, sizin kimi bir şah belə bir ucuz, əyri-üyrü balqabağı görə bilməz.

Şah Camşed vəzirə əmr etdi:

– Onların hər birinə on qzıl sikkə verib de ki, mənim sarayımdan rədd olsunlar.

Bu vaxt şah kəndlidən soruşdu:

– Ay mənim kəndlim, sən niyə özünün şum boyunduruğunu gətirmisən? Mən axı şah sarayında əkin-biçinlə məşğul olmayacağam!

Kəndli cavab verdi:

– Mənim ağam, düşündüm ki, siz heç vaxt həyatda əsl boyunduruğu görməmisiniz!

Cavabında şah dedi:

– Mən bir şah kimi səltənətimin bütün insanlarını qidalandırmaq üçün siz kəndlilərin torpağı necə əkib-becərdiklərini, məhsul yetişdirdiklərini yaxşı bilirəm. Yaxşı olar ki, tarlaya qayıdıb öz işinlə məşğul olasan.

Kəndli tarlaya qayıtdı. Şah vəzirdən soruşdu:

– Doğrudanmı mənim səltənətimdə bu vaxtacan görmədiyim şeyi mənə göstərə biləcək adam yoxdur? İstədiyimi indi necə əldə edim?

Vəzir dedi:

– Hökmdar, dəmirçi ilə dərzinin qızı da gələcək. Xahiş edirəm, səbirli olun.

Bu zaman dəmirçi gəlib çıxdı. O, bir qabın içində dəmirdən düzəltdiyi balıqları gətirmişdi. Dəmirçi dedi:

– Ağam, mən dəmirçiyəm, dəmiri döyməklə dolanıram. Mən indiyə qədər kiminsə nə vaxtsa görmədiyi bir şey düzəltmişəm.

Qaba baxın, siz orada balıqları və çömçəquyruqları görəcəksiniz. Bütün hamısı dəmirdən hazırlanıb. Onları suya buraxıb əl çalsan, üzəcəklər.

Şah xahiş etdi:

– Di onda təşkil elə, bunu öz gözlərimlə görüm. Dəmirçi balıqları və çömçəquyruqları şah Camşedin sarayının qabağındakı nohura atdı. Şah əl çaldı və elə bu an dəmir balıqlar üzməyə başladılar, çömçəquyruqlar da böyüklərin ardınca üzdülər.

Bu vaxt dərzi qız da iplərlə toxunmuş tovuzquşu ilə şah sarayına gəlib çıxmışdı. Qız şaha dedi:

– Ağam, gecikdiyimə görə üzr istəyirəm. Biz dərzilərə tələsmək olmaz. Əgər azca diqqətsiz olsaq, ip dolaşa bilər. Odur ki biz gərək öz işimizdə çox soyuqqanlı və təmkinli olaq. Bununla belə, mən sizə göstərmək üçün iplə toxuduğum tovuzquşumu gətirmişəm. Bu tovuzquşu canlı deyil, amma nə deyirəmsə, yerinə yetirir. O, iki gün yarımlıq çağanı belinə alıb göydə uça bilər.

Şah dedi:

– Həqiqətənmi?! Yaxşı, dərzi qız, bu görünməyəni mənə göstər görüm.

Dərzi qız tozvuzquşunu çıxarıb dedi:

– Ağam, sən əgər, doğrudan da, görünməyəni görmək istəyirsənsə, onda zəhmət olmasa, mənə iki gün yarımlıq bir çağa gətir.

Şah iki gün yarımlıq bir çağanı gətirməyi vəzirə əmr etdi. Amma vəzir əmri yerinə yetirə bilmədi. Bu vaxt şah dedi:

– Vəzir, mən nəyin bahasına olursa olsun, görünməyəni görməliyəm. O yaşda çağanın tapılması məsələsini həll et.

Vəzir dedi:

– Dilimə gətirməyə də qorxuram, amma sizin oğlunuz elə təzəcə iki gün yarımlıq olub.

Şah Camşed bir qədər düşünüb dərzi qızdan soruşdu:

– Ümid edirəm ki, mənim oğluma xətər toxunmaz, eləmi?

Dərzi qız dedi:

– Ağam, deməli, mənim tovuzquşum göyə belində sənin oğlunla uçacaq. Narahat olma amma unutma ki, çağa üfüqdə qeyb olanacan gərək məndən xahiş edəsən ki, ona yerə enməsini bildirim. Onda sağ-salamat yerə enəcək.

Şah çağanı almaq üçün arvadına tərəf getdi. Arvadı qorxub yeni doğulmuş şahzadəni təhlükəyə atmaq istəməsə də, hər halda, şahın iradəsinə qarşı çıxa bilmədi. Şahın arvadı bir kağız parçasına balaca şahzadənin ünvanını yazdı – "Matiur Rəhman, Dxarma səltənətinin şahı Camşedin oğlu". Lazım ola biləcək ünvan çağanın paltarının cibinə tikildi.

Sonra dərzi qız şaha dedi:

– Ağam, buyurun, oğlunuzu tovuzquşunun belinə qoyun.

Şah Camşed qız deyən kimi elədi.

Dərzi qız ucadan dedi:

– Ey tovuzquşu, göyə uça bilərsən.

İplərlə toxunmuş tovuzquşu yuxarı qalxdı, belində iki gün yarımlıq çağayla mavi göylərdə qanad çaldı. Bir anlığa dərzi qıza elə gəldi ki, dəmirçinin ixtirası min qızıl sikkənin yarışında ona rəqib ola bilər. Odur ki dərhal tovuzquşunu çağırıb ucadan əmr etdi:

– Mənim əziz tovuzquşum, zəhmət olmasa, aşağı enib nohurdakı balıqlarla, çömçəquyruqlarlı ye.

Elə anındaca iplərlə toxunmuş tovuzquşu yerə enib bütün balıqları və çömçəquyruqları yedi və təzədən göyə qalxdı. Şah gördüyü mənzərəyə heyran qalmışdı. Balıqları yeyəndən sonra güc toplayan tovuzquşu göy üzünə qalxdı, az qala buludlara çatdı.

Dərzi qız dedi:

– Ağam, siz artıq çoxdan mənə icazə verməliydiniz ki, tovuzquşuma sizin oğlunuzla geri qayıtmasını deyim.

Amma şah bu mənzərəyə həddindən ziyadə valeh olduğundan, dərziyə öz tovuzquşuna geri dönməsini əmr etməyə icazə verməyi unutmuşdu. Bu zaman artıq iplərlə toxunmuş tovuzquşu buludların arxasında gözdən itmişdi.

Şah dərzi qıza dedi:

– Hə tovuzquşuna de ki, geri qayıtsın.


Dərzi qız cavab verdi:

– Ağam mənim, demişdim axı, buludların arxasında gizlənəndən sonra iplərlə toxunmuş tovuzum daha məni eşitmir! İndi buludların arxasında olduğundan quşum geri qaytarmaq mənim iqtidarımda deyil.

Qəzəblənən şah dərzini tutub əsgərlərinə əmr etdi ki, onun boynundan daş assınlar. Zindana salınan dərzi ağlayırdı.

Bu zaman iplərlə toxunmuş tovuzquşu belindəki iki gün yarımlıq çağayla Paristan adlı hurilər səltənətinə gəlib çatdı.

Paristanda yaşlı bir bağban qadın yaşayırdı. Qadın öz bağında şah sarayı üçün güllər yetişdirirdi və buna görə iyirmi taka alırdı. Günlərin bir günü gördü ki, bağındakı bütün güllər məhv olub, biri də salamat qalmayıb. Qadın dilxor olub bundan sonra necə yaşayacağını düşündü.



Elə bu zaman iplərlə toxunmuş tovuzquşu yorulub yaşlı qadının bağındakı ölü qızılgül kolluqlarından birində dincəlmək qərarına gəldi. Bitki dərhal dirilib çiçək açdı. Yaşlı qadın həyəcanla gülləri dərməyə qaçdı. Gülləri yığanda kolluqdan qulağına ağlayan uşaq səsi gəldi. Bu, on iki günlük şirin bir körpə idi. Yaşlı qadın uşağa yiyə durub öz evinə apardı və ona doğması kimi baxdı. Uşağa Matiur adı verdi.

Nağıl dili yüyrək olar. Şah Camşedin oğlunun on altı yaşı tamam oldu. Bir gün yeniyetmə heç bir sap işlətmədən gül səbəti düzəldib, onu digər çiçəklərlə birlikdə yaşlı bağban qadının yükünə qatdı. Yaşlı qadından gülləri alan Paristan şahı onların arasındakı sapsız gül səbətini görəndə heyrətləndi:

– Niyə bu vaxtacan sapsız gül səbəti hazırlaya bildiyini deməmisən.

Qadın cavab verə bilmədi, çünki işdən xəbərsiz idi. Sonra Paristan şahına dedi:

– Mənim ağam, sizə yalnız sabah cavab verə bilərəm.

Həmin gün şah ona yüz iyirmi taka verdi.

Paristanlı yaşlı bağban qadın evə qayıdıb Matiurdan soruşdu:

– Mənim balam, o səbəti sən düzəltmisən?

Matiur başıyla təsdiqlədi.



Ertəsi gün yaşlı qadın Paristan şahına iki bağlı gül səbəti hədiyyə edib dedi ki, bunları onun oğlu düzəldib. Paristan şahı onun oğlunu görmək istədi.

Ertəsi gün bağban qadın Matiuru Paristan şahının sarayına apardı. Matiur özüylə üç çiçək səbəti götürdü – ikisi əllərində, biri boynunda. Birini Paristan şahına, o birini şahın arvadına hədiyyə etdi. Şah ona min taka, şahın arvadı isə brilyant üzük verdi. Daha sonra Matiur üçüncü səbəti boynundan açıb Paristan şahzadəsinə hədiyyə etdi. Hədiyyədən razı qalan şahzadə Matiura aşiq oldu. Paristan şahı çox da düşünmədən onların xeyir-duasını verdi.

Həmin gecə Matiur köhnə tanışı tovuzquşuyla görüşəndə quş ona əsli-nəcabəti barədə danışdı:

– Deməliyəm ki, səni böyüdüb boya-başa çatdıran qadın heç də sənin doğma anan deyil. Paristandan öz valideynlərinin yanına qayıtmağının vaxtı çatıb. Mən səni və arvadını belimdə apara bilərəm, amma övladın olarsa, üçünüzə gücüm çatmayacaq.

Tovuzquşunu dinləyəndən sonra Matiur yaşlı qadından quşun düz deyib-demədiyini soruşdu. Yaşlı qadının tovuzquşunun sözlərinin həqiqət olduğunu etiraf etməkdən başqa çarəsi qalmadı.

Beləcə, tovuzquşu Matiurla şahzadəni belinə alıb Draxma səltənətinə çatdıracağına söz verdi.

Qayıdandan sonra tovuzquşu buludların arxasında – Paristan səltənətində nələr baş verdiyini dərziyə danışdı. Oğlunu görən şah Camşed dərzinin qandallarını açdırıb ona vəd etdiyi min qızıl sikkəni verdi. Bütün səltənət şahzadə oğulun qayıtmasını bayram edib, onun şahzadə xanımına böyük ehtiram göstərdi.

Səlim əl-Din

MONRİ MANQÇMUİ

Bu rəvayət dünyanın özü qədər qədimdir. Bir cüt göyərçin meşədə saman çöplərindən özlərinə yuva qurmuşdular. Vaxt-vədə yetişəndə yuvaya iki yumurta qoydular. Cütlük əsl valideyn qayğısıyla onları qoruyurdu. Vaxt-vədə yetişəndə o yumurtalardan iki bala çıxdı. Quşlar havada böyüyüb, bu dünyanın nurunda çimdilər. Günlərin bir günü valideyn-göyərçinlər öz balaları üçün dən axtarışına çıxdılar. Elə bu zaman yanğın başladı və bütün meşə alova qərq oldu. Bala göyərçinlər havaya qalxa bilmədilər, bütün yuvayla birlikdə yanıb kül oldular. Bu itkiyə dözə bilməyən valideyn-göyərçinlər də balalarının ardınca özlərini alova qurban verdilər. Və yenidən doğuluşlarında onlar Satanur və Monri adlandılar.

Domaroy göyün hökmdarı idi. Bir gün Göydən yerə bir neçə Czin endi. Banqladeşin meşələrinin təpəliklərindəki çiçəkləri və şəlalələrini müşahidə etdikdə gördüklərindən heyrətləndilər. Ertəsi gün vəhşi öküzün hücumuna məruz qalıb Göyə – öz hökmdarları Domaroyun yanına qayıtdılar, ona dünyanın meşələrini, çiçəklərini və şəlalələrini rəqs edə-edə, mahnı oxuya-oxuya tərifləmişdilər. Domaroya bənzəyən yeddi sehrbaz pəri Czinlərin mahnısını eşitdilər. Dünyanın gözəllikləri haqqında eşidən şahzadələr təpəliklərin arasındakı göldə çimməyə tələsdilər. Onlar yerə enmək üçün cidd-cəhdlə atalarının razılığını almağa çalışdılar.

Domaroy dedi:

– Olmaz! Əziz qızlarım, sizə ölərilərin yanına etməyə icazə verə bilmərəm. Çox pis bir yuxu görmüşəm.

Şahzadələr soruşdular:

– Nə yuxu, ata?

– Domaroy dedi:

– Yuxuda gördüm ki, bizim füsunkar hovuzumuzda yeddi lotos çiçəkləyib. Lotoslar eynilə sizin kimi gözəl idi. Amma qəflətən haradansa qəzəbli iblis peyda olub lotosun çiçəklərini qoparıb getdi. Mən bu yuxunun yozumunu anladım. Xahiş edirəm, məndən yerə enməyə icazə istəməyin.

Şahzadə-sehrbazlar ataları Domaroyu dinləyəndən sonra dedilər:

– Əgər sən bizim yerə enmək arzumuzu eşitmək istəməsən, biz göy yeməklərindən birinə də əl vurmayacağıq.

Bunu deyib üzlərini çevirdilər. Şahzadələrin istəklərində israrlı və qətiyyətli olduqlarını görən saray əhli yumşaq tərzdə öz fikirlərini bildirməyə başladılar:

– Zati -aliləri, siz onlara getməyə izn verə bilərsiniz. Özünüz də bilirsiniz ki, yuxuda görünənləri tərsinə çevirməyin üsulları var.

Və bu vaxt Domaroy qızlarına bu cür cavab verdi:

– Aydındır, yaxşı, mənim qızlarım. Amma siz gərək Ali Çıbar Qurbanlığı ayininin icra edəsiniz. Bir gecəyə pambıq yığıb hazırladığınız yeddi mundiri Budda məbədinə qurban verməlisiniz. Bu zaman ilahi Buddanın xeyir-duasını alacaqsınız. Və yalnız bundan sonra yerə yollana bilərsiniz.

Ata öz qərarını dəyişməyənə qədər şahzadələr gecə yığdıqları pambıqdan iplik hazırlayıb mavi rəngə boyadılar və onlardan "çibar" adlanan yeddi müqəddəs mundir düzəltdilər. Sonra çibarları Budda məbədinə qurban verdilər. Yalnız bu ayindən sonra səfərə çıxmağa icazə ala bildilər.

Şahzadə-sehrbazlar şəlalənin füsunkarlığına, Banqladeşin dağlıq ərazisindəki gölün sularına düşən günəşin şüalarının əksinə, sadəcə, heyran qalmışdılar. Onlar orada böyük şövqlə üzürdülər, axşamlar isə yenidən geriyə – Göyə uçurdular. O vaxtdan yeddi şahzadə davamlı şəkildə təpəlikdəki gölə enib su idmanı ilə məşğul olurdu. Bir gün sudakı pəriləri görən ovçu onları zindana

salmaq qərarına gəldi. Öz amansız qərarının icrası üçün kömək məqsədilə Kidanq təpəliyinin cənubundakı mağarada yaşayan Naqaradjaya müraciət etdi. Naqaradja ovçuya güclü zəhər verib onu toruna yaxmağı və şahzadələrdən birini üstünə atmağı məsləhət gördü. Ovçunun toruna Monri Manqçmui adlı balaca şahzadə düşdü. Ovçu onunla evlənmək istədi. Amma Monri ovçuya yalnız qardaş kimi baxa bilərdi. Sonra ovçu Monrini Marma şahzadəsi Satanuyla tanış etdi. Satanu Monriylə evləndi, ovçu isə onların nökəri oldu. Toydan sonra göylərin pərisi Monri belə oxudu:

"Mən uca göylərdən endim,
Təpəliklərdə çiçəklənən pambığı gördüm,
Və bu dünyanı sevdim.
Və həm də Banqladeşin təpəliklərindəki gölə,
O gözəl gölə valeh oldum".

Bundan sonra Monri yalvararaq ilahi Buddadan imdad dilədi:

– Elə et ki, mən bir də Göyə qayıtmayım! Monri və Satanunun ailə həyatı xoşbəxt keçirdi. Monri Marma kralının sarayında ilahi Buddanın dini təlimlərindən dərs deməyə başladı. Bu da gələcəkdə özlərinin ruhani rütbələrinə təhlükə yarana biləcəyini duyan brahmanları narahat etdi. Onlar düşündülər ki, belə getsə, sadəcə, acından öləcəklər.

Bu hadisələr zamanı Marma krallığı ilə qonşu krallıq arasında müharibə başladı. Satanu döyüş bölgəsinə yollanmalı idi. Bu arada Monri Satanuya bir oğul övladı doğmuşdu.

Elə məhz bu dönəmdə Marma kralı bir yuxu görüb onu Monriyə danışdı:

– Mənim pərim, keçən gecə yuxuda gördüm ki, bir ağ fil qarnımdan çıxıb, yeddi dəfə sarayın ətrafında dövrə vurandan sonra təzədən qarnıma girdi. Nə bilim, görən, sən bu yuxunu yoza bilərsənmi?

Monri dedi:

– Mənim ağam, bu, xeyirli yuxudur. Ağ fil hökm və hökmdarlığın əlamətidir. Siz oğlunuzun müharibəni udub qəhrəman kimi geri dönəcəyinin təsdiqini yuxuda görmüsünüz.

Yuxusunun yozumunun nə olduğunu bilən hökmdar ruhani-brahmanları saraya dəvət etdi. Yerli ruhanilər bu ərəfədə artıq Budda dininin yayılmasına qarşı birlik yaratmışdılar. Kral öz yuxusunu onlarla bölüşəndə belə cavab verdilər:

– Zati-aliləri, bu çox pis yuxudur. Bu sizin oğlunuz Satanunun ölüm xəbərinə bir işarədir. Amma Monrini bizim yerli məbədə qurban versəniz, bu faciənin qarşısını ala bilərsiniz.

Ruhani-brahmanların məsləhəti ilə kral Monrini yerli məbədə qurban verməyə razılaşdı. Yerli məbədin bir üzvü Monrini ona qarşı hazırlanan edamdan xəbərdar etdi. O, Monriyə canını xilas etmək naminə Göylərə qayıtmağı məsləhət gördü. Cavabında Monri dedi:

– Mən övladımı qoyub Göylərə qayıda bilmərəm. Həm də övladım Yer adamı olduğu üçün onu Göylərə aparmaq mümkünsüzdür.

Qadın dedi:

– Onda övladını burada qoy. Ona xətər toxunmayacaq. Əgər sən bir az da ləngisən, canından olacaqsan.

Bu dünyanı tərk etməzdən əvvəl Monri üzüyünü sıx meşəlikdə yaşayan rahibə verdi.

Satanu müharibədən qələbə ilə qayıtdı. Monrini görməyəndə dəli kimi olub evdən getdi. Uzun yol gəlib sıx meşəlikdə rahiblə rastlaşdı. Rahib Monrinin üzüyünü Satanuya verib, Göylərə olan yolu izah etdi.

Rahibin verdiyi istiqamətlə yola çıxan Satanu çətin səfərdən sonra Göylərə varid oldu. Göylərin hökmdarı Domaroy Satanunun gücünü və ağlını sınağa çəkib onun qızı üçün mükəmməl ər biləcəyini anladı. Göylərin xeyir-duasını alan Satanu və Monri yenidən evlənib Yerə göndərildilər.

Satanu və Monri Yerə qayıdanda məlum oldu ki, burada aradan yüz il vaxt keçib. Bu vaxt ərzində Satanu və Monrinin uşağı ahıl qocaya çevrilmişdi. Bununla belə, Satanu və Monri öz övladlarının yanına qayıtdıqlarına görə hədsiz xoşbəxt idilər.

İLİ-İPPAŞRA VƏ QIZININ RƏVAYƏTİ

Kral İli-ippaşra eramızdan əvvəl XIV əsrdə Dilmun (müasir Bəhreynin ərazisi) torpaqlarına hakimlik edirdi. İstəyirdi ki, çox sevdiyi gözəl qızı bütün işlərində arzusuna çata bilsin. Bu məqsədlə onu müqəddəs Şumer şəhəri Nippurun məktəbində təhsil almağa göndərdi. Orada olan müddətdə kral qızının təminatını ödəmək üçün əyanlar da onu müşayiət edirdilər. Kral hər ay qızını yoluxmaq üçün nümayəndələr göndərir, qəyyumlarını hədiyyələrlə sevindirirdi.

İli-ippaşra şumerlər ölkəsinə yollanaraq kral ailəsinə layiq savadlı övlad kimi ölkəsinə qayıdıb Dilmun xalqının sosial və mədəni həyatını idarə etmək üçün gecə-gündüz oxuyan qızı haqqında son xəbərləri almaq üçün nümayəndələrin qayıdışını səbirsizliklə gözləyirdi.

Bir gün kral İli-İppaşra sevimli qızının xəstəliyə düçar olduğunu eşitdi. Onu yoluxmaq üçün krallığı tərk edə bilmədiyindən, əlindən gələni edib, tapılmayan dava-dərmanları, hədiyyələri, hətta şəxsi həkimini ora yolladı. Atasından belə diqqət və qayğını görən şahzadə xəstəlikdən sağalıb təhsilinə davam etdi və nəhayət, səltənətinə gələcək taxt-tacın varisi və qürur mənbəyi kimi sağlam, savadlı bir övlad kimi qayıtdı.

Onun şərəfinə hökmdarlara layiq bir ziyafət təşkil olundu. Məşhur Çilqamış dastanında deyildiyi kimi, burada xəstəlik, ölüm və kədərə yer yox idi.

ENKİ VƏ NİNXURSAĞIN TARİXÇƏSİ

Su tanrısı Enki öz sevgilisi ilahə Ninxursağla xoşbəxt və firavan həyat sürmək (öz evini qurmaq) üçün münasib yer axtaranda Dilmun torpaqlarından gözəlini görmədi. Rəvayətlərdə bu ərazilər müqəddəs, saf, işıqlı yer kimi təqdim olunur. İçməli suyun bolluğundan buralarda həyat çiçəklənirdi. Torpaq yaşıllıqla elə örtülmüşdü ki, heyvanlar yem sarıdan korluq çəkmirdilər. Enki məhz Dilmunda ölümsüzlüyün sirrini açdı.

Bu barədə eşidən şumerlərin böyük mifik qəhrəmanı Çilqamış ölümsüzlük çiçəyinin axtarışı ilə Dilmuna yollandı. Bu çiçək əfsanəyə görə, dənizin dibində ağ mirvari şəklində idi. Dənizin dibindən boylanan, duzlu və içməli suyla qarışan bu gözəllik göz qamaşdırırdı.

Enki və Ninxursaq ən çox Varvara diyarına valeh olmuşdu. Odur ki özləri üçün məhz bu yerdə bu günəcən qalan məbəd inşa etmək istədilər. Qədim məbəd, onların Tunc dövründə bura gəldiklərinə dəlalət edir.

Onlar məbədin ətrafında insanların və heyvanların məskunlaşdıqları bir şəhər saldılar. Burada bir çox sənaye sahələri – xüsusən tikişçilik və dulusçuluq inkişaf edirdi. Daş evli kəndlərdən ibarət icmalar yarandı, Enki və Ninxursağın ciddi nəzarəti altında cəmiyyət gün-gündən irəli getdi.

Möhür və tərəzilərin mürəkkəb sistemi yaradıldı, həmçinin Hindistan və Mesopotamiya əraziləri ilə ticarət əlaqələri genişlənməyə başladı.

Dilmun əhalisi firavan ömür sürdü. Onlar suyun kənarında müxtəlif növ bitki və heyvanlarla qidalanaraq əmin-amanlıq içində yaşadılar.



BAN QİAY VƏ BAN ÇINQ NECƏ YARANDI

Ban Qiay və Ban Çınq vyetnamlılar arasında çox məşhur olan iki yemək növüdür.

Ban Qiay ənənəvi olaraq karnavallarda və müxtəlif mərasimlərdə süfrəyə verilir. O, görünüşündən ağ, yumşaq və qatı xəmirə bənzəyən Kleyk Nep düyüsündən hazırlanan yumru, qabarıq kökədir. Quruluşca günbəzəbənzər üst qatına görə bu kökə göy üzünü xatırladır.

Ban Çınq isə, adətən, Ay təqviminin ilk ayının üç günündə – Vyetnam yeni ilində süfrəyə verilir. Bu banan yarpaqlarına bükülmüş, bambuk saplaqlarıyla bağlanmış dördküncşəkilli piroqdur. Çox dadlı və doyumlu qidadır. Daxilindəki noxud xəmirindən olan içliyə yağlı, yaxud yağsız donuz əti də əlavə etmək olur. Bu qatı doldurulmuş içliyi Kleyk Nep düyüsünün ortasına qoyurlar. Dördkünc forma Vyetnam xalqı tərəfindən torpağın bərəkətinə olan minnətdarıq hissini ehtiva edir – bu torpaq ildə dörd mövsüm onları azuqəylə təmin edir. İndi isə Ban Qiay və Ban Çınq yeməklərinin necə yaranmasının tarixindən danışaq.

* * *

Kral VI Xunq uzun və mənalı bir ömür sürmüşdü. An işğalçılarının yürüşlərinə son verib səltənətində əmin-amanlığı bərpa edəndən sonra, nəhayət, yaşlı çağlarında ruhi rahatlıq tapmaq üçün dünyəvi qayğılardan əl çəkib taxt-tacını təhvil vermək qərarına gəldi.

Kral iyirmi iki oğul atasıydı və şahzadələrin hər biri layiqli övlad idi. Varislərin arasından özünün davamçısı kimi birini seçməli idi. Bu çox qəliz seçim idi. Oğlanlarından hansının gələcək hökmdar adına daha layiqli olduğunu kral müəyyənləşdirə bilmirdi. Bu barədə xeyli düşünəndən sonra, nəhayət, maraqlı bir qərar qəbul etdi. Dünya səyahətinə çıxmaqla çox şey öyrənmək olar. Odur ki oğlanlarını səfərə yollamaq qərarına gəldi.

İyirmi iki şahzadəni hüzuruna çağırıb tapşırdı:

– Dünyanın ən ucqar yerlərinə gedib mənim üçün indiyəcən dadmadığım, amma çox bəyənəcəyim qida məhsulları arayın. Ən yaxşı yeməklə qayıdan oğul bu səltənəti idarə edəcək.

Şahzadələr buradan ayrılıb səfərə hazırlaşdılar. İyirmi bir şahzadə kralın daha çox bəyənəcəyi yeməyi tapmaq ümidi ilə uzaq səfərə çıxdı. Bəziləri şimala – soyuq və o qədər də qonaqpərvər olmayan diyarlara, bəziləri cənuba, şərqə və qərbə yollandı.

Amma bir şahzadə kral sarayını tərk etmədi. O, kralın on altıncı oğlu olan Lanq Lyu adlı şahzadə idi. Hələ lap uşaq çağlarında anası ölmüşdü və o, qardaşlarından fərqli olaraq ana məhəbbətinin istiliyini görməmişdi. Qayğısına qalan yalnız qoca dayəsi idi.

Şahzadə Lanq Lyu çaşıb qalmışdı, kral üçün təzə yeməyi harada axtarmaq barədə qəti anlayışı yox idi. Məsləhət verəni də yox idi. Odur ki qəm-qüssə içində sarayda qalmalı olmuşdu.



Bir gecə cin yuxusuna girib dedi:

– Şahzadə, sənin tənhalığın mənə agahdır, bu gənc yaşında keçirdiyin həyəcanı da başa düşürəm. Mən yuxuna sənin atanı razı sala bilməyin üçün göndərilmişəm. Odur ki ümidini üzmə. İnsan düyüsüz yaşaya bilməz – bu onun əsas qidasıdır. Təbiətin qanunu belədir. Odur ki əvvəlcə yapışqan düyü, azca noxud, bir az da yağlı və yağsız donuz əti götür. Bir neçə banan yarpağı dər və bambukdan nazik saplaqları ayır. Yadda saxla, bütün bu məhsullar Yer üzünün bərəkətinin rəmzidir. Düyünü təmiz suda isladıb qaynat. Düyü bişənə yaxın onu xeyli silkələ – günbəzəbənzər nazik kökə əmələ gələcək.

İndi noxud xəmiri ilə donuz tikəsindən içlik hazırla. Onları yapışqan Nep düyüsünün arasına qoy. Hamısını dördkünc şəkildə banan yarpaqlarına bük. Sonra nazik bambuk saplaqlarıyla bağla. Piroqu lazım olan gün hazırla ki, istifadəyə yararlı olsun.

Sonra cin qeyb oldu və şahzadə oyanıb gördü ki, gözləri açıq halda yatağında uzanıb tavana baxa-baxa eşitdiklərini təkrarlayır. Bu onun yuxusunamı girmişdi? Sübh tezdən bu sirri dayəsinə açdı və onlar birlikdə lazımi ərzaqları yığıb eynilə cinin dediyi kimi hazır saxladılar. Şahzadələr səfərdən ərik ağacları çiçəkləyəndə qayıtdılar. Axtarışlardan bərk yorulsalar da, qələbələrinə inamlıydılar. Hər biri gətirdiyi yabanı bitkilərdən öz əlləriylə xüsusi yeməklərini hazırlayırdı. Sanki hər şahzadə məhz onun yeməyinin qalib gələcəyinə əmin idi.

Müəyyən edilmiş gün yeməkləri şahın qabağına gətirdilər. Şah iyirmi bir yeməyin dadına baxıb iyirmi bir dəfə başını buladı. Sonra şahzadə Lanq Lyu təvazökarcasına özünün iki yeməyini gətirdi – birinci göy üzü kimi ağ və yumru kökəsini, ardınca istidən buxarlanan, banan yarpaqlarına bükülmüş nazik bambuk saplaqlarıyla bağlanmış torpaq kimi dördkünc piroqunu.

Şahzadə yarpaqları açıb bambukdan olan bıçaqla yumşaq piroqu kəsdi. Yağlı və yağsız donuz ətinin qəhvəyi tikələri və ağımtıl piy qatlarının yığıldığı içlik bəyaz və sarımtıl limon rəngindəydi.

Kral dördkünc piroqdan bir tikə alıb dadına baxdı. Sonra axırına çıxanacan, ikinci, üçüncü... tikələri həzmi-rabedən keçirdi. Sonra ləzzətlə yumru kökəni yedi.

– Yenə də var? – ləzzətdən parlayan gözləriylə ağzını marçıldada-marçıldada soruşdu.

Şahzadə Lanq Lyu cinin yuxusuna girib ərzaqları necə seçib, yeməyi nə sür hazırlamasını ona izah etdiyi barədə əhvalatı danışdı. Saray əhli sakitcə onu dinlədi.

Bu vəhy krala çox təsir etdi. Çünki bu, ilahi müdaxiləyə bir işarət idi. Kral anladı ki, dövləti idarə edərkən gənc şahzadə tanrıların dəstəyinə bel bağlaya bilər. Əlbəttə ki, o, Lanq Lyunu qalib seçib, onu özünün vəliəhdi və davamçısı elan etdi. Kral qərara aldı ki, yumru kökə Ban Qiay, dördkünc piroq isə Ban Çınq adlanmalıdır. Və öz əyanlarına əmr etdi ki, bu yeməyin hazırlanma üsulunu Vyetnam xalqına da çatdırsın.

YÜZ YUMURTANIN TARİXÇƏSİ

Qədim əyyamlarda, Göyün və Yerin yaranışından uzun illər sonra Şimali Vyetnamın Xonqxa çayının mənbəyində insanlar məskunlaşdı. Onlar balıq tutur, düyü əkib-becərirdi. Onların ovu da, məhsulu da çəkilmə və qabarmalardan asılı idi.

Bir gün Lak Vyet (indiki Vyetnam) məmləkətində Lak Lonq Kuan adlı bir tanrı peyda oldu. Rəvayətdə nəql olunduğu kimi, Lak Lonq Kuan şimalda – Nqu Lin dağının yaxınlığında yaşayan Tan Nonqun nəslindən idi. Onun nənəsi ikinci adı Vu Tien olan ilahə Nui Nqu, atası Kin Duq Vuonq idi. Dağ tanrısı və kral Siç Kui su ilahəsi Xo Donq Dinlə evlənmişdi. Dağ tanrısı və su ilahəsinin izdivacından Lak Lonq Kuan doğulmuşdu. Həm də su əjdahası olan anasının bir çox cizgiləri Lak Lonq Kuana da keçmişdi. Onun əsl adı Sunq Lam idi.

Kin Dunq Vuonq Lak Vyet məmləkətini Lak Lonq Kuana verdi. Kin Zıonq Vıonqdan şimalda Siç Kui ölkələri yerləşirdi; Donq Din (Xo Nam) gölünün suları bərq vururdu; cənubda Xo Ton (Çampa) dövlətinin torpaqları uzanırdı; qərbdə Va Txu (Tu Syuyen) yerləşirdi, şərqdə isə ərazilər Nam Xau okeanınacan gəlib çatırdı.

Lak Lonq Kuan əzəmətli imperator sarayını gölün dibində yaratdı. Özünün əzəmətli sualtı imarətindən əlavə, hündür dağın yüksəkliyində də Lonq Tranq adlandırdığı möhtəşəm bir ev ucaltdı. Ağır alaqapılar arxasında çoxlu ağaclardan ibarət bir bağ saldırmışdı. Amma özünün əsas yaşayış məskəni kimi sualtı imperator sarayını seçdi. Məmləkətin sakinlərinə elan etdi ki, əgər

onlara lazım olarsa, camaatın, sadəcə, gölə yaxınlaşıb "Ay ata!" deməsi kifayətdir. O, dərhal peyda olacaq.

Bir gün tanrı De Lay Lak Vyet məmləkətinə getmək qərarına gəldi. Özüylə arvadını da apardı (bəziləri deyirdilər ki, qızıdır). De Lay da Tan Nonqun nəslindən idi. Yəni Lak Lonq Kuanla qohum idi. De Lay Lak Lonq Kuan sualtı sarayında olanda təşrif buyurdu. O, arvadını həyət-bacalı bir mülkdə qoyub öz qoşunu ilə ölkəni gəzməyə çıxdı və kəndlərdən birinə gəldi. De Layın qoşunlarının kəndliləri sıxışdırıb-sıxışdırmamaları tam dəqiq məlum olmasa da, görünür, camaatı əməllicə incitmişdilər. Çünki kənd əhli Lak Lonq Kuanı köməyə çağırmalı oldu.

Lak Lonq Kuan quruya çıxıb De Lay Lakın arvadını qoyduğu mülkə yol alanda orada Au Konu gördü.

Qız çox gözəl idi və o, ilk baxışdan ona vuruldu. Lak Lonq Kuan qədd-qamətli və yaraşıqlı bir oğlana çevrilib çaldığı lirayla məhəbbət balladaları oxuya-oxuya qızın qapısı önündə peyda oldu. Au Ko da bu gənc oğlanı görən kimi ağlı başından çıxdı. Onlar evləndilər və Lak Lonq Kuan qızı özüylə Lony Tranqa apardı.

De Lay qayıdıb Au Konun yoxa çıxdığını görəndə hiddətlənib döyüşçülərinə onu axtarmalarını əmr etdi. Bu vaxt Lak Lonq Kuana xəbər çatdı ki, kənd camaatını təslim olmağa vadar edirlər. Odur ki yolun qarşısını kəsmək üçün əjdahalar, ilanlar, fillər, pələnglər, digər güclü məxluqlar cildinə girdi. De Layın əsgərləri qorxudan qaçıb öz hökmdarlarına geri durmağı məsləhət gördülər. Amma o eşitmək istəmədi. Qərara aldı ki, burada qalıb Au Konu axtarsın. Lak Lonq Kuanla De Layın arasında nələrin baş verdiyi bilinməsə də, bir o məlumdur ki, De Lay məğlub ordusunu şimal tərəfə çəkməyə məcbur oldu.

Lak Lonq Kuanla izdivacının birinci ilində Au Ko yüz yumurta çıxardı və onlardan yüz insan əmələ gəldi. Bu uşaqların qayğısına qalmağa və onları tərbiyələndirməyə ehtiyac qalmadı. Onlar ağlasığmaz sürətlə böyüyüb sağlam, ağıllı insanlar oldular.

Suda yaşamağa öyrəşmiş Lak Lonq Kuan eləcə özünün sualtı imperator sarayında qalsa da, Ay Ko quruda ömür sürürdü.

Ərindən uzaqda qaldığından tez-tez öz vətəni yadına düşürdü. Bir gün yüz uşağının hamısını özüylə aparıb doğma ocağına qonaq getdi.

Aradan keçən zaman içində De Lay artıq sağ deyildi, Xonq Denin döyüşçüləri tərəfindən öldürülmüşdü. Həmin o Xonq De Au Konun yüz kişiylə qayıtdığını eşidəndə təşvişə düşüb min əsgərinə əmr etdi ki, onu sərhəddə dayandırsınlar. Belə böyük bir ordunu görən Au Konun dönüb geri qayıtmaqdan başqa çarəsi qalmadı. O, düşmən ordunun Lak Vyetə hücumundan ehtiyatlanaraq ərinə müraciət etdi. Onların son görüşü Donq Konda baş tutdu.

Au Ko əvvəlcə Lak Longq Kuanı uzun müddət yanında olmadığına, sonra şimalda baş verənlərə görə günahlandırdı. Lak Longq Kuan arvadına və oğlanlarına bunun əsl səbəbini izah etdi:

– Təbiətcə mən əjdaha, sən isə pərisən. Bizim vərdişlərimiz də, həyat tərzlərimiz də fərqlidir. Odur ki bir-birimizdən uzaq durmalıyıq. Düzdür, bu çox çətindir, amma biz kifayət qədər birlikdə olmuşuq. Odur ki indi övladlarımızdan əllisi mənimlə sualtı saraya gedəcək, qalanları da quruda anasıyla qalacaq. Oğlanlarımızın yarısı suda, yarısı quruda yaşasa da, onlardan biri dara düşəndə qalanları hamılıqla köməyə gəlməlidir.

Yüz övlad atanın nə istədiyini anlayıb yarıya bölündü, əlli oğlu anayla dağlara qalxdı, o biri əlli oğul isə atayla suya girdi. Vyetnam xalqı bax belə yarandı. Au Ko və onun əlli oğlu Xunq Vuonq adlı səltənəti idarə etdi. Elə bu səbəbdən də vyetnamlılar özlərini əjdaha və pərinin nəvələri hesab edirlər.

XEYİRXAH FİL

Qədim əyyamlarda, Braxmadattanın Benaresin kralı olduğu dövrlərdə şəhərdən çox da uzaq olmayan kənddə əlli xarrat yaşayırdı. Onlar bərə ilə meşəyə yollanıb burada taxta, şalban yonub düzəldir, bir, yaxud ikimərtəbəli evin sütununu yığır, əsas tirdən başlayaraq hər hissəni nömrələyirdilər. Sonra hazırladıqlarını çayın sahilinə düşürüb bərəyə yükləyir, suyun axınıyla geri üzürdülər. Sifarişçinin istəyinə uyğun hazırladıqları ev etibarlı və gözəgəlimli olurdu. Öz haqlarını alıb yenidən meşəyə qayıdır, ehtiyatlarını görürdülər. Beləcə, həyatlarını təmin edirdilər.

Bir gün xarratlar şalban yonduqları yerdə bir fil akasiyanın tikanlarını basdaladı və ayağı şişib irinlədi. Fil dözülməz ağrı çəkdi. Ağrıdan az qala öldüyü bir vaxtda ağacları kəsən xarratların səsini eşitdi. "Bəlkə, xarratlar mənə kömək oldu" – düşünüb axsaya-axsaya gəlib onların qabağında yerə uzandı. Xarratlar iti bıçaqla irinin ətrafında deşiklər açdılar, ayağına kəndir bağlayıb tikanı çıxardılar. Sonra lazım olan otları yığıb isti suyla yudular və yaranın üstünə qoydular. Yara tez bir vaxtda sağaldı.

Fil sağaldığına görə çox minnətdar idi: "Mənim həyatımı bu insanlar qurtardılar, odur ki onlara xidmət etməliyəm" – düşündü. O, ağacları kökündən qoparır, xarratlar isə doğrayırdılar, sonra fil şalbanları bir yerə toplayırdı. Onların bütün ağır iş ləvazimatlarını xortumunda tutub göz bəbəyi kimi qoruyurdu. Filin yemək vaxtı çatanda hər xarrat ona bir pay verirdi. Odur ki fil hər dəfə əlli pay yeməklə qidalanırdı.

Tezliklə fil ata oldu. Onun xeyirxah və çox gözəl ağ balası doğuldu. Fil qərara gəldi ki, artıq çox yaşlanıb, balasını xarratların xidmətinə yollayıb sərbəst olmağın vaxtı çatıb. Xarratlara bir söz demədən meşəyə gedib oğlunu gətirdi:

– Bu fil oğlumdur, – dedi, – məni sağaltdığınıza görə onu sizə verirəm. Bundan sonra o sizə kömək edəcək. Sonra ata cavan filə nə etməli olduğunu başa saldı. Dedi ki, bu vaxtacan onu etməyə öyrəşdiyi işin bir borc kimi yükü oğlunun üzərinə düşürt. Fil oğlunu xarratların yanında qoyub meşədə gözdən itdi. Beləcə, cavan fil ədəb-ərkanla xarratların xidmətində durdu. Bu fili də ataları kimi yedizdirirdilər – hər dəfə əlli payla.

İşini bitirəndən sonra fil çayda oynamağa gedir, sonra yenə qayıdırdı. Xarratların uşaqları filin xortumunu dartır, suda və quruda onunla oynaşırdılar. Fil, at, yaxud insan olması fərq etməz, nəcib məxluqlar heç vaxt suya nəcisini, ya sidiyini buraxmaz. Cavan fil də buna riayət edir, suda olanda quruya çıxanacan özünü saxlayırdı.

Bir yağışlı gün çayın suyu qalxıb yeməyi və yarıqurumuş peyin parçasını apardı. Axın onu Benares tərəfə gətirəndə kolluqların arasında ilişib-qaldı. Elə bu vaxt kralın nəzarətçiləri əlli heyvanı çayda yuyundurmağa gətirmişdi. Amma nəcib heyvanın peyininin iyini aldıqlarından fillərdən biri də suya girmədi, quyruqlarını qaldırıb qaçdılar. Nəzarətçilər baş verənləri fillərin təlimçilərinə danışanda "Yəqin, suda nəsə var" cavabını aldılar.

Suyu boşaltmaq əmri verildi və bu zaman oradakı peyini gördülər.

– Məsələ aydın oldu! – təlimçilər ucadan dedilər.

Onlar iri küp gətirib içini suyla doldurdular, sonra ora nəsə bir yuyucu toz səpib fillərin üstünə tökdülər. Heyvanların bədəni dərhal şirin və yapışqan oldu. Elə həmin an fillər çaya düşüb yuyundular.

Təlimçilər hadisə barədə kralı məlumatlandıranda məsləhət görüldü ki, qadağanı pozan fil oradan alınsın.

Kral qayığa əyləşib xarratların olduğu yerə çatanacan axınla yuxarı üzdü. Bu vaxt cavan fil suda oynayırdı. Fil təbil səsini eşidib kralı salamlamaq üçün hamısı bir nəfər kimi gələn əlli xarratın qabağında dayandı. Kraldan soruşdular:

– Cənab, əgər sizə taxta, yaxud şalban lazımdırsa, niyə əziyyət çəkib gəlmisiniz? Niyə axı kimisə göndərməmisiniz? Nə lazımdırsa, verərdik.

Kral cavabında:

– Yox, yox, əziz dostlarım, – dedi, – mən şalban yox, bu fil üçün gəlmişəm.

– O sizindir, cənab!

Amma fil yerindən tərpənmədi.

Kral soruşdu:

– Məndən nə istəyirsən, ay inadkar fil?

– Zati-aliləri, əmr edin ki, xarratların mənə xərclədiklərini ödəsinlər.

– Böyük həvəslə, dostum.

Kral əmr etdi ki, filin quyruğunun, xortumunun, dörd ayağının hər birinin yanına yüz min sikkə qoyulsun. Amma bu, filə azlıq elədi, getmək istəmədi. Odur ki hər xarrata əlavə libas, arvadlarına da don verildi. Fil sevə-sevə oynadığı xarrat uşaqlarına da bahalı hədiyyələr verilməsini xahiş etdi. Nəhayət, fil sonuncu dəfə xarratlara onların arvadlarına və uşaqlarına baxıb kralla getdi.

Kral onu öz paytaxt şəhərinə gətirdi. Şəhər də, fil tövləsi də gözəlliyi ilə göz qamaşdırırdı. Kral fili təntənəli şəkildə şəhər boyu gəzdirib sonra cah-calallı tövləsinə apardı. Orada onu təmtəraqla yuyundurub şəxsi fili elan etdi. Kral filə dost kimi münasibət bəsləyir, özü qədər qayğısına qalırdı. Hətta krallığın yarısını ona verdi. Bu filin gəlişi ilə kral bütün Hindistan üzərində hakimi-mütləq oldu.

Kral oğlu Bodxisattvın dünyaya gəlişinə az qalmış dünyasını dəyişdi. Filə onun ölüm xəbərini verməyə heç kəs cürət eləmirdi.

Çünki bu xəbər filin ürəyini yaralaya bilərdi. Odur ki hamı, sadəcə, dinməz-söyləməz gözləyirdi. Qonşu ölkə olan Kosalan hökmdarı kralın ölüm xəbərini eşidəndə düşündü: "Əlbəttə, indi o torpaqlar mənim ixtiyarımda olacaq". Odur ki böyük bir qoşunla yürüş edib şəhəri mühasirəyə aldı. Dərhal alaqapılar bağlandı və Kosala kralına xəbər yollandı: "Bizim kraliça hamilədir və münəccimlər əmindirlər ki, o, yeddi gündən sonra oğlan doğacaq. Əgər oğlan olarsa, biz səltənətimizi təslim etməyəcəyik, yeddinci gün döyüşə çıxacağıq. Bu müddət ərzində gözləməyinizi istəyirik!" Və kral razılaşdı.

Yeddi gündən sonra kraliça oğlan doğdu. Onun insanların ürəyini fəth etmək üçün doğulduğu düşüncəsiylə həmin əlamətdar günün mənasına uyğun olaraq şahzadə Uinxart adlandırdılar.

Oğlan doğulan gün şəhərlilər Kosala kralı ilə döyüşə başladılar. Amma başçıları olmadığından nə qədər böyük olsa da, ordu get-gedə geri çəkilirdi. Əyanlar bu xəbəri kraliçaya çatdırdılar.

– Ordumuz döyüşü uduzur, biz məğlub ola bilərik. Amma kralın ən yaxın dostu olan fil hələ də bilmir ki, hökmdar ölüb, onun oğlu dünyaya gəlib, Kosala kralının hücumundan, bizimlə döyüşməsindən də xəbəri yoxdur. Gəl bu xəbəri ona verək.

– Hə, əlbəttə, – kraliça cavab verdi.

Oğlanı geyindirib ipək parçayla bələdi, sonra bütün əyanlarla birlikdə saraydın çıxıb tövləyə getdi, çağanı filin ayaqları altına qoyub dedi:

– Ağa, sənin hökmdar dostun ölüb. Amma bu xəbəri sənə verməkdən ehtiyat edirdik, qorxurduq ki, ürəyin parçalanar. Bu çağa sənin dostunun oğludur. Kosala kralı qoşunu ilə şəhərimizə yürüş edib sənin hökmdarının oğluyla vuruşur. Ordumuz geri çəkilir. Ya xeyirxahının oğlunu özün öldür, ya da krallığı ona qaytar!

Fil xortumuyla uşağı tumarlayıb başına qaldırdı, nərə çəkib ardınca xeyir-duayla astaca anasının əlinə qoydu.

– Mən Kosala kralını yenəcəyəm, – deyib tələsik uzaqlaşdı.



Az sonra əyanlar zirehi və dəbilqəni filə geyindirib şəhər alaqapılarını taybatay açdılar və onu döyüşə yola saldılar. Fil döyüş meydanında peyda olan kimi düşmən qoşunu onun vahiməsindən pərən-pərən düşüb qaçanda saldıqları düşərgələri də dağıtdılar. Fil daha sonra Kosala kralının pırpız saçlarından tacını atıb şahzadənin ayaqları altına yıxdı. Bir neçə adam onu öldürmək üçün irəli gəlsələr də, fil icazə vermədi. Əsir kralı buraxıb dedi:

– Bundan sonra da ehtiyatlı ol, bizim şahzadənin hələ körpə olmağı sənə qol-qanad açdırmasın.

Bundan sonra bütün Hindistan üzərində hakimiyyət Bodxisattvaya keçdi, bir düşmən də onun qarşısını kəsə bilmədi. Yeddi yaşı tamam olanda Bodxisattva doğulduğu məlum günün mənasına uyğun olaraq Uinxart adıyla kral elan etdilər. Uzun illər səltənəti idarə etdi, ömrü sona çatanda cənnətlik oldu.

Pançatantra və Hitopadeşanın hekayələrindən

ARTIQ TAMAH BAŞ YARAR

Alpelobxin, Mitalobxin, Atilobxin, Atiantxalobxin[1] adlı gənc kasıb braminlər dörd sadiq dostlar idi. Yoxsulluğun necə ağır və alçaldıcı bir şey olduğunu bütün varlıqlarıyla hiss edirdilər. Günlərin bir günü dostlar toplaşanda Atiantxalobxin dedi:

– Dostlar, kasıb olmaq utancverici bir şeydir. Qohumlar arasında dilənçi kimi ömür sürməkdənsə, yaxşı olardı, kol-kos, tikan basmış fillər, pələnglər olan uzaq bir meşədə yaşayasan, ağac qabığından paltar geyinib, ot-alafin üstündə yatasan. Sədaqətlə xidmət etdiyi ağası da kasıba nifrətlə baxır, hətta qohumlar belə üzünə gülsələr də, arxadan belinə bıçaq sancır. Ləyaqətləri olmur, elə ilk fürsətdəcə oğlanları onları tərk edir, hətta xeyirxah və mərhəmətli ömür-gün yoldaşları da daha sevməyə bilərlər – bir-iki dəmir puldan ötrü səhərdən axşamacan işləyirlər. Dostları qapısını açmır, axı evlərində nə dadlı yemək, nə də su olur. Bu dünyada, hətta əgər insan təbiətən cürətli, gözəl, şən, dilli-dilavərdirsə, silah tuta bilirsə, elmdən baş çıxarırsa belə, əgər azca da olsa, varı yoxdursa, nə şöhrət, nə də hörmət qazana biləcək. Var-dövlətin insan üçün əhəmiyyəti heyrətamizdir! Ona malik olanlar saydığım bu keyfiyyətləri daha da inkişaf etdirib bütün dünyada tanınmış və hörmətli şəxsə çevrilə bilir. Pulsuz insanın bacarıqları da donub qalır, istənilən istedad məhv olur. Gəlin uzaq-uzaq ölkələrə səfərə çıxıb varlanaq.

---

[1] Adlar sıralama ilə “Azca tamahkar”, “Əndazəsində tamahkar”, “Çox tamahkar”, “Həddindən çox tamahkar” mənasını verir.

Hamı razılaşdı. Az sonra onlar var-dövlət axtarışı ilə öz şəhərlərini, doğmalarını, yaxınlarını qoyub yola düzəldilər. Belə bir söz var: "İnsan ümidsizcəsinə kasıb olub yalnız bir tikə çörək haqqında fikirləşəndə həqiqətdən imtina etməyə, qohum-əqrəbasını, dostlarını, anasını və vətənini atıb yad məmləkətə getməyə hazır olur".

Bir neçə gündən sonra dostlar Avanti[2] məmləkətinə gəlib çatdılar. Müqəddəs Sipra[3] çayındı çimib, onun sahilindəki Maxakala[4] məbədində ibadət etdilər. Məbəddən çıxanda Bxayravanandа[5] adlı məşhur maqla rastlaşdılar. Dostları sehrbazı salamlayıb ardınca onun yaxınlıqda yerləşən monastırına yollandılar. O soruşdu:

– Siz kimsiniz? Haradan gəlib, hara gedirsiniz? Məqsədiniz nədir?

– Biz var-dövlət dalınca çöllərə düşmüşük. Belə qərar vermişik ki, ya varlanmalı, ya da xəzinə tapmaq yolunda canımızdan keçməliyik.[6] Deyirlər, magiyanın köməyi ilə insan çox asanlıqla gizli xəzinəni tapıb varlana bilər.

– Arzulanan xəzinə də, ən əlçatmaz şeylər də, kim nə deyirsə desin, çətinliklərdən qorxmayan mərd insanlara, macəraaxtaranlara nəsib olur. Kimsə göydən xarabalığa düşə bilər, amma kimsə cəhənnəmdən çıxıb ucsuz-bucaqsız okeanın sahibinə çevrilər. Bu uçuş və çöküşləri insanın taleyi yox, cəhdləri idarə edir. Arzuladığın şey, sadəcə, taleyin iradəsiylə yox, ağır zəhmətlə ərsəyə gəlir. Uğur deyilən şey olsa-olsa yalnız insanın cəhdləri və xoş təsadüflərdən ibarətdir. Sərbəst düşüncəlilər hakimiyyətdə olanlardan çəkinmirlər, çünki öz həyatları üçün azca da qorxuları yoxdur. Azad dəlilik bu insanları, həqiqətən də, ucaldır. Bu

[2] Müasir Malva

[3] Müasir Betva

[4] Şiva, zaman tanrısı

[5] Ad "Şivaya itaət edən" anlamındadır.

[6] Hindistanda xeyli gizli xəzinə mövcuddur. Bəzi Qərb ölkələrində su falı nə qədər yayğındırsa, Hindistanda da magiya vasitəsilə xəzinənin yerini tapmağın mümkünlüyünə inam bu vaxtacan insanlar arasında yaşayır.

dünyada ağır, yorucu əməksiz heç nəyə nail ola bilməzsən. Hətta hakimi-mütləq Narayana da Lakşmini[7] bir xeyli müddət okeanın əliylə qucaqlaya bildi. İnsanın elə ki işdən əli soyuyur, var-dövləti də azalmağa başlayır. Kralın şücaəti çatmasa, nəinki başqalarını almağa, heç öz krallığını saxlamağa da gücü çatmayacaq. Günəş çoxlu buludlara qalib gəlib par-par yanır. Səbəbi onun üçün keçilməz maneənin olmamasıdır. İnsan da eynilə Günəş kimi bütün çətinlikləri aşandan sonra nurlanır və anlayır ki, onu heç kim keçə bilməz.

Onlar qulaq asıb dedilər:

– İndi isə, zəhmət olmasa, bizə tez varlanmağın hansısa bir üsulundan danış: fərq etməz, o var-dövlət haradasa yerin altındadır, ya onu zəhərli ilanlar qoruyur, ya tonqalda yandırılmış insan meyitlərinin ətini həvəslə yemək istəyən iblisləri ona qonaq edib rəhmə gətirmək, yaxud da xəzinə olan yerə düşüb sönən magik fitillərin köməyi ilə olsun. Biz nəyə desən, hazırıq, həm də görürük ki, insan gücündə olmayanlara maliksən. Deməli, yalnız sən bizə kömək edə bilərsən və etməlisən. Deyirlər, yalnız böyük insanlar böyük işlər görə bilər. Dəhşətli sualtı alovun qarşısını dənizdən başqa kim ala bilər?[8]

Bxayravananda eşitdikləri ilə razılaşıb bu sərgərdanlar üçün dörd çox güclü sehri olan fitil hazırladı və dedi:

– Himalaya yollanın. Fitilin yanıb düşdüyü torpağı qazın və siz mütləq orada gizlədilmiş xəzinə tapacaqsınız. Tanrı qanunlarını pozmayın, var-dövlətiniz kasıblıqdan can qurtarmaq üçün kifayət etdikdə evinizə qayıdın.

Dörd dost zahidə minnətdarlığını bildirib Himalaya yollandı. Təpəni keçəndə Apelobxinin fitili yanıb yerə düşdü. O, qazmağa başlayıb orada dəmir sikkələr[9] tapdı. Sevinib təklif etdi:

– Gəlin apara biləcəyimiz qədər yükləyib evə qayıdaq.

---

[7] Vişnunun arvadı. O, tanrılar və iblislər üçün ölümsüzlük iliksiri əldə etmək məqsədilə tələtümlü okeanda peyda olur və bu işə başçılıq edən Vişnu onu qucaqlayır.

[8] okeanın ortasında peyda olan ən ölümcül mifoloji alov

[9] Dəmir sikkə qədimdə çox baha idi.

– Ay səfeh, bu paslı dəmirlə nə etmək olar? Bu bizim dərdimizə dərman olmayacaq. Qalx görək, yolumuzdan qalmayaq, – o birilər dilləndi.

Alpelobxin cavabında:

– Siz gedə biləsiniz, – dedi, mən sizə qoşulmayacağam. Bu dəmir mənə kifayətdir.

O, üç min dəmir sikkəni alıb evə qayıtdı.

O birilər yola davam etdi. Səhəri gün Mitalobxinin fitili yanıb yerə düşdü. Qazmağa başlayıb içində gümüş sikkələr olan xəzinəni tapdı. Sevinib qışqırdı:

– Bu da xəzinə! Gəlin apara bildiyimiz qədər götürüb evə qayıdaq! Yola davam eləməyin mənası yoxdur.

O biri iki dostu cavabında dedi:

– Əvvəlcə biz dəmir sikkə, indi isə gümüş sikkə tapdıq, bu hesabla növbəti fitil düşən yerdə qızıl xəzinə tapacağıq. Gümüş sikkələrlə kasıblığın daşını biryolluq ata bilmərik. Odur ki biz yola davam edəcəyik.

Mitalobxin dilləndi:

– Tapdığım bu gümüş sikkələr məni tamamilə qane edir.

Sonra beş min gümüş sikkəni götürüb evə qayıtmaq üçün yola düzələndə tapdığı bu xəzinənin ağırlığı altında çox xoşbəxt görünürdü.

Qalan iki dost yola davam etdi. Bir gün sonra Atilobxinin fitili yanıb yerə düşdü. Qazmağa başlayıb içində qızıl sikkələrin olduğu xəzinəni tapdı. Dəli kimi sevinərək uca səslə dostunu qucaqladı:

– Gəl apara bildiyimiz qədər götürüb evə qayıdaq! Yola davam etməyə ehtiyac yoxdur. Axı dünyada qızıldan baha nə var ki?

Atiantxalobxin razılaşmadı:

– Səfeh, sənin bu avamlığın məni heyrətləndirir. Əvvəlcə dəmir, sonra gümüş, indi də qızıl. Yəqin, növbəti xəzinə də brilyant, rubin və başqa qiymətli daşlar olacaq. Kasıblıqdan birdəfəlik can qurtarmaq üçün o daş-qaşlardan biri kifayətdir. Əgər belə daşlardan bütöv bir xəzinəni tapsaq, krallığı satın alıb dünyanın ən

zəngin adamları olarıq. Sənin bütün bu qızılın tezliklə tapacağımız brilyant, yaxud rubinin bir qaşına da dəyməz. Niyə axmaqlıq edib bu faydasız qızıllarla yüklənib evə qayıdaq? Dur, qalx, yolumuzdan qalmayaq.

Atilobxin fikrini dəyişmədi:

– Dostum, bu qızılım məni tam razı salır. Biz səfərə krallığı satın almaq, yaxud dünyanın ən zəngin adamı olmaq məqsədilə yox, kasıblıqdan can qurtarmaq arzusuyla çıxmışıq. İndi sən ömür boyu bir dəfə də əlimizdə tutmadığımız bu qızılı faydasız adlandırırsan? Mənim üçün bu qızıl çox dəyərlidir. Bu qızılla ömür boyu zəngin həyat sürüb kasıblıq nə olduğunu bilməyəcəyəm. Mənə artığı lazım deyil. Əndazəni aşan tamahkarlıq insana yaraşmaz.

– Tfu! – dostu inadından əl çəkmədi. – Tamah nə qədər çoxdursa, qazancı da o qədər çoxdur. Mən bunu sənə sübut edəcəyəm. Di indi bu zir-zibili tulla, mənimlə gəl.

Atilobxin:

– Yox, mən yola davam etmək istəmirəm, – dedi, – öz qızılım mənə tamamilə kifayət edir. Amma ey qəhrəman, mən səni burada gözləyəcəyəm və biz evə birlikdə qayıdacağıq.

Atiantxalobxin yola tək çıxdı. Get-gedə daha da hündür olan təpələrdən sanki qəm-qüssə yağırdı. Üç gün yol getsə də, fitilin yanacağına, yaxud yerə düşəcəyinə xırda bir işarət də yox di. Sonra o, tamamilə susuz olan tənha bir vadiyə daxil oldu. Yayın cırhacırı idi və günün şüaları yolçunu əməllicə yandırırdı. Susuzluqdan dili-dodağı qurusa da, sudan əsər-əlamət belə yox di. Yol boyu nə bir quş, nə bir heyvan, nə bir insan, ümumiyyətlə, canlı olan nəsə görünmürdü. Amma o, brilyantlara olan əndazəsiz tamahının diktəsi ilə inadkarcasına irəli addımlayırdı. Adi yol kol-kos və tikanlar basmış labirintli cığırla əvəz olundu. Amma tamahdan havalanmış halda o, hələ də Atilobxinin yanına qayıdıb qızılla kifayətlnmək niyyətində deyildi, yoluna davam edirdi. Ürəyində özünə belə təlqin edirdi: “Daha çox çətinlikləri aşsam, almaz, yaxud o biri daş-qaşlar daha saf, daha iri, daha ba-

halı olacaq". Xeyli gedəndən sonra dörd bir tərəfdən əhatə olunmuş vadidə bir adama rast gəldi. Həmin adamın başında qanını çəkib sifətinə, bədəninə, ətrafına sıçradan sürətlə fırlanan təkər var idi. Atiantxalobxin ona yaxınlaşıb soruşdu:

– Sən kimsən? Niyə başında fırlanan təkərlə burada dayanıb-durmusan? Buralarda gizlədilmiş qalaq-qalaq bahalı zinət əşyalarını almaq üçün hansısa iblisə, hansısa qurbanlıq ayinini təklif edirsən? Bir də de görüm burada su varmı?

Bu sözləri deyən kimi təkər bu adamın başından çıxıb Atiantxalobxinin başına qondu. Atiantxalobxin özünü itirmiş halda soruşdu:

– Dostum, bu nədir? Nə dəhşətli, iblisanə ağrısı var!

Həmin adam cavabında:

– Bu lənətə gəlmiş təkər neçə vaxt idi, indi sənin başındakı kimi mənim başımda fırlanırdı, – dedi. – Bütün bu müddət ərzində o iblisanə ağrılardan qıvrıla-qıvrıla qalmışdım.

Atiantxalobxin soruşdu:

– Onda de görüm, bu təkər nə vaxt məni buraxacaq? Özünün aramsız fırlanmağıyla, cırıltısıyla, qan çiləməyi ilə mənə dözülməz ağrılar verir.

Həmin adam cavabında dedi:

– Əlində məşhur sehrbazın düzəltdiyi fitillə bura gələn sənin kimi birisi elə ağzını acıb danışanda buraxacaq. Səni buraxıb özünə onun başında yer eləyəcək.

Atiantxalobxin həmsöhbətinə müraciətlə:

– Başındakı təkərlə burada neçə müddət qaldın?

Həmin adam fikrə gedib soruşdu:

– İndi kral kimdir?

– Vina Vatesradja[10] – Atiantxalobxin cavab verdi.

Onda həmin adam dedi:

– Mən həmin o təkərin neçə müddət başımda olduğunu indi

[10] Udsyana, Çanların kralı. Musiqi aləti olan vinedə mahir ifaçılığı və romantik izdivacları ilə məşhurdur.

dəqiq deyə bilmərəm. Bildiyim bir odur ki, Kamanın[11] krallığı dövründə mən yoxsulluğun əzablarına dözməyib sənin kimi sehrli fitillə bura gəldim, Mən də qədərindən artıq tamahkar idim, özümü dostlarımdan qabağa verirdim. Bütün ömrüm boyu mənə dəbdəbəli həyat vəd edən xəzinə azlıq elədi. Mən də bura gəlib aman vermədən cızıltıyla fırlanan, hər tərəfə qan sıçradan, başı təkərli həmin o qəhrəman adamı gördüm. Eynilə sənin kimi, niyə burada qan içində dayandığını və yaxınlıqda suyun olub-olmadığını ondan soruşdum.

Elə bu an təkər onun başından çıxıb mənim başıma keçdi. Beləcə, mən saysız-hesabsız əsrlər boyu bu dəhşətli ağrıyla yaşamalı oldum. Çünki o vaxtlar bu yerlərdə canlı məxluq az-az yaranırdı. İndi tanrının mərhəmətiylə sənin kimi bir qəhrəman əlindəki sehrli fitillə gəlib mənimlə danışandan sonra canım əzabdan xilas oldu.

Atiantxalobxin soruşdu:

– Dostum, bir halda ki gecə-gündüz bu əzablara dözüb yaşamalıyam, bəs yemək-içməyim necə olsun, haradan tapım? Məgər mən bir neçə günün içində ölüb bu əzablardan xilas ola bilmərəm?

Həmin adam:

– Yox, – dedi. – Özünün ən qiymətli xəzinəsini oğrulardan qorumaq məqsədilə maqların və onların tamahkar müştərilərinin ürəyinə qorxu toxumu səpmək üçün bütün bu dəhşəti var-dövlət tanrısı özü düşünüb. Odur ki bu yolu getməyə çox az adam cürət edir. Əgər kimsə xəzinə dalınca əlində fitil bura gələrsə, başında təkərli adamı görəndə onunla danışmaqdan özünü saxlaya bilməyəcək. Çünki heç kim, heç vaxt belə bir müdhiş mənzərəylə rastlaşmayıb. Odur ki nə baş verdiyini bilmək marağı hər kəsi üstələyəcək. Uzun işgəncələrdən sonra başqa biriylə görüşün sevinci onun yad adamla ünsiyyətə girməsinə təkan verəcək. Əgər bu iki səbəb kifayət etməsə, bir mühüm səbəb həmişə ye-

[11] Hind mifologiyasına görə, Vatesradyanın hakimiyyətinə qədər Kama yüz min il səltənətin hökmdarı olub.

rindədir – əzabverici yanğını söndürmək üçün yaxınlıqda suyun olub-olmamasını soruşmaq. Gələn adam başıtəkərliylə bu haqda danışan kimi həmin andaca o təkər dillənənin başına keçəcək. Kimsə başqa, yad, tanımadığı birisi əlində fitillə gəlib onunla danışana qədər belə davam edəcək. Nə qədər ki təkər başında qan sıçrada-sıçrada fırlanır, nə aclıq, nə də susuzluq hiss edəcəksən, nə qocalacaqsan, nə də öləcəksən. Amma hər an bu əzabverici ağrı canında olacaq. İndi isə icazə ver, gedim. Qoy evimə gedim.

Atiantxalobxin soruşdu:

– Üstündən yüz min il keçib, sən hansı evdən danışırsan? Sənin arvad-uşaqların, nəsil-şəcərən, yəqin, çoxdan çürüyüb. Sən indi hara gedəcəksən?

Həmin adam cavabında:

– Ax, bu haqda heç fikirləşməmişəm, – dedi, – Hər halda, dünya böyükdür, həyat isə şirin. Əsrlərin bir-birini əvəzləyib, insanların ölməsinin nə fərqi? Yenidən başlamaq həmişə mümkündür. Odur ki xudahafiz.

Və həmin adam getdi.

Atilobxin Atiantxalobxini öz qızıl xəzinəsinin yanında çox gözlədi. Səbri tükənəndə xəzinədən on min qızıl sikkə götürüb onu axtarmağa yollandı. Və nəhayət, başındakı təkər qan sıçradan dostunu kimsəsiz vadidə tapdı. Dəhşətdən qan donduran səslə fəryad etdi. Taleyin dostuna yazdığı yazını görəndə gözlərindən sel kimi yaş axdı:

– Dostum, bu nə haldır belə? – soruşdu.

– Bu, taleyin yazısıdır, – Atiantxalobxin cavab verdi.

– Bu hala necə düşdün? – soruşdu.

Dostu başına gələnləri bir-bir danışdı. Atilobxin əhvalatı dinləyəndən sonra dedi:

– Dostum, bütün olanlar sənin əndazəsiz tamahkarlığının, bir də məni eşitmək istəməməyinin ucbatından baş verdi. Qızıl sənə azlıq etdi, rubin, brilyant eşqinə düşdün. Əvəzində indi içindən çəkib istənilən rubindən parıltılı olan qanını sıçradan bu təkəri qazandın. Gözündən axan yaşlarda dəlicəsinə arzuladığın bril-

yantdan daha parıltılıdır. Dostum mənim, bu dünyada brilyantın qızıldan daha qiymətli və hörmətli olduğunu bilib anlamaq heç də kifayət deyil, qabaqcadan çətinlikləri görüb fəsadlarından yan keçmək qabiliyyətini mənimsəmək üçün insana sağlam düşüncə də lazımdır. Əks halda, hətta sanballı ailənin alim övladı da uğursuzluğa düçar ola bilər. Sağlam düşüncə savaddan da üstündür. Nəinki adi insanlar, hətta aslanı dirildən alim adamlar belə sağlam düşüncədən xali olarsa, ölümə məhkumdur.

– O nə əhvalatdır elə? – Atiantxalobxin soruşdu.

Və Atilobxin aslanın təzədən necə dirilməsi barədə olan əhvalatı danışdı.

Dostu onu dinləyib:

– Amma heç bir əhvalat həqiqiliyini sübut edə bilməz, – dedi.

Atilobxin:

– Belə əhvalatların sayı çoxdur, – deyib axmaq alimlər barədə tarixçəni danışdı.

Atiantxalobxin növbəti əhvalatı dinləyib:

– Nə bilim axı – dedi, – məncə, sənin sözlərində bir məna gizlənib. – Amma mənim fikrimi bilmək istəyirsənsə, insanın uğurlu, yaxud uğursuz olmasını nə sağlam düşüncə, nə də alim müəyyənləşdirə bilər. Ən köməksiz və yiyəsiz insanları çox vaxt tanrı özü qoruyur və onlar ayaq üstə qalırlar. Eyni zamanda ən güclülər və özünü qoruyanlar çox vaxt məğlub olurlar. Hətta meşəyə, yaxud çöllüyə ölümün ağzına atılanlar tanrının razılığı varsa, sağ qalırlar, amma onlarla eyni vaxtda əgər tanrı yazıbsa, nə qədər qayğına qalsalar belə, öz isti ocağındaca canını tapşırırsan. Məhz buna görədir ki, Qatımüdrik, Çoxmüdrik və Azmüdrikin əhvalatında iki daha artıq zəka sahibləri öldükləri halda, ağılca onlardan aşağı olan Azmüdrik sağ qalır. Buna sözün nədir? Məgər bütün bunlar insanın buradakı, aşağıdakı, yerdəki həyatını Tanrının və taleyin müəyyənləşdirdiyi, tamahkarlığın, sağlam düşüncədən xali olmağın buna heç bir aidiyyəti olmadığı barədə mənim baxışlarımın düzgünlüyünü təsdiqləmirmi?

Bu əhvalatı dinləyəndən sonra Atilobxin:

– Heç də elə deyil, – dedi. – Azmüdriki xilas edən onda o bir iki nəfərdə olmayan sağlam düşüncənin, xilaskarlıq mərhəmətinin olması idi. Bundan başqa, meymunun qisasını təsvir edən şər qüvvələr gücü tamahkarlıqdan alırdı. Və bu əhvalatı danışdı. Atiantxalobxin onu dinləyəndən sonra:

– Səninlə razılaşıram. – dedi. – Bütün insanlar tamah iblisinin hakimiyyəti altındadır, sonda ya uğursuzluğa düçar olur, ya da məsxərəyə qoyulurlar. Ən pisi isə odur ki, onlar heç vaxt səhv etdiklərini anlamırlar.

Atilobxin:

– Dostum, mən vaxtında xəbərdarlıq elədim, amma sən mahnı oxuyan eşşək kimi inadından dönmədin, – dedi və oxuyan eşşək haqqında rəvayəti danışdı.

– Düzdür, dediklərinin hamısı düzdür, – Atiantxalobxin razılaşdı. – İndi özüm də səhvimi anlayıram. Sağlam düşüncəsi dibindən olmayan adam gərək özündə ən azı onun bir damcısını tapsın ki, dostunun məsləhətini eşidə bilsin. Əks halda, başına iş gələcək. Təəssüf ki, çox vaxt insanlar mənim kimi bu hissdən məhrum olur, əlində olduqlarını qiymətləndirmədən xülyalara qapılırlar. Hava qəsrləri haqqında rəvayəti də hiylə və tamahkarlıqan danışılır.

– Bu nə rəvayətdir elə? – Atilobxin maraqlandı.

Atiantxalobxin danışdı.

Atilobxin əhvalatı dinləyib:

– Ax, bu bramin də hər şeyə şəkk gətirdiyndən əlində olan azdan da məhrum oldu, – dedi.

– Hə, – dostu davam etdi. – Amma o yalnız düyü ununu və gil küpünü itirdi. Həm də altında qaldığı düyü unundan ona elə bir xətər toxunmadı. Amma mən o ağırlıqda qızıl itirdim, indi də öz qanımda boğuluram. Hər düşündükcə daha da inanıram ki, hər halda, insanın uğurlarını vərdişləri və himayədarları deyil, taleyi idarə edir. Tale mərhəmətini göstərdi, kor, qozbel və üçdöşlü şahzadə öz hərəkətləriylə ölümdən xilas olub sağaldılar.

Atilobxin bu əhvalatı eşitmək istədi və Atiantxalobxin üçdöşlü şahzadənin rəvayətini danışdı. Ona qulaq asandan sonra Atilobxin dedi:

– Bəli, doğrudan da, tale bəzən hətta layiq olmayan adama da xoşbəxtlik bəxş edir. Amma insan gərək heç vaxt tamah yolunu seçib taleyi hiddələndirməsin ki, sənin kimi məhv olmasın. Həqiqətən də, sənə görə çox təəssüf edirəm. Amma evə qayıtmalıyam. Odur ki icazə ver, gedim.

Atiantxalobxin:

– Belə bir söz var ki, pis gündə dostlar və var-dövlət insana dayaq olur, – dedi. – Sən necə axı məni belə bir ağır vəziyyətdə qoyub gedə bilərsən? Atalar deyiblər ki, dostunu bərk ayaqda atıb gedən adam daşürəkli, qəddar və namərddir. Və o bu günahına görə hökmən cəhənnəmlik olacaq.

– Bəli, dediyin kimidir. Amma sənin əzablarına mənim kimi adi insan son verə bilməz. Səni nə mən, nə də bir başqası buradan azad etmək iqtidarındadır. Odur ki yanında olmağımın sənə heç bir faydası yoxdur. Həm də sənin bu halına baxa bilmirəm, mənə çox ağırdır. Təkərin fırlanmağıyla sənin sifət cizgilərindən boylanan əzablarına baxdıqca belə bir bədbəxtliyin mənim də başıma gəlməməsi üçün buradan qaçmaq istəyirəm. Nə olar, icazə ver, gedim, – Atilobxin xahiş etdi.

Atiantxalobxin:

– Neynək, evinə get və rahat həyat sür. Camaata da mənim başıma gələnləri danış, – deyib vidalaşdı.

Atilobxin qızıllarıyla şad-xürrəm evə qayıtdı. Yol boyu ağır dağları aşdıqca ürəyində deyirdi: “Doğrudan da, artıq tamah baş yarar”.

Xədicə Mahmud Mazari

AĞILLI QIZ

Ram şəhərində varlı bir tacir yaşayırdı. Onun xeyli mülkləri və bağları, min dinar da pulu var idi. Tacirin Maşxur adlı bir oğlu böyüyürdü. Ata qorxurdu ki, oğlu pis adamlarla oturub-dura, dostlaşa bilər. Odur ki oğlunu doğru yola çəkmək qərarına gəldi və yeniyetmə dərin ehtiramla bu məsləhətlərə qulaq asdı. Ölüm yatağında olanda oğluna dedi:

– Əgər ürəyin şərab istəsə, yalnız gecəyarısı iç. Əgər qumar oynamaq istəsən, yalnız bu işi bütün xırdalıqlarına qədər bilən yaşlı kişilərlə oyna. Bu oyun onların sayəsində şəhərimizə gəlib. Evlənmək istəsən, başlıq pulunun azlığına, çoxluğuna baxma, yalnız ağıllı qızla ailə qur.

Az sonra ata canını tapşırdı və Maşxur onun vəsiyyətlərini yoxlamaq qərarına gəlib gecənin yarısı şərabxanaya yollandı. Sərxoş insanların halını görüb dərhal şərabın üstündən xətt çəkdi, onu içənlərə də nifrət elədi.

Bir həftə sonra atasının ikinci vəsiyyətini yoxlamaq istədi. Şəhərə ilk dəfə qumarı gətirən adamın ünvanını bilənlərdən soruşub onunla görüşdü. Salamlaşıb söhbətləşəndən sonra həmin adam dedi:

– Diqqətlə mənə bax. Görürsən ki, nimdaş paltardayam, ən ucuz tənbəkini çəkirəm, cibimdə də siçanlar oynayır. Amma bir vaxtlar mən bu şəhərin ən zəngin adamlarından idim, qumar da burada mənim sayəmdə peyda oldu. Məndən də yaxşısı gələnəcən heç kim qarşımda dayana bilmirdi, pula pul demirdim. Amma bir gündə bütün varımı itirdim, indi onun-bunun hesabına yaşayıram.

Maşxur o adamdan qumara və qumarbazlara nifrətlə ayrıldı, amma evlilik fikri bir an belə başından çıxmırdı. Evlənmək üçün dostlarından ona ağıllı bir qız tapmalarını xahiş etdi. İki həftəlik axtarışlardan sonra dostlarından biri ona Salem adlı bir tacirin qızı Afafı məsləhət gördü. Təxminən bir həftədən sonra Maşxur tacir Salemin evinə gəlib qızı Afafla evlənmək istədiyini dedi:

Salem:

– Amma qızım üçün başlıq pulu çox olacaq, – dedi.

Maşxur soruşdu:

– Başlıq pulu nə qədərdir?

Tacir cavabında:

– Düz on min qızıl dinar, – dedi.

Maşxur atasının vəsiyyətini xatırlayıb razılaşdı və tacirə səkkiz min dinar verdi. Qalan iki mini isə bir ildən sonra ödəyəcəyini vəd etdi. Tacir Salem bu şəhərdə qız üçün başlıq pulunun, adətən, üç min qızıl dinar olduğunu bildiyindən səkkiz min dinarı qəbul etdi.

Bir həftədən sonra toylarını elədilər. Maşxur və Afaf bir-birilərini çox sevirdilər və xoşbəxt idilər. Amma iki min dinar borcun fikri ona rahatlıq vermirdi. Odur ki Maşxur olanlarının bir qismini satıb qazanc dalınca Siror şəhərinə yola düşdü. Bədbəxtlikdən, orada yaşayan dələduzlar ona tələ qurub aldatdılar və Maşxurun bütün malları əlindən çıxdı. Bu halını görən tacirlər onu məsxərəyə qoydular. Xəbər gəlib arvadına da çatdı. Afaf dostlarından borc alıb özündə olanlara qatdı və o pula xeyli mal aldı. Sonra kişi libası geyinib Həsən adlı tacir adıyla karvana qoşulub yola düzəldi. O, ərinin də qaldığı karvansarada yerləşib onun qayğısına qalır, mallarını satıb yaxşı qazanc götürürdü. Maşxurun malına və puluna yiyə çıxan dələduzlar Həsən adlı bir tacirin gəlişindən xəbər tutdular. Onlardan biri tanışlıq qurub yaxınlaşmaq üçün Həsənin yanına gəldi.

Sonra Həsənə mərc təklif etdi:

– Biz hər biri şam aparan üç pişik gətirəcəyik. Əgər pişiklər şamı yana-yana aparsalar, mərci biz uduruq, əgər düşərsə, sən udursan. Mərc pulu iki min qızıl dinardır.

Maşxur və digər tacirlər ona mərci qəbul etməməyi məsləhət görsələr də, Həsən təklifə razılıq verdi və israrla bu şəhərin şeyxinin, hakiminin, asayiş keşikçisinin də mərc oyununda iştirakını təklif etdi. Gün təyin edildi.

Həsən bir küçə uşağına beş qızıl dinar verib tapşırdı ki, mərc günü bir neçə siçan gətirib onun işarəsiylə buraxsın. Oğlan dərhal razılaşdı, axı ona verilən pulu heç yuxusunda da görməmişdi.

Təyin olunan gün dələduzlar pişik və şamlarla gəlib çıxdılar. Şəhərin şeyxi, hakimi, asayiş keşikçisi də gəldi, ətrafa xeyli insan yığıldı. Şamlar yandırıldı və pişiklər onu ayaqlarında apardılar. İnsanlar həyəcandan donub qalmışdı – şamlar təxminən ortaya qədər yansalar da, pişiklər bərk-bərk saxlamışdılar. Elə bu vaxt tacir Həsənin işarəsiylə oğlan kimsə sezmədən siçanları buraxdı. Pişiklər siçanları görən kimi şamları atıb onların dalınca cumdular. Elə bu andaca insanlar bərkdən əl çaldılar. Tacir Həsən mərci uddu və əlləri havada qalmış dələduzlar pulu ödədilər, dilxor halda başlarını götürüb getdilər.

Tacir Həsən öz qazancını ikiqat artırıb karvanla birlikdə Rama şəhərinə qayıtmağa qərar verdi. Maşxuru da onunla getməyi təklif etdi, amma o, sadəcə, ağlayıb üzrxahlıq etdi. Amma bildiyimiz kimi, tacir Həsənin çox yumşaq ürəyi var idi. Sözündə möhkəm dayanıb dedi ki, Maşxur onunla qayıdarsa, üzünü güldürməyə bir şey tapacaq. Və Maşxur Ramaya qayıtmağa razılaşdı. Karvan şəhərə varid olanda tacir Həsən Maşxura pul verib dedi:

– Hamama get, özünə təzə libaslar, arvadın üçün də bahalı hədiyyələr al.

Maşxur tacir Həsənin tapşırıqlarını yerinə yetirib gün çıxanacan evinə gəlib çatdı. Gördü ki, həyəti ticarət mallarıyla doludur. Arvadı onu mehribanlıqla və qayğıyla qarşıladı. Amma həyətdəki maldan narahat idi. Odur ki bu haqda arvadından soruşdu.

Arvadı məsələni izah etdi:

– Narahat olma, mənim sevimli və xeyirxah ərim, həmin o ağıllı tacir Həsən mən özüməm.

Maşxur bu xəbərdən çaşıb qaldı, özünə gələndə isə sevincdən az qala atılıb-düşəcəkdi.

Bir neçə gündən sonra Afaf başlıq barədə danışmaq üçün şəhər hakiminin yanına getdi və ondan bir günlüyə hakim olmasını xahiş etdi. Hakim onun bu xahişinə razılıq verdi. Məhkəməyə gələn atası başlıq məsələsini qaldırdı. Çadrasını çıxaranda ərini xilas edib, başlıq pulunun qalan hissəsini ödəyən Afafı, o ağıllı qızı görən adamlar heyrətdən donub qaldılar.

Əhməd Rəşid əl Öməri

ŞAHMAT OYUNU

Bir kənddə ata, ana və üç cavan oğuldan ibarət ailə yaşayırdı. Son iki ildə baş verən quraqlıq onsuz da çətinliklə dolanan ailənin güzəranını daha da ağırlaşdırmışdı. Böyük oğul Səid yaxşı qazanc dalınca uzaq ölkələrdən birinə yollanmaq qərarına gəldi. Niyyətini valideynlərinə açıb onları inandırmağa çalışdı ki, orada iş tapıb ailəsinə kömək edə biləcək. Valideynləri onu məqsədindən daşındırmağa çalışsalar da, Səid fikrində israrlı idi.

O biri iki qardaş da Səidin tərəfini tutanda valideynlərin böyük oğlu buraxmaqdan başqa çarəsi qalmadı.

Ata soruşdu:

– Oğlum, sənə nə qədər vaxt lazım olacaq?

Səid cavabında:

– Üç ay bəsimdir. Amma işdi-şayəd, qayıtmasam, üç ay da gözləyin, – dedi.

Ana oğlu üçün yol azuqəsi hazırladı və səhəri gün Səid ailəsi ilə sağollaşıb səfərə çıxdı. Səid şərq tərəfə istiqamət aldı və bir neçə gündən sonra uzaqdan görünən par-par yanan işıqlara tərəf getdi. Anladı ki, qarşısında dayandığı həyatında ilk dəfə gördüyü füsunkar şəhərdir. Yolçu uzun yolun yorğunluğundan, adətən, səhərlər açılan şəhər darvazaları önündə yuxuya getdi. Keşikçilər yolçunu görüb yaxınlaşdılar, hara yollandığını soruşdular. Səid tələsik cavab verdi:

– Mən kasıb bir yolçuyam, sadəcə, özümə iş axtarıram.

Keşikçilərin rəisi onu salamlayıb yemək təklif etdi və dedi:

– Sən gərək şahzadəmizin yanına gedəsən.

– Niyə onun yanına? – Səid soruşdu.

– Çünki şəhərimizin valisi mərhum şahımızın qızı olan həmin o şahzadədir.

Səid soruşdu:

– Onun mənimlə nə əlaqəsi?

Keşikçilərin başçısı izah etdi:

– Onun atası belə bir şərt qoymuşdu: şahzadəni şahmatda udan insan onunla evlənməli və şah olmalıdır.

Keşikçilərin rəisi Səidi saraya apardı. O burada gördüyü möhtəşəm tikiliyə, cah-calala heyran qaldı. Nəhayət, sütunlu zala girib taxt-tacda tənbəlcəsinə dirsəklənib oturmuş şahzadəni gördü. Keşikçilərin başçısı adəti üzrə şahzadəni – şah vəliəhdini salamladı. Şahzadə hörmətlə salamını alanda ona müraciətlə:

– Biz bu cavan oğlanı şəhər darvazalarının yanında gördük, – dedi.

Şahzadə oğlanın da salamını alıb, əyləşməsinə izn verdi və qonağa alma şirəsi gətirmələrini tapşırıb soruşdu:

– Sizi bizim ölkəmizə gətirən nədir?

Səid cavabında:

– Özümə iş axtarıram, – dedi. – Düz iki il biz tərəflərə bir damcı da yağış düşmədi, torpaq tamam qısırlaşdı.

Şahzadə bir müddət susub soruşdu:

– Sən şahmat oynaya bilirsən?

Səid sualdan təəccüblənib:

– Bəli, bacarıram, – dedi.

Şahzadə təklif etdi.

– Biz sənlə şahmat oynayacağıq. Əgər qalib gəlsən, mənimlə evlənib şah olacaqsan, əgər uduzsan, iki illiyə zindana atılacaqsan.

Səid başını aşağı salıb ürəyində düşündü: "Əgər mən qalib gəlsəm, şah olub ailənin canını aclıqdan, kasıblıqdan qurtara biləcəyəm. İşdi-şayəd, uduzsam, iki illik zindan həyatımda Allah özü mənə kömək olar". Sonra başını qaldırıb dilləndi:

– Zati-aliləri, mən sizin şərtlərinizi qəbul edirəm.

Şahzadə əyanlardan birinə göstəriş verdi və o, şahmat taxtasını gətirdi. Gedişlər başlayan kimi şahzadə gördü ki, Səid çox usta oyunçudur. Səid isə qızın gözəlliyinə, bər-bəzəyinə, zər-zibasına valeh olduğundan, ara-sıra fikri yayınırdı. Odur ki şahzadə qalib gəldi və Səidə gülümsəyib:

– İndi yolun zindanadır, – dedi.

Onun əl-qolunu bağlayıb apardılar və Səidə uduzmağı çox ağır təsir etdi.

Üstündən dörd ay keçsə də, Səid evə qayıda bilmədi. Odur ki ortancıl qardaş Həmid onu axtarıb tapmaq üçün səfərə çıxmağa qərar verdi. Ata və ana oğlunu fikrindən daşındırmağa çalışsalar da, Həmid böyük qardaşını axtarıb tapmaqda israrlı idi. Ana Həmid üçün azuqə hazırladı və o, qardaşı Səid getdiyi istiqamətlə yola düzəldi. Eynilə qardaşı kimi həmin şəhərə gəlib çatdı və elə həmin rəis onu saraya, şahzadənin yanına apardı. Sonra şahzadənin təklifi ilə şahmat taxtasının arxasına keçdilər və Həmid zəkasını nə qədər işə salsa da, güclü müqavimətinin sonu məğlubiyyətlə nəticələndi. Şahzadə ona da gülümsəyib, əvvəlcədən şərtləşdikləri kimi keşikçilərə əmr etdi ki, onu zindana salsınlar.

Həmidin gedişindən dörd ay sonra kiçik qardaş Əli də o birilərin ardınca yollanmağa qərar verdi. Amma yola çıxmazdan əvvəl dərzinin yanına gedib onun üçün adi libaslardan fərqlənən əcaib bir səfil paltarı tikməyi xahiş etdi. Dərzi onun xahişini yerinə yetirdi. Addımlayanda yoluna çıxan hər kəsin diqqətini cəlb edirdi. Bəziləri ona gülür, bəziləri təəccüblə baxırdı. Əli evə qayıdıb gələndə bu qəribə paltarı görən valideynləri təəccüb etdilər. Onlar Əlini nə qədər dilə tutub paltarını dəyişməyi istəsələr də, oğlan fikrindən daşınmadı. Səhəri gün anasının hazırladığı azuqəni alıb qardaşları Səid və Həmidin getdiyi istiqamətlə yola düzəldi. Həmin şəhərə günorta gəlib çatdı. Yolçunu bu qəribə paltarda görən keşikçilər gülüşlə, eyni zamanda təəccüblə qarşıladılar. Keşikçilərin rəisi onu şahzadənin hüzuruna gətirəndə

vəliəhd özünü gülməkdən zorla saxladı. Sonra qonağa əyləşməyə izn verəndə Əli:

– Mən acından ölürəm, – dedi.

Şahzadənin göstərişi ilə gətirilən təamlardan yeyib Allaha şükür elədi. Şahzadə üzünü ona tutub:

– Şahmat oynaya bilirsənmi? – soruşdu.

– Bəli, – cavab verdi.

Şahzadə Əliyə şahmat oynamalarını təklif etdi. Onunla da qardaşlarıyla olduğu kimi şərtləşdi. Kiçik qardaş da razılaşdı və mübarizə başladı. Əli şahmat müəlliminin məsləhətlərini xatırladı: "Gərək fikrin dağılmasın, yalnız şahmatın gedişlərini düşünməlisən". Elə də etdi və şahzadə tez-tez onun paltarına baxıb gah gülümsəyir, gah da ucadan gülürdü. Əlinin diqqəti isə yalnız oyuna cəmlənmişdi. Odur ki mübarizə uzun çəkdi və nəhayət, Əli şahzadəyə qalib gəldi. Bütün bunlar şəhərin ağsaqqallarının gözü önündə beş verdi. Təbii ki, onlar oyunun nəticəsindən dilxor olsalar da, heç nəyi dəyişmək mümkün deyildi. Aralarındakı uzun məşvərətdən sonra ağsaqqallardan ən mötəbəri şahzadəyə müraciət etdi:

– Nə danışılmışdısa, o da icra olunmalıdır. Amma bizim şahımız olacaq bu cavan oğlanın qarşısında şərtimiz var.

– O nə şərtdir elə? – şahzadə maraqlandı.

– Ağlını və gücünü sınamaq üçün ona bir neçə sual verəcəyik, – müdrikliyi ilə böyük hörmət qazanmış mötəbər şəxs cavab verdi:

– Bu, ədalətli olar, – şahzadə razılaşdı.

Şəhər ağsaqqallarının Əliyə müxtəlif mövzuda verdikləri sualları o, təmkinli və dolğun şəkildə cavablandırdı. Bir ağsaqqal da kənarda qalmadı və Əli bütün sualları cavablandırdı. Şahzadə elan etdi:

– Qoy bütün səltənət bilsin ki, mən bu cavan oğlana ərə gedirəm və onu şah elan edirəm.

Bütün şəhər əhli sevinib bu şad xəbəri düz yeddi gün bayram etdi. Əli hələ də zindanda olan qardaşlarının başına gələnlərdən

xəbər tutub onları şahzadənin şahmat toruna düşən o biri cavanlarla birlikdə azad etdi. Sonra valideynlərini də bu şəhərə gətirib qayğısına qaldı.



Sədinin “Gülüstan” kitabından

DÜŞMƏNLƏ HƏQİQƏT VƏ ƏMİN-AMANLIQ İÇİNDƏ

Zuzan şahının Xadja aldı xeyirxah və hər mənada dürüst bir vəziri var idi. O, dostlarına çox yaxşı münasibət bəsləyir, onlar yanında oldu-olmadı, həmişə haqlarında xoş sözlər deyirdi. Bir gün nəsə bir hərəkətinə görə şahın qəzəbinə düçar oldu. Şah onu cərimələyib cəzalandırdı. Saray əyanları zindana salınan Xadjanın xeyirxahlığını və mərhəmətini, ürəçkaçıqlığını və canıyananlığını unutmayıb onunla xoş davranır, kimlər tərəfindənsə alçaldılmasına itmkan vermirdilər. Axı həyatda çox şeylərə görə ona minnətdar idilər.

“Əgər düşmənlə aranda sülh istəyirsənsə,
hətta səhvlərini arxanca hamıya danışsa belə,
onu üzünə təriflə”.

Söz hətta ən naqis insanın da ağzından çıxır, acı sözlər eşitmək istəmirsənsə, dilini şirin elə.

Şahın ona qarşı irəli sürdüyü ittihamları xətm eləsələr də, digər hərəkətlərinə görə vəzir zindanda qaldı. Qonşu məmləkətin şahının gizlicə göndərdiyi çapar ona dedi ki, buranın insanları sənin ən gözəl xüsusiyyətlərinə dəyər verə bilmir, ona görə də hörmətdən düşmüsən. Məktubda isə yazılmışdı ki, əgər onun qiymətli zəkası qonşu səltənətin şahına xidmət edərsə, çalışqanlığıyla onun rəğbətini qazanarsa, şah və əyanları onu öz

saraylarında görməkdən məmnun olar. Odur ki səbirsizliklə cavab gözləyirlər. Xadja qonşu şahın məktubunu alıb vəziyyətin nə qədər təhlükəli olduğunu bilsə də, həmin məktubun arxasında qısa və ləyaqətli bir cavab yazıb geri göndərdi. Zuzan şahının saraydakı nəzarətçilərindən biri məsələdən hali olub öz hökmdarına dustaq Xadjanın qonşu ölkənin şahıyla yazışdığını xəbər verdi. Şah hirslənib məsələnin araşdırılmasını əmr etdi. Çaparı tutub məktubu aldılar.

Xadjanın cavab məktubunda belə yazılmışdı: "Dünyaya hökm edənlərin onların xidmətində duranlara layiq olduğundan artıq xoş niyyətləri böyük iltifatdır. Amma həmin şəxs ona təklif olunanı qəbul edə bilməz. Çünki başqa sülalənin səxavətini qazanmaqla o öz xeyirxahına münasibətdə naşükürlük etmiş olacaq. Bu haqda belə deyilir:

"Həyatının hər anı sənə mərhəmət göstərən kəs
Əgər bir dəfə qəlbini yaralayıbsa, bağışlamalısan."

Şah onun bu sədaqətini qiymətləndirib, adəti üzrə ona bahalı libaslar, hədiyyələr verdi:

– Mən səhv etmişəm, – deyib bağışlamasını istədi.

Xadja ehtiramla cavab verdi:

– Mənim ağam, sənin nökərinin başına gələn bu müsibət Yaradanın yazısı idi. Amma yaxşı oldu ki, bu, əvvəllər ona mərhəmət göstərib üzərinə məsuliyyət qoyan bir insanın əli ilə oldu.

"İnsanlar sənin qəlbini qırıbsa, qəm eləmə,
Çünki dərd də, sevinc də insandan gəlir.
Bil ki, dostla, düşməni Allah fərqləndirir,
Çünki hər iki ürək bir ovucdadır.
Ox yaydan çıxsa belə, müdriklər oxatana baxırlar".

Firdovsinin “Şahnamə”sindən

ZAL VƏ SİMURQ: DOSTLUQ

Şah Samın Zal adlı bir oğlu dünyaya gəldi. Çağanın saçları qar kimi ağappaq idi. Sam düşündü ki, oğlu ya ahıl qoca, ya da iblisdir. Əmr etdi ki, çağanı Alborz dağının qiymətli daş-qaş kimi bərq vuran yüksəkliyinə aparıb qoysunlar.

Qırmızımtıl və qızılı qanadlarıyla sehrli Simurq quşu Zalı gördü. Quşun yuvası isə daha da hündürdə, dağın düz təpəsində idi. Çağanı yuvaya gətirib balalarıyla birlikdə öz balası kimi yedirib böyütdü.

İllər keçdi. Sam yuxuda oğlunu gördü. Bir dəfə.., iki dəfə.... Başa düşdü ki, öz oğluna qarşı çox qəddar davranıb. Vicdan əzabı ilə oğlunun sağ olub-olmadığını öyrənmək üçün Alborz dağına yollanmağı düşündü.

Bir gecə yenidən yuxuda gördü ki, oğlu sağdır və fikrində qətiləşdi. Oğlunu tapanda qarşısında artıq gözəl, qədd-qamətli bir yeniyetmə dayanmışdı. Quş onu ləyaqəti bir insan kimi tərbiyə etmişdi. Zal həmişə ona sadiq olmuş Simurqdan ayrılmaq istəmirdi. Odur ki quş lələklərindən birini ona verib: “Çətinə düşəndə yandırarsan, – dedi, – mən dərhal köməyə gələcəyəm”.

Nəhayət, Zal öz evinə qayıtdı. Simurq isə həmişə onun köməyinə gəlməyə hazır idi. Bir müddətdən sonra Zalın arvadı Rüdabə hamilə oldu. Vaxtı çatanda bərk ağrılardan əzab çəkən arvadı uşağı doğa bilmirdi. Bu vaxt Simurqun lələyi Zalın yadına düşdü. Yandıran kimi möcüzəvi quş peyda oldu. Özü də ana olduğundan

bu işi yaxşı bilirdi. Çağanı dünyaya gətirəndən sonra zahı qadına müalicəvi otlar verib lələklərilə tumarladı. Rüdabə Rüstəm adlı aslan kimi güclü bir uşaq dünyaya gətirmişdi.



AYI VƏ AĞCAQANAD

Bir gün ayı meşədə dovşana rast gəlib məzələnmək üçün uzun qulaqlarını çəkdi. Dovşan ağrıdan və acizliyindən ağladı. Ayı isə öz işində idi, gülür və qulağı dartırdı. Məzələnib doyandan sonra əyripəncə çəpgözü buraxıb yanpörtü gəzə-gəzə çıxıb getdi.

Dovşan kolluqda büzüşüb qorxudan tir-tir əsir, oturub pəncəsiylə gözünün yaşını silirdi.

– Bu nə məzələnməkdir belə? – özü də bilmirdi, kimə deyirdi. – Şükür ki, sağam, qulaqdır da sağalar, gözümün yaşı da quruyar. Gedib kimə şikayət edəsən? Axı ayı bu meşənin ən güclü heyvanıdır. Canavarla tülkü də onun ayrılmaz dostlarıdır. Mən necə də zavallı məxluqam – nə özümün bir canım, təpərim, nə də məni qoruyacaq bir dostum var.

– Mən səni qoruyaram.

Qəflətən qamışlıqdan vızıltıyaoxşar səs eşitdi. Səsə tərəf dönəndə ağcaqanadı gördü. Dərhal gözünün yaşı qurudu, çünki kefi düzəlmişdi.

– Sən? – dovşan gülməyini zorla saxlayıb soruşdu, – Bu boyda canınla ayı ilə bəhs edəcəksən? Gopçu!

– Mən ayıdan güclüyəm, – ağcaqanad qətiyyətlə cavab verdi. – Ona ağladanacan əzab verə bilərəm, qoymaram yatsın. Sabah özün buna əmin olarsan.

Və ağcaqanad ayının dalınca uçub getdi.

Hava çox isti idi. Ayı bürküdən gizlənməyə yer tapa bilmirdi. Bir qollu-qanadlı ağacın altında uzandı. Elə təzəcə gözünü yummuşdu ki, düz burnunun üstünü vızıltı səsi aldı:

– Z-z-z-z-z-z-!

– Ay lənətə gəlmiş həşərat! – əyripəncə ağcaqanadı səsindən tanıyıb burnunun üstünə qonmağını gözlədi.

Ağcaqanad ayının üstündə fırlana-fırlana, doğrudan da, əyripəncənin düz burnunun üstünə qondu. O da çox götür-qoy etmədən pəncəsiylə burnuna necə vurdusa, gəl görəsən! Amma ağcaqanad axmaq-zad deyildi, yatıb-qalmamışdı, bilirdi ki, ayı onu əzmək istəyəcək, hələ zərbəyə qədər uçub aradan çıxmışdı, indi də qələbədən xoşhallanıb heyvanı rahat qoymamaq qərarına gəldi:

Ayı o biri tərəfə çevrildi, elə təzəcə mürgüləyirdi ki, təzədən eşitdi:

– Z-z-z-z!

"İndi görək bu böcək hara qonacaq!" – ayı özünü yuxulu kimi qələmə verdi.

Səs kəsildi və ayı fikirləşdi ki, ağcaqanad uçub gedib. Amma ağcaqanad bu haqda heç fikirləşmirdi də. Bu dəfə ehtiyatla əyripəncənin qulağına qonub bərkdən dişlədi. Ayı ağrıdan bağırıb dik atıldı, həmin yeri nişan alıb qulağına elə ilişdirdi ki, gözündən qığılcım çıxdı. Ayını dişləməyin nə olduğu bu həşərata dərs olar! Sonra qulağını ovxalayıb yerini rahatladı. İndi yata bilər. Amma sən saydığını say! Elə təzəcə gözlərini yummuşdu ki, başının üstünü ağcaqanad vızıltısı aldı.

– Ay lənətə gəlmiş! Bu lap dəmirdəndir ki, ayı qalxıb başqa bir yer axtarmağa getdi. Əyripəncə kolluqların arasıyla qaşına-qaşına, bütün meşə boyu əsnəyə-əsnəyə addımlayır, amma ağcaqanad da dinc durmurdu:

– Z-z-z-z!

Ayı qaçmağa başladı. Xeyli qaçandan sonra, nəhayət, ağaclardan birinin altında yıxılıb qaldı. Uzanıb qulaq asır. Meşə sakitdir. Bütün quşlar, heyvanlar çoxdan yatıb. Zülmət qaranlıqdır – heç nə gözə görünmür.

"Ağcaqanadın səsi gəlmir, şükür, axır ki yata bilərəm!"

Yerini rahatladı. Gözlərini yumub mürgülədi. Hətta yuxu da gördü. Gördü ki, balla dolu arı pətəyi tapıb. Elə təzəcə əlini pətəyə salmışdı ki, qəflətən ağcaqanad düz qulağının dibində səsləndi:



– Z-z-z-z!

“Yenə məni tapdı lənətə gəlmiş həşərat!”

Hirs boğa-boğa oturub hıçqırmağa başladı – ik, ik.

Ağcaqanad isə başının üstündə fırlana-fırlana vızıldadı, vızıldadı – gah bərkdən, gah astadan və susdu.

Ayı bir xeyli oturub qaldı, hər tərəfə diqqət edib təzədən əyildi. Yenicə canını isidib mürgüləmişdi ki, ağcaqanad təzədən uçub gəldi.

Ayı ağacın altından çıxıb oturdu və acı-acı ağladı:

– Əl çəkmədi məndən yaramaz! İndi özünü gözlə – səhərə qədər də olsa, oturub qalacağam, səni gəbərtməyincə yatan deyiləm.

Amma onu ağlar günə qoysa da, ayı ağcaqanadı gəbərdə bilmədi. Əvəzində bu əyripəncə özünə o qədər çırpdı ki, gömgöy oldu. Ağcaqanadın isə tükü də tərpənmədi.

Günəş çıxdı. Quşlar, heyvanlar yuxudan oyandılar. Hamı başlanan yeni günü salamladı. Yalnız ayı bu günəşijn çıxmasına sevinmirdi. Pırtlaşıq başıyla, didik-didik olmuş tüklərilə əsəbi halda yanpörtü addımlayır, ağcaqanadın vızıltısı hələ də qulağından çəkilmirdi.

Dovşan ayını bu halda görüb qürurla atılıb-düşdü.

– Ay səni, ağcaqanad! Ay səni, afərin! – dovşan atılıb-düşür və gözləri yaşaranacan qəhqəhə çəkirdi. Ağcaqanad isə himə bənd idi, dərhal peyda oldu.

– Ayını gördün? – soruşdu.

Dovşan cavabında:

– Gördüm, gördüm, – deyib, hələ də gülməkdən qarnını tutub qalmışdı. – onu nə günə salmısan?! Çox sağ ol, dostum! De görüm, sənin kimi belə balaca bir şey o boyda ayını necə üstələdi?

– Çox asan, – ağcaqanad cavab verdi. – Məsələ burasındadır ki, biz ağcaqanadlar heç vaxt siz dovşanlar kimi yalnız özümüz üçün yaşamırıq. Həm də biz qorxaq deyilik.

Dovşan bu sözdən fikrə getdi, ağcaqanad isə təzədən əyripəncənin ardınca uçdu.

ÇƏPİŞLƏR

Düzənlikdə iki çəpiş qaçışırdı: biri ağ, o biri qara. Ətraflarına baxdılar: bir tərəfdə sıx meşə, o birində alaq basmış düzənlik. Ətrafda nə keçi, nə qoyun var.

Qara çəpiş:

– Ay səni, ağ çəpiş, axmaq çəpiş. Məni meşəyə gətirdin, biz də azdıq, – deyib ağın belinə vuranda yazıq ağrıdan qışqırdı.

Qara çəpiş yaşca ağdan böyükdür. Alnında buynuz var, dəcəl və vecsizdir, ağın onun qardaşı olmasının da əhəmiyyəti yoxdur, fərqində deyil, imkan düşən kimi onu hirsləndirir: "Ağ axmaqdır". Hirslənəndə də zavallının belinə vurur. Ağ çəpişi, əslində, özü bura gətirib:

– Be-e! Gəl gör burada necə dadlı otlar var, – deyərək. İndi də bütün günahı qardaşının üstünə yıxır.

Ağ çəpiş onların hansı yollardan, hansı cığırlardan keçdiklərini xeyli fikirləşəndən sonra dedi:

– İndi sürünü tapa biləcəyikmi? Kim bilir, bəlkə də, sürü artıq dağa qalxıb, indi örüşdə otlayır?! Amma biz örüş nədir, adicə yolu da tapa bilmirik. Neynək, istənilən halda hərəkət etməliyik. Mən qabaqda gedib yolu tapacağam. Amma sənə iki məsləhətim var – heç kimlə dalaşmayacaqsan və mənə qulaq asacaqsan. Əgər bu şərtlərə əməl etməsən, azıb öləcəyik.

Qara çəpiş "öləcəyik" sözünü eşidib qorxdu və hər məsələdə ağa qulaq asacağına söz verdi.

Ağ qabağa düşüb sıx kolluqları aralayır, cığırı açırdı. Yoluna arx çıxanda üstündən atılır, daş çıxanda yanından keçirdi. Belə-

cə, çəpişlər bir dağın ətəyinə gəlib çatdılar. Sakitlik idi, ətrafda ins-cins gözə dəymirdi. Qəflətən haradansa qarşılarına bir tülkü çıxdı, hiyləgərliklə quyruğunu yelləyib:

– Ay səni, necə ağ, necə gözəl çəpişdir, lap yemək istəyirsən, – dedi. – Qardaşın da çox şirindir. Siz, yəqin, yorulmusunuz. Gedək bizə, dincələrsiniz, güc toplayarsınız. Mənim də sizin kimi iki şirin balam var onlarla oynayarsınız.

Ürəyində isə fikirləşirdi: "Ağ hələ balacadır. Gərək əvvəlcə onu yeyim. Amma qardaşı görsə, qaçıb əldən çıxa bilər".

Ağ çəpişin cavabı artıq əvvəlcədən hazır idi:

– Ay tülkü, bax o yüksəklikdəki qara daşın yanında bizi canavar gözləyir. Biz ona qonaq gedirik. Əgər canavar bilsə ki, sənlə getmişik, hirslənəcək, canavarın da qəzəbi hamıya bəllidir. İnanmırsansa, bizimlə gəl.

Tülkü:

– Yaxşı, yaxşı, gedin, – desə də, hər halda, yoxlamaq üçün gizlicə onların dalınca düşdü.

Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, bir də gördülər ki, dana boyda bir canavar qarşılarında peyda oldu. Onu görən kimi tülkünün ürəyi qopdu. Canavar sevincək dedi:

– Nə yaxşı qarşıma çıxdınız! Elə acmışam ki!

Ağ çəpiş yenə dilini işə saldı:

– Əziz canavar, bax o yüksəklikdəki qara qayanın yanında bizi pələng gözləyir. Bu tərəflərdəki bütün quşlara və heyvanlara şahlıq etmək üçün dünən gəlib. O, səhərə iki buzov, günortaya iki keçi, axşama iki quzu yeyir. Əgər bu işinizdən xəbər tutsa, hirslənər və halınız yaxşı olmaz.

– Be-e! Ey canavar, ora bax, Pələng bura gəlir, bizi çağırır, – qəflətən qara çəpiş qışqırdı.

Bayaqdan özünü xoruz kimi aparan canavar cücəyə dönüb qorxudan sıx kolluqların arasına soxulub qaçdı.

– Tələdən uzaq olaq, nə qədər ki sağıq, biz də qaçaq!

Çəpişlər də nəfəs dərmədən qaçdılar. Dağın yüksəkliyinə çatanda onun ətəyində qoca çobanı at belində gördülər.

Çəpişlər sevinib bir-birini ötə-ötə sürüyə tərəf qaçdılar və qoyun-keçilərə qoşuldular. Qoca çoban birinci gələn ağ çəpişi görüb qucağına aldı:

– Bir bax ha, özləri gəldilər! Afərin sizə. Afərin, ağ çəpiş. Bundan sonra heç kim "ağ çəpiş – axmaq çəpiş" deyib sənə sataşmayacaq.

Və qoca çoban ağ çəpişi bərk-bərk qucaqladı.

Kxmer xalq nağılları silsiləsindən

HEYVANLAR ÖZLƏRİNƏ ŞAH SEÇİRLƏR

Nə vaxtsa qədim əyyamlarda Yer adlı planeti idarə edən yox idi. Sonralar insanlar məşvərət eləyib Prea Sammat Riç adlı şəxsi başçı seçdilər. O, insanları təşkilatlandırmaq və idarə etmək üçün şah seçildi.

Vəhşi, dinc heyvanlar, quşlar, balıqlar bu xəbəri eşidib çox təəccübləndilər. Bir müddət sonra dünyaya elan etdilər ki, onların hələ də şahları yoxdur və kömək istəyirlər.

Az sonra heyvanlara şah seçmək məqsədilə bütün insanlar toplaşdılar. Əzəmətli, güclü, müdrik və təmkinli şir vəhşi təbiətin şahı elan olundu. Vəhşi təbiət yeni təyinatdan çox razı qaldı. Ən iri balığı – anon balığını da bütün dənizlərin şahı elan etdilər. Və balıqlar da bu təyinatı böyük məmnuniyyətlə qəbul etdilər.

Quşlara gəlincə, bu vəzifəyə iki namizəd var idi – qarğa və bayquş. Hər iki namizədin çox sayda tərəfdarı var idi. Hər iki dəstə o biri tərəfi alçaltmaq üçün dəridən-qabıqdan çıxırdı.

Qarğa dedi:

– Bayquşu şah elan etmək kimi ağlından keçər?! Əgər bütün quşların şahı olarsa, öz iri gözləriylə hamını məhv edər. Əgər mənə inanmırsınızsa, sadəcə, onun gözlərinə baxın! Görəcəksiniz ki, o, əsl yırtıcıdır.

Bayquş qarğaya belə cavab verdi:

– O! Qarğa lap sümüyünəcən qaradır! Bu qapqara məxluqun təkcə tükləri, qanadları deyil, fikirləri də eynilə bədəni kimi





qaradır. Əgər kimsə bilib-bilmədən onu şah elan etsə, qarğa ən xırda itaətsizliyə görə sizin hamınızı məsuliyyətə cəlb edib öz hakimiyyəti ilə əzəcək. Bu qara məxluq heç vaxt düzgün-dürüst ov etməyəcək, həmişə başqasının yemini oğurlayacaq. Elə bircə onun necə ov etməsinə baxsanız, mahiyyətini anlayarsınız.

Qarğanın və bayquşun tərəfdarlarının bir-birinə qarşı ittihamları o qədər artdı ki, iki düşmənə çevrildilər. Nəhayət, onlardan heç birinə aid olmayanlar durnanı quşların şahı elan etməyə qərar verdi.

Elə bu səbəbdən də qarğalar və bayquşlar indiyəcən bir-birilərinə nifrət edirlər. Məhz gələcək münaqişələrin qarşısının alınması üçün elə o vaxtdan bu iki quşu gecəyə və gündüzə bölmək ənənəsi yarandı.



Kxmer xalq nağılları silsiləsindən

AX KVAK, AX KVEN
(Kor və iflic)

Biri var idi, biri yox idi, iki dost var idi. Onlardan Ax Kvak kor, Ax Kven isə iflic idi. Xidmət etdikləri ağanın müxtəlif işlərində çalışsalar da, aralarından su da keçməzdi. Harasa getmək istəyəndə başqasının köməyin ehtiyacları olmazdı, elə bir-birilərini müşayiət edərdilər. Ağa isə onları qədərindən də artıq işlədərdi.

Hər iki dost özlərini çox məzlum hiss edərdilər. Və günlərin bir günü ümidsizliyə qapılan Ax Kven dostuna dedi:

– Biz çox yorulmuşuq, daha ağalarımıza işləməyə taqətimiz qalmayıb. Ondan qaçıb can qurtarmaqdan başqa yolumuz yoxdur.

Ax Kvak soruşdu:

– Biz bunu necə edə bilərik?

Ax Kven cavab verdi:

– Ağamızın qayığı sahildədir, özüm görmüşəm. Ona minib qaçarıq.

Hər ikisi razılığa gəldi və gecə bir-biriylə köməkləşib sahilə düşdülər . ağasının qayığına çatıb biri onun burun hissəsində, o biri üzbəüzündə oturdu. Elə düşündülər ki, qayığı sürə bilərlər. Ax Kvak heç nə görmür, Ax Kven isə avarı çəkə bilmirdi.

Gecənin zülmət qaranlığında heç nə görünməsə də, onlara elə gəlirdi ki, qayıq sürətlə hərəkət edir. Əslində isə, təəssüf ki, qayıq yerindəcə donub qalmışdı, azca da tərpənməmişdi. Bir müddətdən sonra dostlar cırcırama səsləri eşitdilər və Ax Kvak dedi:

– Belə görünür ki, biz vadiyə çatmışıq.

Xoruz banı eşidilənəcən var qüvvələri ilə avarları çəkməyə can atdılar. Onda belə qənaətə gəldilər:

– Görünür, qonşu kəndə yaxınlaşırıq, odur ki ağalarımızın əlinə keçməmək üçün tələsməliyik.

Ax Kvak və Ax Kven avarı gücləri çatan qədər sürətlə çəkirdilər. Elə bu vaxt Ax Kvak quşların səsini eşidib dedi:

– Bu səsdən adam elə bilir, evdədir.

Səhər açılanda ağa su dalınca düşəndə qayığında üzbəüz oturmuş iki kişi gördü. Başa düşdü ki, qaçmaq istəyirlər, amma heç vecinə də olmadı. Dostları cəzalandırmaq əvəzinə evə qayıtmalarına icazə verdi. Amma Ax Kvak və Ax Kven qaçmaq sevdasından əl çəkmək fikrində deyildilər. Bir gün Ax Kven Ax Kvaka yeni təklifini dedi:

– Bu dəfə qaçanda bizə çatmalarına imkan verməyəcəyik. Özü də qayıqla yox, piyada gedəcəyik.

Ax Kvak etiraz etdi:

– Bir ifliclə bir kor piyada necə gedə bilər?

Ax Kven cavab verdi:

– Sən heç narahat olma, sənin çiyninə oturub yolu göstərərəm.

Götür-qoydan sonra gecənin bir vaxtı hamı yuxuda olanda Ax Kvak Ax Kveni çiyninə aldı və onlar piyada yola düzəldilər. Səhər açılanda ağa iki işçisini evdə tapmadı. Dərhal anladı ki, onlar yenidən qaçmaq qərarına gəliblər. Bununla belə, çox da narahat olmadı, bilirdi ki, bu iki nəfər çox da uzağa gedə bilməz. Odur ki onları axtarmamaq qərarına gəldi.

Bir neçə gün yol gedəndən sonra gecə yarısı vəhşi bir pələngdən başqa heç kimin yaşamadığı boş qalmış kəndə çatdılar. Ax Kvak dilləndi:

– Biz bu kənddə necə baş saxlayacağıq? Öküzsüz, kotansız nə əkib-becərəcəyik? Həm də bizim kimisini hansı əkinçi işə götürəcək? Yalnız oğurluq etməklə baş saxlaya bilərik.

Ax Kvaka cavabında Ax Kven məsləhət gördü ki, yerli camaatı tapıb görüşsün. Əslində, bura gələnəcən yol boyu rastlaşdı-

ğı adamlar boş qalmış kənddə məskən salan pələngin vəhşiliyi barədə onlara xəbərdarlıq etmişdilər. Onlara cavablarında hər ikisi əminliklə pələngdən qorxmadıqlarını, onunla görüşdən məmnun qalacaqlarını deyirdilər.

Az sonra Ax Kven mal tövləsi görüb ucadan qışqırdı:

– Ora gedib bir inək oğurla, mən səni burada gözləyəcəyəm.

Ax Kvak Ax Kveni yerə düşürüb mal tövləsinə tərəf getdi və orada pələnglə toqquşdu. Pələng Ax Kvakı hansısa bir heyvan zənn edib qorxudan yerindəcə donub qaldı. Ax Kvak isə pələngi öküz bilib lap yaxınlaşdı. Sonra buynuzunun olub-olmamasını yoxlamaq üçün pələngin başına toxundu. Və sevincək halda ucadan Ax Kvenə səsləndi:

– Bu öküzün buynuzu var, özü də çox ətlidir!

Kor Ax Kvak pələngdən yapışıb darta-darta dostunun yanına gətirdi. Pələng Ax Kvakdan möhkəm qorxdu, düşündü ki, ona nə desən edə bilər. Odur ki dinməzcə yanına düşüb gəldi. Heyvanı görən Ax Kven dostuna:

– Ax Kvak, bu axı öküz yox, pələngdir, – dedi.

Ax Kvak cavabında:

– Əgər sən ipi öküzün boynuna salmamağımdan qorxmusansa, onda lap burnuna keçirərəm, – dedi və elə həmin an tərəddüd etmədən dilindən çıxanı etdi. Kəskin ağrıdan pələng bağırıb qaçdı. Ax Kven canından qorxub pələngin ardınca qaçmaq istəmədi. Amma Ax Kvak ona qulaq asmayıb iflic dostunu çiyninə aldı və qorxmuş pələngin ardınca qaçdı.

Bir müddətdən sonra onlar komaya yaxınlaşıb orada dəmir şişlə tısbağa gördülər. Ax Kven onları görüb Ax Kvaka dedi:

– Biz komanın yaxınlığındayıq. Mən orada şiş və iri bir səbət gördüm.

Ax Kvak cavabında:

– Əlinə keçəni götür, – dedi, – orada bir şey qoyma.

Ax Kvak razılaşmadı:

– Axı daşımaq ağır olacaq!

Ax Kvak düzəliş verdi:

– Onsuz da bütün yük mənlikdir, dediyimi elə.

Sonra komadan gücləri çatan qədər yük götürüb meşəyə yollandılar. Orada bal pətəkləri yığan arıçıya rast gəldilər. Ax Kvak dərhal həmin cavan oğlanı səslədi:

– Ey cavan oğlan, xahiş edirik, öz pətəklərindən bizə də ver.

Onda həmin adam belə cavab verdi:

– Mənə ancaq bal lazımdır, pətəkləri sizə verə bilərəm.

Cavan oğlan bir qədər kənara çəkildi, nəcisini bambuk deşiyinə boşaldıb Ax Kvaka verdi.

Uzun və yorucu yoldan sonra, nəhayət, nəfəslərini dərib yemək qərarına gəldilər. Ax Kvak dostunu yerə düşürüb pətək bildiyi bambuku çıxardı. Elə təzəcə çıxarmışdı ki, hər tərəfi pis iy bürüdü.

Ax Kvak:

– Buradan pis iy gəlir, – dedi, – yaxşısı budur, başqa yerdə yeyək.

Və yollarına davam etdilər. İki dost yenidən aclıq hiss edib qarınlarını doyurmaq üçün dayanmaq qərarına gəldilər. Bambuku götürüb elə təzəcə deşiyə tıxanan qapağı çıxarmaq istəyirdi ki, yenidən pis iy aləmi bürüdü. Beləcə, bir neçə dəfə istirahət yerlərini dəyişməli oldular. Nəhayət, Ax Kvak nə fikirləşdisə, bambuka tıxanan qapağı çıxarıb əlini deşiyə basdı və iyləyəndə məsələnin nə yerdə olduğunu bildi. Ax Kven dostuna hər şeyi dedi. Əsəbiləşib onları bu cür məsxərəyə qoyduğu üçün həmin arıçını öldürmək qərarına gəldilər.

Bu iki yaxın dost nəfəslərini dərib arıçını axtarışına çıxdılar və yolda azdılar. Ax Kvak və Ax Kven əvəzində bir səltənətə varid oldular. Dostlar bura gəlib çıxanda aləm bir-birinə qarışmışdı. Kraldan hədə-qorxuyla tələb edirdilər ki, kiçik qızı Povu qəddar bədheybətə qurban versin. Əks halda, bədheybət hamını, lap kralın özünü də yeyəcək. Şahzadə Povun krala və xalqına rəhmi gəldi, odur ki özünün qurban verilməsinə razı oldu. Şahzadə oturub vaxtını gözləyirdi.

Bu hadisələrdən xəbərsiz iki dost təsadüfən gəlib hadisələrin mərkəzinə düşmüşdü. Onlar dincəlmək üçün buradan dayana-

caq kimi istifadə etmək fikrindəydilər. Onların söhbətlərini eşidən şahzadə soruşdu:

– Siz bura haradan gəlmisiniz? Necə oldu ki, bura gəlib çıxdınız? Bura elə bir yerdir ki, insanlar qurbanlıq kimi bədheybətə verilir. İndi mənim növbəmdir, həmin bədheybətə yem olacağam. Odur ki nə qədər fürsət var, tez buranı tərk edin, yoxsa siz də yem olacaqsınız.

Ax Kvak anadangəlmə kor idi və heç nədən qorxusu yox idi. Odur ki şahzadənin sözlərinə belə cavab verdi:

– Niyə axı biz ondan qorxmalıyıq? Mən onu tikə-tikə edərəm. Sən, sadəcə, mənə qulaq as. Qoluma qüvvət toplamaq üçün mənə yemək və bir də iti qılınc gətir. Mən onu doğram-doğram edəcəyəm.

Şahzadə Ax Kvakın sözlərini eşidib çox sevindi və söz verdi ki, əgər bədheybəti öldürə bilsə, bütün var-dövlətini ona verəcək. Ax Kven isə əməllicə qorxmuşdu. Yeyib qarnını doyurandan sonra Ax Kvak sarayın bütün qapı-pəncərələrini bağlatdırıb qaranlıqda bədheybətin gəlişini gözlədi. Deyildiyi kimi, bədheybətin gəlişi elə dəhşətli səslə müşahidə olundu ki, sanki güclü ildırım çaxdı.

Ax Kven qorxudan az qala tumanını batıracaqdı. Şahzadə Pov isə özündən getdi. Ax Kvak hiss etdi ki, bədheybət yaxınlaşır. Qorxusuz-ürküsüz onu qapının ağzında gözləyirdi. Bədheybət gəlib qapını bağlı görəndə qəzəb içində ildırımabənzər səsiylə bağırdı:

– Mənim qapımı kim bağlayıb?!

Ax Kvak tükü də tərpənmədən cavab verdi:

– Mən bağlamışam, səndən də qorxub eləmirəm!

Bədheybət soruşdu:

– Sən haradan gəlmisən? Yaman ciyərlisən! Göstər görüm ciyərin nə boydadır, mən onu öz gözlərimlə görmək istəyirəm.

Kor Ax Kvak iri səbəti bədheybətə tərəf tulladı. Bədheybət səbəti görüb ürəyində fikirləşdi: “Gör bir nə boyda ciyəri var, belə çıxır, mənimkindən də böyükdür”.

Onda bədheybət soruşdu:

– Əgər sənin tək ciyərin bu böyüklükdədirsə, bəs başının biti nə boydadır?

Kor Ax Kvak tısbağanı bədheybətə tərəf atdı.

Bədheybət onu da bit bilib öz aləmindən düşündü: "Gör bir nə boydadır! Dəhşət böyükdür!"

Onda bədheybət soruşdu:

– Bəs ayağının tükləri nə boydadır?

Ax Kvak öküzə bağladığı məftili ona atdı. Bədheybət qorxu içində qaçıb getdi. Ax Kvak şahzadəyə xəbər verdi:

– Bu bədheybət qaçıb aradan çıxdı, başqaları da olacaqmı?

Bayılmış şahzadə özünə gəlib Ax Kvaka dedi:

– Gecə dişi bədheybət gəlməlidir.

Bunu eşidən Ax Kvak dostuna tapşırdı ki, onun üçün iti bir qılınc seçsin. Ax Kven dostunun xahişini yerinə yetirmək üçün gedib yaxşı bir qılınc tapdı. Gecə düşəndə saraya yenidən başqa bir bədheybət gəldi. Kor onun qapını necə açdığını eşitdi. Əlində qılınc hazır vəziyyətdə qapının ağzında dayanmışdı. Bədheybət içəri girən kimi bir zərbəylə onun başını bədənindən ayırdı. Bədheybətin öldüyünə əmin olan Ax Kvak və Ax Kven köməkləşib onlara hədiyyə edilən qızıl və gümüşləri götürdülər.

Səhər tezdən Ax Kven bir ağac görüb kor dostuna onun kölgəsində qazandıqlarını bölüşməyi təklı etdi. Payın yarısını Ax Kvaka verməzdən əvvəl soruşdu:

– Sən öz qabağında, yoxsa mənim qabağımda olan payı götürəcəksən?

Həyat təcrübəsi keçmiş Ax Kvak düşündü ki, yəqin, Ax Kven onun qabağına payın az hissəsini qoyub. Odur ki cavabında:

– Mən sənin qabağında olanı götürəcəyəm, – dedi.

Ax Kven payın çox hissəsinin kora düşdüyünü görüb:

– Gəl təzədən bölüşdürək, – dedi, – nəsə, əvvəldən nəzərdə tutulduğu kimi alınmayıb.

Və təzədən dostundan soruşdu.

– Bəs indi kimin qabağındakı torbanı götürəcəksən, Ax Kvak?

Kor fikirləşdi: “Yəqin, bu dəfə Ax Kven çox tərəfi mənim qabağıma qoyacaq”. Odur ki dedi:

– Mən qarşımda olan payı götürürəm.

Ax Kven bu dəfə də payın çox hissəsinin kor dostuna düşdüyünü görüb:

– Yox, bu, düzgün deyil, gəl bir də bölüşdürək.

Ax Kvak dostunun təklifiylə razılaşmadı və aralarında mübahisə başlandı. Elə bu vaxt ağacdan bir meyvə Ax Kvakın başına düşdü. Ax Kvenin onu vurduğunu düşünüb:

– Niyə məni vurdun? – dedi və ardınca atılıb Ax Kveni əzişdirməyə başladı. Dostuna o qədər çırpdı ki, Ax Kven ayağa qalxıb əlini, bədənini, bütün canındakı ağrıları hiss etməyə başladı. Ax Kven də açılanacan kor dostunun gözlərini yumruqladı. Hər ikisi sağaldı və xoşbəxt oldu. Payı da qardaş malı kimi böldülər. Sonra iki dost yoluna davam etdi.

Şahzadə Pova gəlincə, səhər təzədən insanlar onun aqibətini bilmək üçün saraya gəldilər. Şahzadə sağ-salamat idi. Bədheybət onu yeyə bilməmişdi, əksinə, öz başsız cəsədi qapının ağzında yıxılıb qalmışdı. Kral bu şad xəbərdən çox sevinib gecə nə baş verdiyini qızından soruşdu. Şahzadə hər şeyi olduğu kimi krala danışdı. Bu səbəbdən kral bədheybəti öldürüb qızını xilas edən adamı tapmaq qərarına gəldi. Söz verdi ki, qızını ona ərə verib kral edəcək.

Ax Kvak və Ax Kven bu xəbəri eşidib şad oldular və saraya təşrif buyurub bədheybəti onların öldürdüklərini krala sübut etdilər. Kral qızından onların haqlı olub-olmadığını soruşdu. Artıq kor və iflic olmasalar da, şahzadə bu iki dostu görən kimi tanıdı.

Ax Kvak şahzadə Povla evlənib taxt-taca sahib oldu, dostunu isə ömürlük vəliəhd təyin etdi. Onlar birlikdə uzun və xoşbəxt həyat yaşadılar.

Məhəmməd Talib Salman əl-Dueyk

ƏSL DOSTLUQ

Biri var idi, biri yox idi, anasının çox sevdiyi bir oğlan var idi. Bir gün anası ona dedi:

– Mənim balam, nəsə görürəm ki, səni də heç də hər şey olduğu kimi getmir. Əvvəlki kimi deyilsən, evdən tez gedib, gec qayıdırsan.

Oğlan cavabında dedi:

– Anacan, mənim bir dostum var, yaxın dostum, vaxtımı onunla keçirirəm.

Ana məsləhət gördü:

– Bax ha, oğlum, hər dostdan dost olmaz.... Mən onu imtahan eləyib öyrənərəm. Onu sabah nahara dəvət et, həm də de ki, gecikməsin.

Oğlan razılaşdı.

Gedib anasının dilindən dostunu evlərinə dəvət etdi. Dostu soruşdu:

– Yeməyə nə olacaq?

– Toyuğumuz var, anam ondan nahar yeməyi hazırlayacaq, – dedi.

Dostu dəvəti qəbul etdi.

Ana toyuqdan dadlı yemək hazırladı. Oğlunun dostu vədələşdikləri vaxt gəlib çıxdı. Ana onları süfrəyə dəvət etdi. Qab-qacaq, yağ, pendir süfrəyə düzüldü. Süfrə hazır olanda oğlan dostuna:

– Mənim hələ işim var, – dedi, – sən doyunca ye, dincəl, narahat olma.

Əlbəttə ki, oğlanın işi-zadı yox idi, sadəcə, dostunu yoxlayırdı. Çıxıb anasıyla bir otaqda oturdu.

Dostu toyuğun budunu, döşünü, qanadlarını yeyib, sonra xurmanı, şirniyyatları həzmi-rabedən keçirdi. Sonra masadan qalxanda oğlan otaqdan çıxıb yaxınlaşdı:

– Babat nahar eləyə bildin? – soruşdu.

Dostu cavabında başıyla razılığını bildirdi.

– Qəhvə də içdin?

– Hə, Allah köməyin olsun.

Və dostu çıxıb getdi. Sonra anası otaqdan çıxıb gəldi:

– Oğlum, bundan sənə dost olmaz, – dedi. – Əgər bir də onunla görüşsən, səndən inciyərəm. Oğlum, dostluq yaxşı şeydir, amma yaxşı adamlarla. Pis adamlardan sənə dost olmaz. Yaxşı dost pis gündə tanınar, dost dosta görə hər şeyindən, lap canından keçir. Sənin bu dostun üçünsə qarın, dost nədir, qardaşdan irəli oldu.



Oğlu:

– Yaxşı, anacan, sənə qulaq asmaq, səninlə razılaşmaq mənim borcumdur, – dedi.

Ana:

– Mən sənin ancaq yaxşılığını düşünürəm, oğlum, – dedi.

Günlər keçdi və oğlu bir başqasıyla dostlaşıb bu haqda anasına danışdı:

– Ana, artıq bir aydır, bir nəfərlə dostlaşmışıq. Çox yaxşı oğlandır. Hər sınaqdan mərdi-mərdanə çıxıb. İnşallah, sən də bəyənərsən.

Anası:

– Əgər belədirsə, onu sabah bizə dəvət et.

Oğlu razılaşdı:

– Mən onu da nahara dəvət edərəm, inşallah, hər şey yaxşı olar.

Dostu ilə görüşəndə təklifini etdi:

– Sabah bizimlə nahar etməyə vaxtın var?

Dostu soruşdu:

– Yeməyə nə olacaq?

– Anam xoruz kəsib ətindən yemək hazırlayacaq. Mənə dedi ki, dostlarından ürəyin istəyəni nahara dəvət edə bilərsən. Mənim də səndən əziz dostum yoxdur.

Dostu razılaşıb vaxtı soruşdu.

Oğlan:

– Günorta namazından sonra, – dedi.

Namazdan sonra dostu onlara gəldi. Süfrəyə hər şey düzüldü – kökə, xoruz, şirin təamlar. Elə təzə oturmuşdular ki, oğlan dostuna:

– Gör ha, yadımdan çıxdı, anam mənə vacib bir iş tapşırıb. Tez həll edib qayıdacağam. Sən yeməyində ol. Qəti utanıb eləmə, öz evindir, doyunca ye.

Dostu:

– Yaxşı, – dedi.

Oğlan gedəndən sonra dostu yeməklərin üstünü boş boşqablarla örtüb onun qayıtmasını gözlədi. Dostu pəncərənin qarşısında oturub küçədən keçənlərə baxırdı. Oğlan yarım saatdan sonra qayıdıb dostundan yeyib-yemədiyini soruşdu. Dostu:

– Yox, – dedi, – sənsiz boğazımdan tikə də keçmədi. Əlbəttə, qayıtmağını gözlədim.

Hər ikisi birlikdə süfrənin arxasına keçib yedilər, içdilər, deyib-güldülər. Nahardan sonra oğul anasının yanına gəlib:

– Buna nə deyirsən, anacan? – soruşdu.

Ana cavabında:

– Hə oğlum, bax bu, əsl dostdur – tikəsini dostuyla bölən dost.

Mənbə: “Yayğın ənənələr” jurnalı

DƏRİÇİ

Biri vardı, biri yoxdu, bir dəriçi vardı. Ər-arvad övlad payı gözləyirdilər. Dəriçi Məkkəyə – Həcc ziyarətinə yollanmaq üçün qazandıqlarını imkan daxilində geri atırdı. Dəriçinin ərinin ölümündən sonra yetim uşaqlarıylı tək qalan dul qadın qonşusu var idi. Zavallı qadının övladlarını yedirmək üçün heç bir qazanc yeri yox idi. Bir gecə uşaqlar acından səhərəcən ağlayıb yata bilmədilər. Ana onları yuxuya vermək üçün ha eləsə də, mürgüləyib oyanırdılar. Onda qadın zibil yığılan tərəfə yollanıb orada çürümüş bir heyvan cəsədi tapdı. Evə qayıdıb uşaqları yerinə uzandırdı və dedi ki, onlara yemək gətirəcək. Özü evdən bıçaq götürüb yenidən zibilxanaya tərəf getdi, ölü heyvanın ətindən kəsib qayıtdı.

Ocaq qalayıb uşaqlar yuxuda olan müddətdə əti qızartmağa başladı. Qızardılmış ətin kəskin iyi dəriçinin hamilə arvadının burnuna gəldi və ürəyi ondan istədi. Ərinə:

– Qonşunun evinə get, mənə bir az ətdən istə, – dedi.

Dəriçi cavabında:

– Yox, bu, düzgün çıxmır, – dedi, – məndən başqa bir şey istə.

Hamilə arvad iki ayağını bir başmağa dirəyib:

– Yox, getməlisən, ürəyim ancaq qızardılmış ət istəyir, – dedi.

Kişi naəlac qalıb qonşunun evinə getdi. Qapını döydü. Dul arvad evindən çıxıb qonşudan gəlişinin səbəbini soruşdu. Kişi tərəddüdlə də olsa, cavab verdi:

– Mənim hamilə arvadım necəsə sizin qızartdığınız ətin iyini alıb. O ətdən balaca bir tikə ver bilərsinizmi?

Qonşu qadın əvvəl karıxıb sonra pərtlikdən qızardı və birtəhər dilləndi:

– Mən Allahdan qorxuram, sizə yalan deməyəcəyəm. İstədiyiniz ölü heyvanın ətidir. Mən onu zibillikdən götürmüşəm, ac uşaqlarımın göz yaşlarına dözə bilmədim.

Dəriçi qonşunun halından, günündən, eşitdiklərindən dəhşətə gəldi.

Dul arvad davam etdi:

– Ərimdən sonra yetimlərimlə pis günlərə qaldıq. onların sual dolu ac baxışlarına nə cavab verəcəyimi özün də bilmirəm. Naəlac qalıb zibilxanaya getdim, bu yola əl atdım. Ölü heyvandan bir tikə ət kəsib qızartmaq istədim ki, bəlkə, uşaqlarım qısa müddətlik də olsa, sakitləşər.

Dəriçi dilxor və əzilmiş halda arvadının yanına qayıdıb qonşudan eşitdiklərini danışdı və sonra ürəyində sual etdi: "Bir halda ki qonşuluğumda bir ana və yetim qalmış övladları acından ölür, mənə Həcc ziyarəti caizdirmi?" Yəqin, bütün bu olanlar ilahinin ona işarəti idi. Sonra üzünü Allaha tutdu?

– Ey uca Allahım, mən sənin evinə ziyarətimi ac uşaqlarını yedirtmək istəyən anaya dayaq durmaqla əvəz edirəm!

Və Həcc üçün yığdığı pulları qonşuya verib:

– Bu pulu sizə Allah göndərdi, – dedi, – uşaqlarınızın qarnını doydurmaq üçün.

Qonşu çox sevindi, ona Allahın yolunda dualar edib xoş, firavan həyat arzuladı. Həmin pula uşaqlar üçün xeyli ərzaq aldı. Dəriçiyə gəlincə, ziyarəti baş tutmadı.

Həcc ziyarəti zamanı Məkkədə zəvvarlar mələklərin səsini eşitdilər: "Allah sizlərlə bərabər filankəsin oğlu olan filan dəriçinin də ziyarətini qəbul etdi".

Bu səsi eşidən zəvvarlardan biri dəriçini yaxşı tanıyırdı. Həcc

ziyarətindən sonra onun evinə gəlib soruşdu:

– Sən ziyarətə yollanmışdın?

Dəriçi təəssüflə başını buladı.

Həmin adam təəccüblə bir də soruşdu:

– Necə yəni, sən oradaydın axı?

Dəriçi:

– Yox, bu dəfə qismət deyilmiş, – dedi və həmin adam olanları danışdı:

– Mən və zəvvar yoldaşlarım orada mələklərin səsini eşitdik: "Allah sizlərlə bərabər filankəsin oğlu filan dəriçinin də ziyarətini qəbul etdi". Buna nə deyirsən?

Dəriçi əvvəl cavab vermədi, amma gələn adamın əl çəkmədiyini görüb başına gələn hadisəni danışdı. Gələn adam belə böyük ürək sahibinin qarşısında gələn il ziyarətə onu öz yığdığı pulla göndərəcəyinə söz verdi. Və vaxt-vədə yetişəndə dəriçi xoş ovqatla Kəbəyə – Allahın evinə ziyarətə yollandı.

Cao Vensyaan
İlk dəfə 2015-ci ildə Çində
“XXI əsr” nəşriyyatında dərc olunub

YAY

Qızmar yay günəşi göydən bərq vururdu. Balaca quşcuğaz istidən gizlənmək üçün yarpaqların altına girdi. İlbizlər kolluğun o biri tərəfinə süründülər. Qurbağa suyun üzərindəki lotosun üstündə qaldı. Lotos sanki çətir kimi qurbağanın bədənini örtmüşdü. Bir neçə ördək qanadlarıyla başlarını gizlədib suda sakitcə üzür, böyük körpünün kölgəsi altında yuxulayırdılar. Samanlığın kölgəsindəki torpaqda gəzişən cücələr mürgüləyirdilər. Əkdiyi yemişlərə nəzər salan kəndli çardağın altında uzanıb yelpiklə özünü yelləyirdi. Sərçələr dəstə-dəstə o şalbandan bu şalbanın üstünə uçuşurdular. Xırda balıqçı gəmisi sahildəki söyüdün kölgəsində dayanmışdı.

Çöllükdəki heyvan sürüləri qızmar günəşdən gizlənməyə yer axtarırdılar. Onlar qaçdıqca arxadan toz dumanı qalxırdı.

– Bax oraya! – qıyıqgöz çaqqal qışqırdı.

Bütün heyvanlar özlərini ağacın kölgəsinə çatdırdı və yer üstündə mübahisə başladı.

– Ağaca birinci mən çatdım!

– Yox, mən!

– Hamıdan əvvəl mən gəldim!

– Yox, mən gəldim!

– Düz danışın, mən gəldim!

Aralarında ən balacası olan çöl siçanını sıxışdırıb kənara itələdilər və o özünü ağlamaqdan zorla saxladı.

– Mən idim, hamıdan əvvəl ağaca çatan mən idim!

Əslində, ona heç ağac da demək olmazdı: tamam qurumuşdu, salamat qalan bir-iki budağı da bir neçə saralmış yarpaqdan ibarət idi. O biri budaqları çubuqdan başqa bir şey deyildi. Örtüksüz çətir kimiydi.

Mübahisə get-gedə davaya çevrildi. Çöl siçanı qorxub kənara çəkildi və zarıya-zarıya:

– Dalaşmayın! Davanı saxlayın! – dedi.

Təbii ki, fil hamıdan üstün oldu. Hamı onun üstünə düşüb qışqırışdı:

– Ey, ağaca birinci biz çatmışıq!

Fil hirslənib onlara bağırdı:

– Çıxın gedin, rədd olun buradan! – sonra xortumuyla yerdən aldığı tozu üstlərinə püskürtdü, – Mənə çox isti oldu! Burada səs-küy salıb məni əsəbdən çıxarırsınız!

O biri heyvanların çıxıb getməkdən başqa əlacı qalmadı. Aralarında mübahisə edə-edə bir gözləri fildə idi. Amma az sonra qarınları cırılanacan güldülər. Həmin ağacın altında durmağın nə mənası vardı ki? Fil də qurumuş ağaca baxıb gülməyə başladı.

Bütün heyvanlar ağız-ağıza verib güldükləri vaxt qəflətən gözləri önündə canlanan yaradılışın insani mənzərəsi hamını susmağa vadar etdi. Çöllükdə iki nəfər – ata və oğul yol gedirdi. Hündür və enlikürək atanın kölgəsi oğulu dörd bir yanı bürümüş istidən qoruyurdu. Onlar xoşbəxt halda addımlayırdılar.

Heyvanlar hamısı dinib-danışmadan bu mənzərəni müşahidə edirdi. Onlar qürub tərəfə yol almışdılar. Bir azdan heyvanların gözünə yalnız ata göründü, sonra ikisi də uzaqda qeyb oldular. Sonsuz çöllükdə olan heyvanlar anladılar ki, yollarına davam edə bilməyəcəklər. Bir qədər keçəndən sonra vaşaq çöl siçanına:

– İstəyirsənsə, kölgəmi sənlə bölüşə bilərəm, – dedi.

Siçan onu kölgəsinə sığındı.

Bunu görən çöl iti vaşaqa yaxınlaşdı. Beləcə, bəbir itə, boz ayı bəbirə, kərgədan boz ayıya yaxın dayandı. Fil şəlpə qulaqlarını tərpədib kərgədana yaxın gəldi. Ceyran da qaçıb gəldi və siçanın yanında dayanıb durdu.

Günəş öz işində idi – yandırıb-yaxırdı.

Göy üzündən, heyvanların başı üstündən bir bulud üzüb keçdi.

Bir müddətdən sonra bulud qayıdıb onların başı üstündə dayandı.

Şi Nan
Çin uşaq kitabları nəşriyyatı

YUY QUN DAĞLARI YERİNDƏN OYNATDI

Müharibələrin tüğyan etdiyi dövrlərdə xeyli sayda təmsil yazmış Li Tszı adlı bir mütəfəkkir yaşayırdı. Onlardan da biri hərfi mənada "səfeh qoca dağları yerindən oynatdı" mövzusunda olan Yuy Qun və Şan idi. Təmsildə deyilirdi ki, keçmiş əyyamlarda Yuy Qun adlı bir qoca yaşayırdı. Yaşı doxsanı adlasa da, top kimiydi. Övladlardan və nəvələrdən ibarət böyük bir ailəsi var idi. Kişilər təsərrüfatlarda çalışır, arvadlar isə ev işləriylə məşğul olurdular. Dolanışıqlarından şikayətləri yox idi.

Amma bir məsələ Yuy Qunu narahat edirdi. Onun şəcərəsi artıq uzun dövrlər idi ki, dağ döşündə məskən salmışdı. Evlərinin qarşısında iki vüqarlı, əzəmətli Tayxan və Vanvu dağları dayanmışdı. Hər dəfə evdən vacib iş üçün harasa gedəndə dağdan enmək və dağa qalxmaq kimi çox çətin bir yol qət etməli olurdular ki, bu da narahatlıq yaradırdı.

Yuy Qun bir gün belə bir şey fikirləşdi: "Əlbəttə, mən daha qocayam, vaxtıma az qalıb, amma törəmələrim bu dağlarda ömür sürəcəklər. Gərək birtəhər onları yerlərindən tərpədəm". Odur ki məsləhətləşmək üçün bütün ailə üzvlərini bir yerə yığıb razılığını aldı. Yalnız Yuy Qunun arvadında bəzi tərəddüdlər yarandı. Arvadı:

– Bəs daşları hara ataq? – soruşdu.

Yuy Qun cavab verdi:

– Biz daşları Boxay dənizinin sahillərinə daşıya bilərik.

Səhər gün bütün ailə üzvləri ilə birlikdə dağdakı daşları dartıb çıxarmağa başladılar, kişilər öküzlərin və camaatın köməyi ilə iri daşları bir-bir çıxarıb arabalara yükləyir və dənizin sahilinə daşıyırdılar. Qadınlar və uşaqlar onları yemək-içməklə təmin edirdilər.

Dul qonşu qadının süd dişlərini yenicə dəyişmiş cəmi altı-yeddi yaşlı oğlu da hər gün köməyə gəlirdi.

Dağ yolu kələ-kötür olduğundan daşları dəniz sahilinə daşımaq həm üzücü, həm də xeyli vaxt aparan iş idi. Odur ki Yuy Qun və köməkçiləri o yolu çox gedib-gəlməmək üçün başacan yüklənirdilər.

Həmin dövrlərdə çay qırağında Cji Su adlı bir müdrik yaşayırdı. O bütün bu mənzərəni maraqla izləyib bunu dəlilik hesab edirdi. Odur ki Yuy Qunun ailəsini bu sevdadan əl çəkməyə razı salmaq istəyirdi.

Bir gün dözməyib Yuy Quna dedi:

– Sən çox qocalmısan, ağlın da özün kimi qocalıb. Sən yaşda adam üçün iki əzəmətli dağdan daş nədir, ot çıxarmaq belə müşkül məsələdir. Sən bu boyda işin altına hansı ağılla girmisən?

Müdrikin sözlərinə cavabında Yuy Qun yorulmadan işləyən adamları göstərib:

– Sən özünə elə qapılmısan ki, adi şeyləri də görmürsən, – dedi. – Özün də bilirsən ki, mən ölsəm də, oğlanlarım qalacaq, oğlanlarımın oğlanları qalacaq... Bu zəncirin sonu yoxdur. Dağlar axı boy atmır, vaxt gələcək, yerlə bir olacaq.

Cji Su nə cavab verəcəyini bilməyib, başını bulamaqla kifayətləndi və getdi.

Yuy Qunun ailəsi isə dağ daşlarının çıxarmağa davam edirdi. Yorulanda dincəlmək üçün qazdıqları çalada oturub hamar yolun get-gedə uzandığını hiss edib məmnun qalırdılar.

Bir gün dağların tanrısı səyahət zamanı Yuy Qunun dağları yerindən oynatdığını eşidib Tayxan və Vanvunun, həqiqətən



də, nə vaxtsa yerlə bir olacağından narahatlıq keçirdi, odur ki dərhal göylərin sahibinə bu barədə məlumat verdi.

Yuy Qunun öz əqidəsinə sadiqliyindən təsirlənən göylərin sahibi Kuas qəbiləsindən olan iki titana – Yuy Quna kömək etməyi tapşırdı. Titanlardan biri Tayxanı belində, o biri Vanvunu əlində bu dağlar üçün ayrılmış yerə gətirdi. O vaxtdan Yuy Qunun ailəsi və camaat üçün dağlar maneəsi olmadı, hər istiqamətə hamar yollar uzandı. Camaat dağın döşündə yaşadıqları vaxtdan fərqli olaraq özlərini daha rahat hiss etdilər.

DOST QARDAŞLAR

Qədim əyyamlarda bir kənddə iki qardaş və onların dul anası yaşayırdı. Qardaşlar bir-birilərilə yaxşı yola gedir və birlikdə təsərrüfatda çalışırdılar. İşin necəliyindən asılı olmayaraq yumruq kimi birləşirdilər – aralarından su da keçməzdi. Kənddə hamı onlara "dost qardaşlar" deyirdi.

Bir müddətdən sonra böyük qardaş evləndi və bir oğlu, bir qızı dünyaya gəldi. Balaca da ürəyincə olan bir qızla ailə qurdu. Amma az sonra ana vəfat etdi və qardaşlar ayrı yaşamalı oldular. Bir gün aralarında mübahisə yarandı. Balaca böyüyə dedi:

– Qardaş, sən məndən böyüksən, ailən də böyükdür, mirasın çox hissəsi sənə düşməlidir.

Böyük razılaşmadı:

– Yox, qardaş, sən hələ təzə-təzə ayaq üstə durursan, özünə gün-güzəran qurmalısan, ev üçün təzə əşyalar almalısan. Sənə daha çox lazım olacaq.

Hər qardaş anadan qalan mirasın çox hissəsinin o birinə düşdüyünü israr edib, axırda onu bərabər bölməyə razılaşdılar.

Bir il sonra yenidən yaz gəldi. Qardaşlar sübh tezdən tarlaya gedir, axşamacan işləyirdi. Hər qardaş o birini fikirləşirdi: "Yaxşı məhsul götürməliyik ki, balaca qardaşım qayğılardan azad olasan". "Yaxşı məhsul götürməliyik ki, böyük qardaşımın qayğısına qala bilim".

Hər iki qardaş həmişə özlərini unudub bir-birinə can yandırırdı. Hər səhər tarlada əziyyəti də biri o birinin xətrini xoş eləmək üçün çəkirdi. Yazda qardaşlar birlikdə düyü əkib, yayda birlikdə alaqları təmizləyirdilər. Onların işi düzgün qurması və zəhməti müqabilində düyü tez əmələ gəlirdi. Nəhayət, payız fəsli gələndə qardaşlar tarladan bol məhsul götürürdülər və üzləri payız səması kimi xoşbəxtlikdən par-par yanırdı.

Və onlar düyünün üstündə yenidən mübahisə etdilər:

"Sən iki uşaq böyüdürsən, qardaş. Gərək düyünün çoxu sənə qalsın".

"Yox, qardaş, sən təzə ailə qurmusan, çoxu sənin olmalıdır".

Nəhayət, qardaşlar məhsulu qardaş malı kimi böldülər. Amma gecənin bir aləmində böyük qardaş öz düyü payından bir torba götürüb gizlicə qardaşının payına qatdı. Balaca qardaş da böyüyün külfət sahibi olduğunu düşünüb gecənin bir aləmi öz düyü payından bir torba götürüb gizlicə qardaşının payına qatdı. Ay bütün bunlara təbəssümlə baxırdı.

Səhəri gün böyük qardaş karıxmış halda öz payına baxdı. Ona qəribə gəldi ki, öz payından bir torba aparıb qardaşının payına qatsa da, deyəsən, payı elə əvvəlki kimi qalıb. Öz-özünə fikirləşdi: "Nəsə, çox qəribədir. Dəqiq bilirəm ki, bir torba buradan götürmüşəm. Bəs onda necə olur ki, düyü elə əvvəlki həcmində qalıb. Bu gecə yenə bir torba aparıb qardaşımın payına qatacağam".

Balaca qardaş da öz məhsul payına təəccüblə baxdı.

Həmin gecə böyük qardaş yeni öz payından bir torba düyünü aparıb qardaşının məhsuluna qatdı və qardaşı da eyni hərəkəti təkrarladı. Sübh tezlən yenə eyni vəziyyət hər iki qardaşı heyrətləndirdi. Gecələr nə baş verir, görən?

Nəhayət, üçüncü gecə qardaşlar nə baş verdiyini anladılar. Onlar düyü torbalarının yanında baş-başa gəldilər.

– Kimdir burada? Hə, bu sənsən, əziz qardaşım, – balaca qardaş dilləndi, – çox sağ ol.

– Sən də sağ ol, əziz qardaşım, – böyük qardaş cavab verdi.

Hər iki qardaş bu anın gözəlliyindən xoşhal olub bir-birini qucaqladı və gözləri doldu. Həmin gündən sonra da qardaşlar hər şeylərini bərabər bölüb birlikdə xoşbəxt həyat sürdülər.

XINBU VƏ NOLBU ADLI İKİ QARDAŞIN RƏVAYƏTİ

Qədim əyyamlarda Koreyada Xınbu və Nolbu adlı iki qardaş yaşayırdı. Nolbu çox qəddar idi, hər imkanda balaca qardaşı Nolbuya sataşmaqdan həzz alırdı.

Ataları ölən gün Nolbu Xınbunu ailəsi ilə birlikdə evdən qovdu. Xınbunun külfətini yanına salıb kənddən uzaq bir yerdə sınıq-salxaq damlı köhnə komada məskunlaşmaqdan başqa çarəsi qalmadı.

Pul-paraları az olduğundan bir müddət sonra Xınbunun ailəsi aclıq çəkdi. Başqa çıxış yolu qalmadığından böyük qardaşı Nolbuya yardım üçün pənah apardı. Amma Nolbu qardaşını yaxın qoymadı. Bununla belə, onda tamahkar qardaşına qarşı heç bir qəzəb, nifrət hissi yox idi.

Soyuq qış keçib yerini yaza verdi. Bir cüt qaranquş Xınbunun damı üstündə yuva qurub yumurta qoydu. Xınbu qaranquş balalarının necə böyüməsinə baxmağı xoşlayırdı.

Bir gün balalardan birinin yerə düşdüyunü gördü. Dərhal quşun qayğısına qalıb əzilmiş pəncəsini sağaltdı. Beləcə, bir qış da ötüb-keçdi, yaz gəldi. Ana qaranquş bu xeyirxahlığına görə haradansa tapdığı üç balqabaq toxumunu dimdiyində gətirib Xınbuya verdi.

Xınbu toxumu əkdi və onlar tez bir zamanda əmələ gəlib çox iri balqabaqlar oldular. Bir payız günü ailəsi balqabaqlardan

birini kəsəndə sanki partlayış səsi gəldi və içindən ləl-cəvahirat dolu xəzinə çıxdı. İkinci balqabağın içindən bənnalar, dərzilər, üçüncü balqabağın içindən isə düyü ilə dolu sehrli sandıq çıxdı. Belə ki, düyü nə qədər çıxarılıb torpağa səpilsə də, sandıq həmişə dolu qalırdı.

Beləcə, Xınbunun ailəsi varlandı. Bunu eşidən Nolbu qardaşına paxıllıqdan gecələr yata bilmirdi. Nolbu qaranquş yuvasını dağıtmaq qərarına gəldi. Bu zaman yerə düşən qaranquşun balasının ayağı qırıldı. Nolbu quş balasını ipək parçaya büküb düşündü ki, bu qayğısının əvəzini qaranquş mütləq artıqlaması ilə qaytaracaq.

Növbəti ilin yazında qaranquş Nolbuya balqabaq toxumu gətirdi. Nolbu əkdiyi toxumun səhər-axşam qayğısına qaldı ki, balqabaq iri olsun. Nəhayət, gözlənilən gün gəlib çatdı və balqabaq dərilmək üçün yetişdi. Nolbu və arvadı güman edirdi ki,



kəsib açanda balqabağın içini ləl-cəvahiratla dolu görəcəklər. Amma balqabaq sanki partlayış səsi ilə açılanda içindən ləl-cəvahirat əvəzinə dokkebişlər adlanan nəhəng varlıqlar çıxıb Nolbuya və arvadına hücum etdilər, onlar qaçıb aradan çıxanacan evlərini dağıdıb daş-daş üstə qoymadılar.

Bu xəbəri eşidən Xınbu çox pis oldu, həyəcanla qardaşının evinə qaçıb:

– Böyük qardaşım, mənim evimə gəlib bizimlə birlikdə yaşaya bilərsən, – dedi, – qapım üzünə açıqdır.

Nolbu səhvini başa düşüb elədiklərinə görə özünü qınadı və bu saf qəlbinə görə ölənəcən qardaşına minnətdar oldu.

Bermet Bekeşovna Alımbayeva

LEYLƏK

– Babacan, mən bu gün sahildə ağ leylək gördüm. Uzun ayaqları var idi, özü də çox böyük, gözəl idi, suyun üstüylə elə rahat gəzirdi ki... Babacan, məgər leyləklər soyuq suda donmur? – nəvəsi Jasmin nəfəsini dərmədən danışırdı.

– Bu əzəmətli ağ quş hamıya lap uşaqlıqdan tanışdır. Biz leyləyə qırğız dilində "ilegilek" deyirik. Sən bu adı yadda saxlamalısan.

– Babacan, sizdən bir şey soruşmaq olar?

– Əlbəttə, mənim şirin nəvəm, soruş.

– Niyə axı, böyüklər həmişə deyirlər ki, uşaqları leylək səbətdə gətirir. Bəyəm onlar uşaqları haradansa oğurlayırlar? Bəlkə, uşaq yetişdirən zavodlar var? Bir cizgi filminə baxanda gördüm ki, uşaq istəyənlər məktub yazır, leylək də balaca uşağı onlara gətirir. Babacan, bəlkə, məktub yazsam, bizə də qəşəng bir oğlan gətirər?

Baba nəvəsinin sözlərinə gülüb:

– Yox, mənim ürəyim, leylək körpələri oğurlamır, uşaq yetişdirən zavod-zad da yoxdur.

– Bəs onda leyləklər uşaqları haradan gətirir? Onda mənə leylək haqqında nağıl danışın.

Baba fikirləşdi və nə vaxtsa öz övladlarına danışdığı nağıllar yadına düşdü.

– Qaç bacılarını çağır, sizə sehrli leylək haqqında nağıl danışacağam.

Jasmin çölə qaçıb Nurel, Adelina və Armuzatı çağırdı. Onlar babalarının yanında yerlərini rahatladılar.

– Mənim balaca balalarım, diqqətlə nağıla qulaq asın. Qədim əyyamlarda qar kimi ağappaq sehrli bir leylək var idi. O bütün quşların arasında ən gözəli idi. Gölün yanında, insanlardan çox uzaq olmayan bir yerdə, hündür qovaq ağacının üstündə yuva qurmuşdu. İnsanlar bundan narahatlıq keçirmirdilər, əksinə, leyləyin evlərə yaxın yerdə yuva qurması yaxşı əlamət sayılırdı. İnsanlar bu əzəmətli quşları çox sevir və onların uğur gətirdiklərinə inanırdılar.

Leyləklər siçan, siçovul, köstəbək, başqa gəmiricilər, həmçinin qurbağa, balıq və ilbizlərlə qidalanır, bəzən isə ördəkləri, toyuqları, dovşan balalarını ovlayırlar.

– Ay baba, bəs səsləri neçə çıxır? – Nurel soruşdu.

– Onların səsi olmur, çünki quşlardakı səs əzələlərindən məhrumdurlar. Məsələn, ağ leylək qışqırmaq istəyəndə dimdiyini sıxır, ya da bir-birinə vurur. Qara leylək isə nadir hallarda dimdiyini tərpədir, səsi də öskürək, ya da hıçqırtı səsinə oxşayır. Amma leylək balaları cırcırama, fısıltı və boğaz səsləri çıxarmağı bacarır.

Hə, mənim balalarım, bu sehrli leylək hər axşam bütün evlərin üzərindən uçub pəncərələrinə baxırdı. Özü də yalnız məhəbbət və hörmət içində yaşayan, çalışqan övladlarıyla qürur duyan valideynlərin xoş ovqatlı evlərinə nəzər salırdı. Belə evlərdə həmişə işığın cazibəli, parlaq şüaları bərq vururdu. Onda leylək bu şüanı dimdiyinə alıb uçurdu. Körpəyə çevrilənə qədər bu balaca şüanın qayğısına qalır, onu böyüdürdü. Sonra körpəni həmin şüanın yiyəsi olan evə gətirirdi.

Leylək belə ünvanlardan birinə ilk dəfə necə körpə gətirdiyini xatırladı. O bələyi ehtiyatla dimdiyinə alıb uçdu. Gəlib çatanda dimdiyi ilə pəncərəni taqqıldatdı. Qaçıb gələn ər-arvad tələsik pəncərəni açıb əllərini bələyə uzatdılar. Qadın böyük

sevinc içində körpəni bağrına basdı, sonra masanın üstünə qoyub səliqə ilə bələyi açdı və ərinə gülümsəyib:

– Ax, necə də balacadır, gözəldir, baxmaqla doymaq olmur, – dedi. – Biz necə də xoşbəxtik!

Onlar sevincək halda körpəni bütün doğmalarına göstərib sonra onun şərəfinə böyük ziyafət təşkil etdilər.

Leylək bu valideynlərin xoşbəxt simalarına baxanda, əmin olurdu ki, çox xeyirli işlə məşğuldur. Və sonra yenidən yaxşı insanlara övlad payı gətirirdi.

– Ay baba, mən Yasiminlə birlikdə leyləyi gördüm. Deməli, əgər bir-birimizə qulaq assaq, bir-birimizi incitməsək, zəhmətkeş olsaq, leylək bizə də uşaq gətirəcək.

– Hə, əlbəttə, mənim şirin nəvəm. Əgər sən böyüklərə qulaq assan, böyük bacına balacaların qayğısına qalanda kömək dursan, leylək mütləq sizin evinizə də körpə uşaq gətirəcək.

– Yaxşı, baba, mən atama, anama, bacıma qulaq asacağam. Təki leylək bizə oğlan gətirsin. Onunla doyunca oynayaram. Atam mənə velosiped söz verib – sürməyə ona da verərəm.

– Ürəyim, mənim. Qoy bütün arzuların gerçək olsun.

Nəslimin davamçıları siz balacalarsınız... İndi də ardına qulaq asın. Beləliklə, leylək hər gün uçub ən çox övlad istəyən evlərə uşaq gətirirdi. Bu yükünü nəvazişlə daşıyırdı. Əsas məsələ yolda küləyə, yağışa düşüb körpəni soyuğa vermədən, ən əsası, dimdiyindən salmadan təyinat yerinə çatdırmaq idi.

Nurel yenidən soruşdu:

– Ay baba, bəs bu leyləklər uşaqlarla necə dil tapır?

– Tələsmə, bala, qulaq as. Deməli, leylək gecələr pəncərəsinə uşaq qoyduğu evlərə gəlib kənardan onun necə böyüməsinə tamaşa edə-edə havadaca ayaqlarını yelləyirdi. Öz uşaqlarını sevən valideynləri görəndə onlarla birgə sevinir, övladlarını sevməyib, onlarla pis rəftar edən valideynləri görəndə isə uşağı alıb aparırdı.

– Hə, babacan, valideynlərimizə qulaq asıb kömək etsək, leylək öz dimdiyində bizə də balaca oğlan gətirəcək, qardaşımıza yaxşı baxandan sonra da alıb aparmayacaq, hə?

– Hə, mənim doğmalarım, əgər böyüklərin sözünə qulaq assanız, arzunuz mütləq yerinə yetəcək.

Jasmin:

– Onda gəlin anamıza, atamıza kömək edək.

Uşaqlar sevinə-sevinə evi səliqəyə saldılar – biri döşəməni sildi, o biriləri həyəti süpürdü. Sıdık baba zəhmətkeş nəvələrinə razılıqla baxa-baxa ayağa qalxdı.

O biri il bacıların qardaşı dünyaya gəldi. Həmin gün Sıdık babanın nəvələri necə də sevincli idilər. Balaca nəvə Armuzat:

– Babacan, gördün, leylək bizə oğlan gətirdi, – dedi. – Deməli, bütün ili bir-birimizin sözünə qulaq asıb, hər tapşırılan işi eləmişik, ata-anamızı incitməmişik.

Sıdık baba təbəssümlə:

– Afərin sizə, mənim şirin nəvələrim, – dedi.

QARANQUŞ

– Babacan, bilirsiniz nə gördüm? – sevinc içində olan Adelina qaça-qaça gəldi. – Sarayımızın damında qaranquş özünə yuva qurur. Baxmaq istəyirsiniz?

Baba:

– Lap yaxşı, gedək baxaq, – deyib, qaranquş yuvasını görmək üçün nəvəsi ilə saraya tərəf getdi.

Nəvə qabağa düşüb qaça-qaça:

– Buradadır, babacan, buradadır, – deyib, əliylə qaranquşları göstərdi. – Bir baxın, onların yuvası da bizim evimiz kimi gildəndir. Niyə axı onlar o biri quşlar kimi çör-çöpdən yox, gildən yuva qururlar?

– Deməli, günəşim mənim, qaranquş belə istəyir. Axı gil külək buraxmır, onun içində balalarına rahat və isti olacaq. Onlara bir bax, əzizim, səhərdən -axşamacan bax belə yorulmaq bilmədən işləyirlər. Onlar damın altına öz tüpürcəkləri ilə yaşlanmış palçıq topaları, çör-çöp gətirib yuva qururlar.

Bayəmir:

– Babacan, onlar bu balaca dimdikləri ilə o boyda gili necə gətirə bilirlər? – soruşdu.

– Çünki çox zəhmətkeşdirlər. İnsanlar da qaranquşları məhz belə zəhmətkeş və düşərli quş olduqlarına görə sevirlər. Qaranquş xeyrin, xoşbəxtliyin, uğurun, rahatlığın müjdəçisidir. Xalqın gözündə bu quş xeyirxahlıq, mehribanlıq mücəssəməsidir. Başqa cür necə ola bilər ki? Ən azı o, baharın, günəşli günlərin rəmzidir. Əgər evin damında qaranquş yuva qurubsa, bu,

xoş əlamətdir. Hamı bilir ki, qaranquşlar yalnız əmin-amanlığın hökm sürdüyü evlərdə yuva qurub məskunlaşırlar. Deməli, bizim evdə də xoşbəxtlik və firavanlıq olacaq.

Bayəmir:

– Mən də yaxşı oğlan olacağam ki, evimdə qaranquş yuva qursun, – dedi.

– Mən də, mən də yaxşı qız olacağam, görərsiniz. Qaranquşlarım təkcə mənim evimdə bax bu qədər, bu qədər yuva quracaqlar, – Adelina balaca barmaqlarıyla saya-saya dedi.

Baba bir-bir başlarını sığallayıb:

– Hə, mənim gözəl nəvələrim, hamınız arzusu gerçək olacaq, – dedi.

– Xalqın inanclarına görə, insanlar paltar tikməyi hörümçəkdən, ev tikməyi qaranquşdan öyrəniblər. Qaranquş yuvasını dağıtmaq günahdır, heç vaxt belə bir iş tutmayın.

Nəvələr bir ağızdan:

– Əlbəttə, babacan, bildik, – dedilər.

– Quşlar arasında məğrurluğuna görə qaranquş yalnız ağ leyləklə müqayisə oluna bilər. Göyərçin, qaranquş Tanrının sevdiyi quşlardır. Bir çox xalqlarda belə bir inam var ki, qaranquş yuvası evi ildırımdan, yanğından qoruyur. O, müqəddəs quş kimi tanınır. Qaranquş təbiət etibarilə gündüzlərin quşudur. O bu vədələrdə uçub özünə yem axtarır. Onlar əvəzolunmaz dərəcədə çevikdirlər, havada min oyundan çıxırlar. Odur ki hansısa bir ilbizi, ya balığı ovlamaq bu quşlar üçün adi bir şeydir.

Qaranquşlar zəngin sərçəkimilər fəsiləsinin seçilmiş üzvlərindərdir. Onlar həyatlarının çox hissəsini havada qanad çalmaqla keçirir, nadir hallarda yerə qonurlar. Üstəlik, onlar havada olarkən həm yeyə, həm də içə bilirlər.

– Havada? – Möltüp təəccüblə soruşdu. – Havada neçə su içmək olar?

– Çox asan. Nohura enib dimdikləriylə aldıqları suyu içirlər, hətta havada yata da bilirlər. Yerdə gəzərkən yöndəmsiz və həvəssiz görünürlər. Qaranquşlar köçəri quşlardır. Hər il məs-

kunlaşdıqları yerdən qışlamaq üçün isti ölkələrə uçur, sonra qayıdırlar. Əgər bu quşlar sizə belə maraqlı gəldisə, hamınız rahat oturun, sizə qaranquşlar haqqında bir nağıl danışım.

Hə, qədim əyyamlarda iki qardaş var idi. Comərd adlı böyük qardaş çox təmkinli, xeyirxah insan idi. Kasıb yaşasa da, övladları onu var-dövləti idi. Balaca, kasıb daxmaya hamısı güclə yerləşirdi. Bu balaca alaçıqda aclıq və darısqallıq hökm sürsə də, çox möhkəm və zəhmətkeş bir ailə yaşayırdı. Bütün gün yorulmaq bilmədən işləyir, qazandıqlarını axşam bərabər bölürdülər.

Bitirbəy adlı balaca qardaş isə çox varlı və qəddar insan idi. Heç vaxt kiməsə yaxşılıq etməzdi.

Qış getdi və yenidən çoxdan gözlənilən bahar gəldi. Tarlaya buğda səpməyin vaxtı çatsa da, comərdin heç nəyi yox idi. Və o, əkin üçün bir azca buğda istəmək xahişi ilə varlı balaca qardaşının yanına getmək qərarına gəldi. Bitirbiy böyük qardaşını görən kimi məsələnin nə yerdə olduğunu başa düşdü. Odur ki dərhal üstünə çımxırdı:

– Eyib deyil sənə, balaca qardaşına əl açırsan, – dedi. – Mənim heç nəyim yoxdur. Sənə bir buğda da verməyəcəyəm.

Böyük qardaş balacaya artıq bir kəlmə demədən kor-peşman evinə qayıtdı. Arvadı ərinin əliboş gəldiyini görüb ürək-dirək verdi:

– Qəm eləmə, Allah bizə də yetirər, biz də yaxşı dolanarıq.

Günlər beləcə ötüb-keçirdi. Bir gün böyük qardaş evinin qabağında fikirli-fikirli oturmuşdu. Qəflətən gördü ki, qaranquş onun evi üstündə qanad çalıb, sonra damının atında yuva qurmağa başladı. Quş səhərdən-axşamacan dimdiyi ilə yerdən palçıq topaları, çör-çöplər yığıb tüpürcəkləri ilə qarışdırdıqdan sonra yuva hörürdü.

Comərd soruşdu:

– Sən axı nəyə görə özünə yuvanı mənim bu kasıb komamda qurursan? Bu koma axı sənin yuvanı soyuq küləkdən qoruya bilməyəcək, həm də mənim həyətimdə yeməyə də bir şey tapmayacaqsan.

Amma qaranquş yuvasını qurdu, balalarını da çıxardı. Balaları böyüyür, qaranquş onlara yorulmadan yem tapıb gətirir və şən əhvalda olurdu.

Bir gün haradansa peyda olan bir ilan fısıldaya-fısıldaya qaranquş balalarını yemək üçün yuvaya tərəf süründü. Dərhal özünü yetirən qaranquş bərkdən civildəyib ilanın başını dimdiklədi. İlan balanı udmaq üçün qıvrıldı və bu zaman qaranquş kənara sıçradı və quyruğunun lələkləri ilanın ağzında qaldı. O vaxtdan qaranquşlar bu qiyafədədir. Hə, bu vaxt Comərd səs eşidib nə baş verdiyini öyrənmək üçün qaçıb gəldi. Öz balalarını düşməndən qoruyan qaranquşu görüb ilanı hədəf aldı. Əlindəki taxtayla ilanı elə vurdu ki, o, aldığı ağır zərbədən kolluğa düşüb birtəhər sürünə-sürünə canını qurtardı. Beləcə, qaranquşların balaları Comərdin əliylə xilas olundu. Ana qaranquş minnətdarlıq əlaməti olaraq Comərdin evi üzərində dövrə vurdu və mavi səmada qeyd oldu. Axşamüstü qəflətən qaranquşlar peyda olub quş səsiylə şən mahnılarını oxuyub hərəsi Comərdin ayağı altına nəsə tulladı. Böyük qardaş təəccüblə baxıb gördü ki, bunlar sünbül, balqabaq, lobya toxumlarıdır. Sevinc içində toxumları aparıb tarlada əkdi. Yazda və yayda bütün ailəsi yorulmadan tarlada çalışdı. Əslində, onlar işləməyi xoşlayır, bir an belə bekar qalanda darıxırdılar. Payızda çox yaxşı məhsul oldu. Sünbül toxumunun yarısını gələn mövsümə saxlamışdılar. Bütün qışı isti çörək süfrələrindən əskik olmadı. Artıq ailənin heç nəyə ehtiyacı yox idi. Böyük qardaş bütün kasıblara da yardım edirdi.

Bunu görən balaca qardaşın tamahdan və paxıllıqdan gecələr yuxusu ərşə çəkildi. Onun hiyləgər arvadı isə bir gün böyük qardaşın evinə qonaq gəlib fürsət tapan kimi arvadından soruşdu:

– Necə oldu ki, birdən-birə belə varlandınız? Nədir, qızıl küpü tapdınız?

Böyük qardaşın arvadı heç nəyi gizlətmədən hər şeyi danışdı. Bunu eşidəndə ər-arvad paxıllıqdan yuvanı dağıdıb qaranquşları öldürmək qərarına gəldilər. Onlar böyük qardaşa qarğışlar yağdırdılar.



Amma atalar demişkən, qarğış onu eləyəni tutar. Elə də oldu. Bütün bəd niyyətləri özlərinə qayıtdı. Bir gün balaca qardaşın tarlasında yanğın baş verdi və bütün taxılı kül oldu. Bir adama da – nə yaxına, nə uzağa əl uzatmadıqları üçün köməyə gələn olmadı. Tamahkar kişiylə əzazil arvad yanğının öhdəsindən tək-başına gələ bilmədi. Beləcə, əlləri boş qaldı.

İndi bildinizmi, mənim balalarım, gərək insanlara yaxşılıq edəsən, əl uzadasan. Yaxşılıq edərsən, yaxşılıq görərsən, dünyamız yaxşılıq üçün yaranıb. Elə Comərdin nümunəsində də bunu gördük. Onları insanlara yaxşılıq edə-edə, gecə-gündüz çalışa-çalışa özlərinə xoşbəxt həyat qurdular. Odur ki istəyirəm, mənim nəvələrim də belə zəhmətkeş olunlar, işləməkdən həzz alsınlar. Yalnız bu halda sizdən arxayın olaram. Bilərəm ki, mən belə sağlam, zəhmətkeş balaların babasıyam.

AĞ MADYANIN AĞ DAYÇASI VAR İDİ

Ağ madyan ilxıda olan madyanlarla və boz erkək atla günlərini keçirirdi. Bahar gələndə nədənsə quraqlıq düşdü, yem sarıdan qıtlıq yarandı.

– Buradan getmək lazımdır, – ağ madyan boz erkəyə dedi və ilxı doğma otlaqları tərk etdi.

Atlar düz üç il yem axtarışı ilə hər tərəfi gəzdilər. Nəhayət, dadlı otları, saf suyu, böyük yaşlılığı olan bir örüş tapıb burada da məskən saldılar. Bir gün çayın sahilində özlərini günə verəndə yeddi qaz yumurtası ayaqlarının altında qalıb əzildi.

– Vəziyyət xarabdır, – ağ madyan dedi, – buradan getmək lazımdır. Biz yad örüşə gəlib, üstəlik, yumurtaları da əzmişik. İndi quşlar bizdən qisas alacaqlar. Səhər tezdən quşlar qoşunla uçub gəlib bizi məhv edəcəklər. Gəlin doğma yerlərə qayıdaq!

Amma atlar ona qulaq asmadılar.

Səhəri gün doğrudan da, quşlar qoşun kimi hücum çəkib bütün atları tələf etdilər, yalnız ağ madyanla, dayçası salamat qaldı. Çünki quşlar hücum çəkəndə ana öz balasını qorumaq üçün onu bütün bədəniylə gizlətmişdi.

Ağ madyan dayçaya:

– Hə, oğlum, indi öz doğma örüşümüzə gedə bilərik, – dedi.

Nağıl dili yüyrək olar. Onlar bir günə, bir aylıq, bir aya bir illik yolu qət etdilər.

– Ana, ay ana, niyə sənin dərin belə kobudlaşıb? – dayça soruşdu.

– Oğlum, biz aşırımı keçəndə bədənimə qırmızı gilə yapışmışdı.

– Ana, ay ana, bəs ayaqların niyə belə əsir?

– Yorğunluqdandır, oğlum. Çox yol gəldik, üzüb çaylar keçdik.

Nəhayət, ana oğlunu doğma örüşə gətirib, az sonra öldü. Ölümqabağı ağ madyan dayçaya vəsiyyət elədi:

– Oğlum, heç vaxt belini şimal tərəfə yıxıb yatma – oradan çovğun gəlir, canavarlar ova çıxır. Cənub tərəfə uzan – ora sakitlikdir. Alaçıqların kənarından keç, yoxsa bir də görərsən uşaqlar, ya itlər üstünə hücum çəkib. Həm də alaçıq qurulan yerlərdə uzanma, bədəninə iti şeylər bata bilər. İlxıda ancaq kənarda gəz, təkcə su dalınca gedəndə irəli düş. İlxının ən axırında da dayanma, yoxsa çobanın çomağına tuş gələrsən. İlxının ortasında da olma – o biri atlar sıxışdırıb canını alarlar. Üç ildən sonra isə, oğlum, gəl mənim sümüklərimə təzim et!

Amma dayça anasının vəsiyyətinə əməl etmədi: şimal tərəfdə uzandı və az qala çovğunda donacaqdı. Bir dəfə də canavarlardan canını güclə qurtara bildi. Sağa-sola qaçdı, qaçdı, ağladı, ağladı və anladı: "Gör bir anam mənə nə ağıllı məsləhətlər veribmiş!" Və bundan sonra cənub tərəfdə uzandı – bura sakitlik idi.

Anasının o biri vəsiyyətini unudan ağ dayça dəfələrlə alaçıqlar qurulan tərəflərə gəldi. Hər dəfə də itlərin, uşaqların hücumuna məruz qalıb dişləndi, çubuqla döyüldü. Dayça acı göz yaşları axıdıb düşündü: "Ah, anam mənə qızıl kimi sözlər demişdi". Və dayça bundan sonra alaçıqlara yaxın getmədi.

Anası şəlaləyə qaçanda da ilxıda hamıdan əvvələ düşməyi vəsiyyət etmişdi ki, təmiz su içə bilsin. Dayça isə arxada gəlib çobanın çomağına tuş gəlir, bulanıq su içirdi.

Odur ki kənarda gəzməyə başladı. İndi nə çobanın çomağına tuş gəlirdi, nə də ilxıdakı atların təpiyinə – təmiz sudan içib, sütül otlarla yemlənirdi. Birdən-birə həyat gözündə gözəlləşmişdi:



“Anamın müdrik məsləhətləri gör bir necə karıma gəldi” – deyə düşündü.

Düz üç ildən sonra anasının sümüklərinə təzim etməyə gəldi. Həmin yerdə sıx, sulu otlar bitmişdi. Doyunca yeyib qarnını doyurandan sonra getdi:

Yolda Marşenxu adlı gənc bir oğlanla rastlaşdı.

– Mənim atım olarsanmı? – oğlan soruşdu.

– Olaram, amma bir şərtim var, – dedi. – İndi mən ayaqlarımla toz-dumanı ərşə qaldıracağam, bu boş çöllüklərdən yel kimi qaçıb keçəcəyəm, əgər belimdə qala bilməsən, səndən mənə yar olmaz!

At nə hoqqalardan çıxsa da, Erxiy Merşenxanın tükü də tərpənmədi, belində daş kimi oturub qaldı.

Beləcə, cavan oğlan öz atına, at da sahibinə qovuşdu.

PƏHLƏVAN QUNAN

Bir xanlıqda kasıb çoban arvadıyla ömür sürürdü. Onların bir oğlu dünyaya gəldi və adını Qunan qoydular. Cəmi bir gündən sonra uşaq artıq bələyə yerləşmədi, ikinci gün artıq iki bələyə də yerləşmədi, beşinci gün beş bələk də azlıq elədi.

Bator bax belə böyüyürdü.

Atası Qunana kürən dayça hədiyyə edib yəhərlədi, sonra ox-yay verib ova göndərdi. Ovdan həmişə əlidolu qayıdırdı – papaq tikmək üçün tülkü dərisi gətirir, atın yəhəri dovşan-dələylə dolu olurdu.

Bir dəfə xan həmin yerlərdən keçəndə camaatın Qunan haqqında dediklərini eşitdi.

– Əsl pəhləvan böyüyür! Gərək xanımız o olsun! Yoxsa indiki xan? Yorğa at kimi ancaq yeyir, heç bir faydası yoxdur.

Xan hirslənib Qunan-Batoru öldürtmək istədi. Çobanın oğlunun yanına gətirilməsini əmr etdi. Qunan hüzuruna çıxanda:

– Eşitdiyimə görə, mənim xanlığımda səndən igidi yoxdur. Həm də eşitmişəm ki, sənin kürən atının qaçmaqda dünyada tayı-bərabəri yoxdur. Cənub tərəflərə yollan, orada yaşayan on-başlı əjdahanı mənim çadırıma gətir.

Qunan cavabında:

– Yaxşı, – dedi, – siz o adamyeyən üçün dərin bir çala qazıb hazırlayın.

Pəhləvan kürən atının belinə qalxıb özüylə çöl heyvanları ovlamaq üçün istifadə olunan yüz arşın uzunluğunda yun kəndir götürüb cənub tərəfə yollandı. Nağıl dili yüyrək olar. Qunan başqalarının bir ilə getdiyi yolu bir aya qət etdi, atı bir aylıq yolu

bir günə getdi. Pəhləvan çöllüklərlə yel kimi uçur, yalnız küləyin səsini eşidirdi. Qəflətən at yolun ortasında dayanıb dinşədi və şahə qalxdı.

Qunan soruşdu:

– Niyə dayandın? Niyə çöllüklərə dinclik verdin?

At da suala sualla cavab verdi:

– Orada uzaqda, göylə yerin birləşdiyi tərəfdə həmin o qara ləkəni görürsən?

Qunan:

– Görürəm, – dedi, – böyük bir dağdır.

– Yox, dağ deyil, heç də dağ deyil. Həmin əjdahadır – onbaşlı adamyeyən Manqusdur – atının belində oturub.

Qunan:

– Onun üstünə cum, – deyib oxunu çıxardı.

– Yox, – atı etiraz etdi, – nə qədər ki o əjdaha atının belindədir, heç kim ona bata bilməz. Gözləmək lazımdır ki, düşsün. Mənə qulaq as, bu yüz arşınlıq kəndiri alıb ağacda gizlən.

Qunan belə də elədi. Kəndiri əlində tutub ağaca çıxdı və nə olacağını gözlədi.

Manqus çöllükdə atın qaçdığını görüb yüyəni çəkdi və atı üçgünlük yolu bir anda keçdi.

Kürən at ağaca tərəf qaçıb yerindən tərpənmədən dayanıb durdu.

Manqus atından düşüb qarnındakı kəməri açdı və onu kürən ata bağlamaq istədi. Elə bu vaxt Qunan kəndiri adamyeyənin üstünə atdı, ağacdan atının belinə tullandı, quru çöllükdə ildırım kimi çapdı.

Qunan-bator atını çapır, Manqus da dalınca sürünürdü.

Az sonra xan alaçığı tərəfdə elə bir guppultu qopdu ki, atlar şahə qalxdı, qoyun-quzular mələşdi, inəklər böyürdü, uzaqdakı dağlar silkələndi.

Xan qorxudan tir-tir əsdi. Qoca vəziri soruşdu:

– Ey uca hökmdar, sənin xanlığında bu səs-küy haradandır?

Xan:

– Zəlzələdir, – cavab verdi, – görmürsən, dağlar necə tərpənir?

Qoca vəzir:

– Yox, – dedi, – Manqusun səsidir, sənin çadırına yaxınlaşan Manqusun!..

Vəzir sözünü deyib qurtarmamış, bir də gördülər ki, Manqus xan çadırının qabağında yıxılıb qalıb. Adamyeyən bu on başıyla dartınır, zarıyıb inildəyir, amma Qunan-batorun kəndiri tutub saxladığı dəmir əlindən çıxa bilmirdi. Manqusu quyu dərinliyində çalaya atdılar. Və xan Qunana dedi:

– Belə bir pəhləvan heç bir xanda yoxdur. Mənim yanımda qalsan, səni varis edərəm. Sənə bir ilxı at, bir sürü mal-qara, dəvə verərəm. Qızımı da sənə verərəm.

Qunan xana belə cavab verdi:

– Xan çadırı yaxşıdır, amma ata yurdu ondan da yaxşıdır. Var-dövlət yaxşıdır, azadlıq isə ondan da yaxşıdır.

Bunu deyib kürən atının belinə qalxdı və valideynlərinin alaçığına getdi.

Beş gündən sonra xanın elçiləri yanına gəlib:

– Xan səni gözləyir, – dedilər, – tez bizimlə gəl!

Qunan kürən atına minib xanın hüzuruna gəldi:

Xan onu görən kimi:

– Mənim səltənətimdə səndən igid pəhləvan yoxdur, – dedi. – Sənin atından da sürətli at bütün dünyada tapılmaz. Böyük İribsın xanın qızını mənə arvad gətirsən, səni öz varisim elan edəcəyəm, əgər gətirə bilməsən, itlərə yem edəcəyəm.

Qunan atını evə sürüb uzaq yol öncəsi valideynləriylə sağollaşmağa getdi. Çoban atası ona yola çıxmağı məsləhət görmədi:

– İribsın xanın səltənətinə gedib çıxa bilməyəcəksən. Yolda qarşına ölü çay çıxacaq. Bu çayı keçmək nə bir ata, nə də bir bəni-adəmə müyəssər olub. Onun suyundan kimin üstünə bir damcı düşərsə, o dəqiqə ölər. Ölü dənizin arxasınca qırmızı dəniz uzanır. O dənizin suyundan kimin üstünə bir damcı düşərsə, diri-diri yanar.

Qunan atasının sözlərindən qorxmayıb, kürən atına mindi və çapdı. Başqalarının bir ilə getdiyi yolu bir ayda, kürən atı isə bir aylıq yolu bir gündə getdi.

Az sonra qarşılarına ölü çay çıxdı. Qunan bir qamış qoparıb suya buraxdı və dərhal saralıb qurudu.

– Hə, atan haqlı çıxdı, – at dedi, – bu çayı keçmək mümkün deyil.

Qunan dilxor oldu. Kürən at ona ürək-dirək verdi:

– Fikir eləmə, böyük qardaşımı çağıraram, bizə kömək edər, – dedi.

– Qardaşın kimdir ki? – Qunan soruşdu.

– Heç kimə deməmişəm, amma sənə deyə bilərəm – çöllük küləyi mənim qardaşımdır.

Kürən at başını şərqə tərəf çevirib bərkdən kişnədi. Külək ölü çaya bir göz qırpımından da tez çatıb kürən atı belindəki atlıyla havaya qaldırıb o biri sahilə atdı.

Yollarına davam etdilər. Başqalarının bir ilə getdiyi yolu bir ayda, kürən at isə bir aylıq yolu bir gündə getdi.

Tezliklə qırmızı dənizin sahilinə çatdılar.

Qunan burada da yerdən bir qamış çıxarıb suya atdı və o, bir göz qırpımında alışıb-yandı.

– Atan yenə haqlı çıxdı, – kürən at dilləndi. – Bu dənizi üzüb-keçə bilməyəcəyik.

Qunan yenə dilxor oldu.

Kürən at yenə başını şərqə tərəf çevirib bu dəfə daha bərkdən kişnədi.

Bir saat keçdi, böyük qardaş gəlmədi, iki saat keçdi, yenə səs-səmir yox idi.

Qəflətən Qunan səmaya baxıb gördü ki, uzaqda qara bulud əmələ gəldi. Həmin bulud üzə-üzə onlara yaxınlaşdıqca gözləri qarşısındaca böyüyürdü.

Kürən at:

– Bu buludu bizə böyük qardaşım göndərib, – dedi.

Düz deyirdi. Qara bulud onların bərabərinə çatanda sahilə endi və qatılaşıb sanki döşəyə çevrildi. Külək buludu səmaya qaldırıb qırmızı dənizin üstündən keçirdi.

Dəniz gözdən itəndə bulud çöllüyə endi və Qunan atıyla yoluna davam etdi. İribsın xanın səltənətinə sübh tezdən varid oldular. Burada xeyli çadır, böyük izdiham var idi.

– Nə bayramdır belə, niyə bu qədər adam toplaşıb? – Qunan soruşdu.

– Çox böyük bayramdır. Bu gün iki pəhləvan yarışacaq: Uamdaqay və Urtu. Hansı qalib gəlsə, İribsın xan qızını ona verəcək.

Qunan xan çadırına tərəf gedib içəri girdi.

İribsın xan qəzəblə?

– Sənə nə lazımdır? – soruşdu.

Qunan cavab verdi:

– Sənin pəhləvanlarınla yarışmaq istəyirəm.

– Hə! – xan heyrətləndi. – Neynək, yarış!

Günorta yarış başlandı. Əvvəlcə nişangaha ox atmalıydılar. Palıddan olan şalbana dəmir iynə sancdılar, oradan geriyə bir aylıq yol qədərində aralanıb atmağa başladılar. İlk əvvəl Uamdaqay nişan aldı. İki gün yayı çəkib, üçüncü gün sübh tezdən oxu nişangaha atdı. Ox iynə deşiyindən bir barmaq sağ qırağa sancıldı. Uamdaqay hirsindən zarıyıb oxunu dizləriylə qırdı.

Urtunun növbəsi çatdı. Dörd gün yayı çəkib, beşinci gün sübh tezdən oxu nişangaha atdı. Ox iynə deşiyindən bir barmaq sol qırağa sancıldı.

Urtu da hirsindən zarıyıb oxunu dizləriylə qırdı.

Bu zaman Qunan atasının hədiyyə etdiyi oxla meydana gəldi. Beş gün yayı çəkib, altıncı gün sübh tezdən oxu nişangaha atdı. Ox düz iynə deşiyinə sancıldı.

Sonra güləş başladı. Uamdaqayla Urtu düz üç gün güləşdilər, gah biri, gah da o biri üstün gəldi. Nəhayət, Urtunun Uamdaqayın belini yerə vurduğu torpaqda beş arşınlıq bir çala əmələ gəldi. Uamdaqay həmin çalanın yan-yörəsiylə özündən razı halda gəzişə-gəzişə:

– Məndən güclü pəhləvan yoxdur, – deyirdi. – Xan gərək qızını mənə versin.

Qunanın səsi gəldi:

– Sənlə gücümü sınamaq istəyirəm. Görüm ayaqların üstə möhkəm dayana bilirsənmi?

Onlar güləşməyə başladılar. Beş gün beş gecə bir-birilərini yerə yıxmağa can atdılar. Qunan ayağını yerə elə vurdu ki,

torpaq çatladı və Uamdaqay çatdan sonra əmələ gələn dərin çalaya yuvarlandı. Onu yarımcan halda saçından yapışıb zorla çıxara bildilər.

Sonuncu oyun günü başlandı.

Sübh tezdən Uamdaqay, Urtu və Qunan atlarını çöllüyə çapdılar. Uamdaqayın altındakı qara, çılğın atın gözlərindən qığılcım çıxırdı. Urtunun altındakı ağ, hikkəli atın baxışlarından alov qalxırdı. Qunanın altındakı qədd-qamətli kürən at isə çox təmkinli idi.

Adamlar Qunana baxıb güldülər.

– Belə atla olsa-olsa qoyun-quzunun dalınca qaça bilərsən!

Cıdır yarışına baxmağa gələn İribsın xan gözəllər gözəli qızı Deçeqi də özüylə gətirmişdi. Deçeq çobanın oğlunu görən kimi bir könüldən min könülə vuruldu və atasına dedi:

– Mən kürən atın sahibinə ərə gedəcəyəm!

Atası qızına qışqırdı:

– Əri sən seçmirsən! Dağa birinci kim çatsa, o da sənin ərin olacaq!

Xan libasının uzun ətəyini yellədi və üç pəhləvan atını dağa tərəf çapdı. Qara at qabaqda, ağ at arxada qaçırdı, kürən at ən geridə idi. Deçeq Qunanın arxada qaldığını görüb acı-acı ağladı və adamlardan qaçıb çadıra girdi.

Qunan əyilib atının qulağına:

– Qara da, ağ da səni ötdülər, – dedi. – Gözəllər gözəli Deçeq mənə qismət olmadı. Mən onsuz yaşamaq istəmirəm!

Kürən at cavabında:

– Qəm eləmə, üzündəki qırışları yox elə! – dedi və başını şərqə çevirib kişnədi.

Dərhal çöllükdə qasırğa peyda olub qarayla ağın qarşısını kəsdi. Uamdaqayla Urtu atlarını nə qədər qamçılasalar da, yerlərindən tərpədə bilmədilər. Kürən at onları ötüb dağa birinci çatdı. Bu yarışa tamaşa edənlərin hamısı sevinc içində qışqırmağa başladılar. Səsə Deçeq də çadırdan çıxdı. Bilmək istəyirdi ki, kimə qismət olub – Uamdaqaya, yoxsa Urtuya? Gördü ki, Qunan kürən atının belində xana tərəf gəlir, o biri iki nəfər isə hələ də dağa çatmayıb.

Xan qaşqabağını sallayıb Qunana:

– Sən başqa yurdun pəhləvanısan, – dedi. – Bilmirəm kökün, qanın necədir. Amma sözüm sözdür, qızımı sənə verirəm. Amma bil ki, cehiz kimi sənə nə qızıl, nə gümüş, nə əlbisə, nə at, nə dəvə, nə inək, nə qoyun, nə də örüş verəcəyəm. Başqa nə istəyirsən, dilə məndən.

Xan bunu deyib düşündü ki, oğlan cehizsiz qızı istəməyəcək. Qunan kürən atın belində gəlinini tərkinə alıb:

– Mənə sənin nə qızılın, nə gümüşün, nə də örüşün lazımdır. Atların əvəzinə mənə yalnız dayçalar, inəklərin əvəzinə mənə yalnız danalar, dəvələrin əvəzinə mənə yalnız botalar, qoyunların əvəzinə mənə yalnız quzular ver.

Xan əmr etdi ki, istədiklərini versinlər.

Deçeq və Qunan dana, dayça, bota, quzu sürülərini qabaqlarına qatdılar və yola düzəldilər. Azca getmişdilər ki, arxadan səs eşitdilər. Gördülər ki, atlar, inıklər, qoyunlar, dəvələr böyük bir sürüylə arxalarınca gəlir.

Deçeqin təəccübləndiyini görən Qunan:

– Çoban oğlu heyvanların xasiyyətini xandan yaxşı bilir. Həmişə belə olub, belə də olacaq – quzu haradadırsa, qoyun da oradadır, dana haradadırsa, inək də oradadır. Bu böyük ilxı öz balalarının dalınca gəlir. Xan onları heç cür geri qaytara bilməz.

Və Qunan öz gəliniylə nəinki hansısa xanın olmadığı, insan ayağının belə dəymədiyi uzaq bir yerdə məskən saldı və şad-xürrəm ömür sürməyə başladılar.

Payız gələndə öz kürən atına minib valideynlərinin köhnə alaçığına yollandı. Alaçığın qarşısında dayanmış atasıyla anasını görüb:

– Hazırlaşın, sizi aparmağa gəlmişəm, – dedi. – Mənim evimdə yaşayacaqsınız.

Qoca və qarı oğulları ilə getdilər və həyatlarının sonuna qədər sevgi, ehtiram içində yaşadılar.

Qunan və arvadı kürən ata da həmişə qayğı göstərir, otunu, yemini bol eləyirdilər.

Xana Üsəma Əhməd

ŞAİR OLMAQ İSTƏYƏN OĞLAN

Həmin gün bizi bir məktəbə apardılar. Dedilər ki, bu günəcən ora ən təhlükəsiz yer sayılır. Məktəb mərmilərin dağıldığı şəhərimizdən uzaqda yerləşirdi. Bizim köhnə məktəbimiz Yer üzündən tam silinmədiyi, heç olmasa daş-divarının qaldığı üçün mən hədsiz xoşbəxt idim. Çünki o yerlə məni şirin xatirələr bağlayırdı. Həmin məktəbdə mənim çoxlu dostlarım var idi, sinfin fəalı idim və bununla qürur duyurdum. Mən ən qabaqcıl şagird kimi şuluq uşaqların adını yazı taxtasına yazır, müəllimin sinfə girməyinə az qalmış məsum baxışlarını görüb silirdim, onları bağışlayırdım. Bilirdim ki, adlarının qara siyahıdan silinməsi üçün onlar lap canlarını da verərlər. Hamısının sifəti bir nəfər kimi gözlərinin qarşısındadır və mən indi onlar üçün heç vaxt olmadığı qədər darıxıram.

Müharibə başlanandan sonra müddətsiz tətilə çıxdıq və yenidən məktəbə qayıtmağıma çox sevinirdim. İndi mən yenidən nailiyyətlərimə şübhə eləyən ailəmə, böyük qardaşlarıma, əmim, dayım oğlanlarına ən qabaqcıl şagird olduğumu böyük hərflərlə sübut etməliydim. Və anama deyəndə ki yeddinci sinfin dördüncü kabinetinə gedək baxaq, düşündüm, bu sinif məni elə mənim onu tanıdığım qədər tanıyacaq. Çünki mən ən qabaqcıl şagird olmuşdum. Uşaqların başçısı seçilmişdim. Amma yox, bura mənim köhnə sinfimə, demək olar ki, oxşamırdı, burada şkaf və partalar çox pis vəziyyətdə idi, hətta yazı taxtasında bir təbaşir belə yox idi. İndi mən şuluq uşaqların adlarını hara yazacaqdım ki, sonra onlar bağışlanmaq üçün mənə yalvarsınlar? Həmin an onların

gözlərinə baxmaq çox xoşuma gəlirdi. Mən burada daha qabaqcıl şagird deyildim. Bu fikirdən içim əsməyə başladı və avqust ayı olsa da, məni qəribə üşütmə tutdu. Mən bu yerləri tanımırdım, burada dostlarım da yox idi. Hətta sinif müəllimlərim də gözümə dəymirdi.

Sinfə girəndə çox dilxor oldum. Çünki indi mənimlə oxuyan oğlanların nə dünənindən, nə bu günündən məlumatlıydım. Onlar mənim gözümdə tin uşaqları kimi yad idi. Deməli, futbol oynamaq, qabaqcıl şagird olmaq sevincindən də məhrum idi. Bir ailə də bizimlə məktəbə gəlmişdi. Qadının uşaqları çox qaradinməz görünürdü və hərəkətləri məni qıcıqlandırırdı. Onlara baxıb əsəbiləşməmək üçün geniş meydançada gəzməyə çıxdım. Bu cür meydançalarda həmişə iki komandaya bölünüb futbol oynayırdıq. Mən onlardan birinin kapitanı idim və böyük şövqlə çıxan səsimlə, hərəkətlərimlə oyunu təkbaşına idarə edirdim. Sanki həyatımın yeganə mənası futbol idi. Uzun ötürmələr verir, qollar vurur, komandamı ruhlandırırdım.... Və bütün bunlar birnəfəslik sevinci eşitmək üçün idi – qooool! O stadion bizim doğmamız idi, oynayanda özümüzü böyük azarkeş ordusunun baxışları altında təsəvvür edirdik – anam, atam, qardaşlarım, bacılarım da onların arasındaydı.

Bir arzum da şair olmaq idi. Sevdiklərimə məhrəm və hissiyyatlı məktublar yazarkən ədəbiyyat fənnindən öyrəndiyim gözəl sözlərdən istifadə etmək istəyirdim, amma müharibə hər şeyi alt-üst etdi. Müharibədən başqa mövzu qalmadı, gələcək üçün qeydlərini aparmaq istədiyim poetik sözlər də birdən-birə yox oldu. İndi həmin məktubları xatırlayanda məni qəhər boğur.

Daha çox məktəb həyətinə bənzəyən oyun meydançası indi camaşırxanaya dönüb – kişilər, qadınlar paltarlarını, balış üzlərini, yataq ağlarını, adyallarını burada yuyub qurudur. Burada xeyli başqa məşğuliyyətlər də görmək olar. Sanki bu meydançа indi qeyri-adi dəb və qab-qacaq nümayişinə çevrilib. Burada elə bir xaos hökm sürür ki, nəinki oyuna, hətta yüngül bir

təbəssümə belə yer yoxdur. Əgər dərindən düşünsəniz, hər yanda gördüyünüz bu səhnələr yaxşı bir şeirin süjeti ola bilər. Və o şeiri yalnız evsizlərin gecələməyi üçün faydalı olan qəzet səhifələrinin, yaxud rəngli vərəqlərin bir qırağına yaza bilərsiniz. Mən şeiri dünyaya açılan pəncərəyə, uzaqlara uçan quşlara bənzədirəm. Əgər indi atam məni eşidə bilsəydi, dərhal deyəcəkdi ki, sənin səfeh təşbehlərin həmişə heç nədən yaranır. Mən də ona cavab verərdim ki, şeirdə təsvir olunan gerçəkliyə açar tapmaq üçün gərək bir az təxəyyülünü işə salasan.

Mən əvvəllər məktəb yeməkxanası olan bu yerdə bir küncdən o küncə gedə-gedə, nəhayət, uzun növbədə özümə yer tuta bildim. Əslində, bu, növbədən çox döyüş meydanına oxşayırdı, get-gedə tükənən buterbrodu ala bilmək üçün adamlar bir-birini itələyib qabağa keçmək istəyirdi. Mən bu qısa döyüşdən dağılmış saçla çıxıb yaxalığımı düzəltdim və ala bildiyimə görə qürurla buterbrodumu yeməyə başladım. Bəli, yemək növbələri əsl müharibə meydanı idi və biz məğlub olmamaq üçün qətiyyətlə vuruşurduq. Bayrağın altında oturub udmaq istədiyim xeyli sayda futbol oyunları, içindən bir bənd oğurlayaraq məktuba əlavə edib başqalarından eşidəcəyim "dünyada səndən yaxşı şair yoxdur" kimi sözlər barədə düşünürdüm. Bu sözü eşitsəydim, həmin andaca əl-ayağım əsərdi, belə ehtiraslı gərginliyə dözə bilməzdim, bayılardım. Bilirsinizmi, bir oğlun uşağının şair adlandırılması nə deməkdir?

Burada, bayrağın altında sırayla dayanıb xorla milli himnimizi oxuyanda, çox-çox uzaqlarda yaşayan uşaqları düşündüm. Görəsən, onlar hər səhər milli himnlərini necə oxuyurlar və musiqi başlanan kimi onlar da öz ölkələrinə ehtiram əlaməti kimi hərəkətsiz dayanırlar? Mən də sıradan biri olmaq istəyirdim, amma həddindən artıq qıvraqlığım, anadangəlmə liderlik coşqum buna imkan vermirdi. Bir dəqiqə də hərəkətsiz dayanıb qala bilmirdim, darıxırdım. Söhbət etməyi xoşlayırdım, hələ bu vaxtacan heç kimə danışmadığım çox əhvalatlar bilirdim.

Əslində, onların yarısı təxəyyülümün məhsuluydu və buna görə atam həmişə məni danlayırdı. Deyirdi ki, riyaziyyatı oxumaqdansa, başını boş-boş şeylərlə doldurursan, belə maraqlı yalanlar uydurmaq üçün yaşın hələ çox azdır. Amma mən haradasa oxumuşdum ki, təxəyyül heç vaxt yalan danışmır. Mənim təxəyyülümün əhvalatları haradasa həqiqət idi. Bu fikrə əsaslanıb, müharibədən az sonra mən daha çox inanmağa başladım ki, uşaqları xəyallardan və arzulardan məhrum etməyə heç kimin haqqı yoxdur.

İndi bu məktəbin meydançasında düşərgədən gəlmiş xeyli ailə var. Çünki bura mərmi düşməyəcək, heç bir qırıcı təyyarə buranı görə bilməz, ən əsası, buradan uzaqda, səhvən vurulan məktəbin taleyi yaşanmayacaq. Müharibə özü də düz yox, səhv yoldur və burada heç bir bəraətə yer yoxdur. Öldürmək, dağıtmaq, yandırmaq da düz olan nə var ki?!

Deməli, məktəb zəngi hələ uzun müddət çalınmayacaq, uşaqlar özlərinə yeni məşğuliyyətlər tapacaqlar, biz isə evlərimizi bərpa eləyib qayıdanacan elə yeddinci sinifdə qalacağıq. Evdən çıxanda özümüzlə heç nə götürmədik. Əslində, götürməyə bir şey də yox idi. Bizim dağılmış evimizin qabağında dayanmış atama baxanda gördüm ki, gözləri get-gedə açılıb böyüyür, içindən damcı-damcı yaş axır... Qəflətən atamdan elə bir bağırtı qopdu ki, elə bil qəflətən içindəki vəhşi heyvan oyanmışdı. Bu vaxt mən də özümü saxlaya bilməyib ağladım. Ha eləsəm də, göz yaşlarım dayanmaq bilmirdi. Sonra dodaqlarımı dişlədim və yaş dayandı. Ürəyimiz ağrısa da, bu evi tərk etməkdən başqa çarəmiz yox idi. Özümlə yalnız indi xatirələrimi qeyd etdiyim kitabçanı və karandaşı götürdüm. Tanınmaq istəyirdim, ona görə bütün gün hekayələr yazırdım. Yazıçılıq mənim ürəyimin ən əsas tələbatı idi.

Müharibənin dəhşətlərini, burada baş verənlərin insan şüurundan kənar bir şey olduğunu deyib – çatdırmaq, təsvir etmək qarşısında söz də acizdir. Mən müxtəlif tarixçələri nəql etmək üçün xüsusi istedada və ilhama malik idim. Əslində, istedad ilk

əvvəl sahibinin üzünə baxır, sonra da əhvalat yaranır. Gördüyüm insanların üzündə ağrıdan çox qorxunun izi var idi. Məhz belə əhvalatlar gözümdə müharibənin dəhşətlərini yumşaldır, məni kağız üzərində sərkərdəyə çevirirdi. Əhvalatlar yazarkən mən danışmaq, danışmaq istəyirdim. Çünki ən dəhşətli nizamsızlıq, xaos susan adamların daxilində baş verir – xüsusən də dünyalarını dağdan minlərlə qəlpənin başları üzərinə düşdüyü bir vaxtda özünü heç nə olmamış kimi aparıb susan adamların. Amma necə deyərlər, qaliblər mühakimə olunmur, məğlublar isə kimin vecinədir?

Məktəbdə hər şey fərqliydi: insanlarda kədər, təmkin və qorxu hissləri sanki bir-birinə qarışmışdı. Bu qəribə mənzərə burada məskunlaşan bütün ataların, bütün anaların sifətində oxunurdu. Bəs uşaqlar? Onların işi oynamaqdır. Onlar elə buna görə buradadırlar. Və uşaqlar nə qədər tez toplaşıb dəstələrə bölünərək oyuna başlasalar, bir o qədər yaxşıdır. Onların ucadan gələn gülüş səsləri aləmi başına aldı – müharibə dövründə yaşasaq da, məktəbə həyat tez qayıtdı.

İndi burada uşaqlar topdan başqa nəyə desən oxşayan topla futbol oynayırlar. Bəzi qızlar da xana-xana oyununun keçmiş şöhrətini qaytarırlar. Bəziləri isə sırayla döşəmədə uzanıb. Onlar oynamaqdan çox yatmağa üstünlük verirlər. Mən isə burada oturub şeir cızma-qara edirəm. Nə hecası, nə qafiyəsi var. Əslində, bitkin şeirlər deyil, sadəcə, ürəyimin balaca, işıqlı küncündə yerləşən nəsə böyük bir əsərdən parçadır. Müharibə mənim olmaq istədiyim şairin ruhuna dərin yara vurdu.

Müharibə başlananacan yazdığım əhvalatları, lətifələri, poetik olmayan şeirləri heç kimə oxumamışdım.

Evin ev yeri, məktəbin məktəb yeri var idi. Məktəbdə bizə poeziyadan dərs deyirdilər. Amma indi mən yalnız öz yazdıqlarımı bəyənirəm. Yeganə dostum – yaradıcılığımdır.

Müharibə yaxında, sonsuz dəniz uzaqda olsa da, mən sizə mavi dənizin rəvayətini danışmaq istərdim.



O dəniz brilyant kimi bərq vurur, dalğalar elə sürətlidir ki, geri çəkiləndə izləri görünür.

Orada xoşbəxt bir ailə vardı. Müharibə başlayandan sonra evləri dərin çalaya çevrildi, məktəb yeni evləri oldu, yəqin ki, bu hələ uzun çəkəcək. Müharibə burada hər yerdə – küçədə, tində, düz başımızın üstündə, düz aramızdadır.

Bu gün məktəbdəyəm, bura mənim evimdir.

Mən daha qabaqcıl şagird deyiləm, futbol da oynamıram.

Biz evimizi itirdik.

Hamı evini itirdi.

Top da daha diyirlənmir,

İçimin dünyası dağıldı.

Həyat anidən dayandı və qulaqlarımda dəhşətli zingilti səsi var.

Yaxınlaşan mərminin səsidir.

Yenə kimsə bizdən arxadadır, evini və ailəsini itirib.

Hər şey donub,

Hələ də dayanmaq bilməyən müharibədən başqa.

Bu müharibəni kimsə dayandıra bilərmi?

TURP

Baba həyətində turp əkib dedi:

– Böyü, böyü, dadlı turp ol! Böyü, böyü, bərk turp ol!

O da babanın dediyi kimi böyüyüb dadlı, bərk və çox yekə bir turp oldu. Baba turpu çıxarmağa getdi. Nə qədər dartdı, dartdı, çıxara bilmədi. Baba nənəni çağırdı.

Nənə babadan,
baba turpdan yapışıb,
dartdılar, dartdılar,
dartdılar, çıxara bilmədilər.

Nənə nəvəni çağırdı.
Nəvə nənədən,
nənə babadan,
baba turpdan yapışıb dartdılar,
dartdılar, çıxara bilmədilər.

Nəvə iti çağırdı.
İt nəvədən, nəvə nənədən,
nənə babadan,
baba turpdan yapışıb, dartdılar,
dartdılar, çıxara bilmədilər.

İt pişiyi çağırdı.
Pişik itdən,
it nəvədən,
nəvə nənədən,
nənə babadan,
baba turpdan yapışıb dartdılar,
dartdılar, çıxara bilmədilər.

Pişik siçanı çağırdı.
Siçan pişikdən,
pişik itdən,
it nəvədən,
nəvə nənədən,
nənə babadan,
baba turpdan yapışıb dartdılar,
dartdılar və turpu çıxartdılar.





NOXUD DƏNƏSİ

Biri vardı, biri yoxdu, bir xoruz və bir toyuq vardı. Xoruz yaman səbirsiz idi, həmişə tələsirdi, toyuq da onu dilə tuturdu.

– Petya, tələsmə. Petya, tələsmə.

Bir gün xoruz həyətdə yeri dənləyəndə qəflətən noxud dənəsi gördü:

– Quqqulu-quq! Toyuq, noxud istəyirsən?

– Yox, Petya, öz payındır, özün ye.

Petya yeyəndə tələsdiyindən noxud boğazında qaldı və necə boğuldusa, nə nəfəs ala bildi, nə də qulağı eşitdi, ölü kimi yıxılıb qaldı.

Toyuq qorxdu, sahibəsinin üstünə qaçıb qışqıra-qışqıra:

– Sahibə xanım, tez mənə yağ ver, xoruzun boğazına yaxım. Orada noxud dənəsi ilişib-qalıb.

– Tez inəyin üstünə qaç, süd istə, mən o süddən yağ alaram.

Toyuq inəyin üstünə qaçdı.

– Gözəl inək, tez mənə süd ver. O süddən sahibə yağ alacaq, mən də onu xoruzun boğazına yaxacağam, orada noxud dənəsi ilişib-qalıb.

– Tez evin sahibinin üstünə qaç. Qoy mənə təzə ot gətirsin.

Toyuq sahibin üstünə qaçdı.

– Ev sahibi, ay ev sahibi! Tez inəyə təzə ot apar. İnək süd verəcək, sahibə süddən yağ alacaq, mən də yağı xoruzun boğazına yaxacağam, orada noxud dənəsi ilişib-qalıb.

– Tez oraq üçün dəmirçinin üstünə qaç.

Toyuq az qala uça-uça dəmirçinin üstünə qaçdı.

– Dəmirçi, ay dəmirçi, tez ev sahibinə yaxşı bir oraq ver. Ev sahibi inəyə ot verəcək, inək süd verəcək, sahibə süddən yağ alacaq, mən də yağı xoruzun boğazına yaxacağam – orada noxud dənəsi ilişib-qalıb.

Dəmirçi ev sahibinə təzə oraq, ev sahibi inəyə təzə ot, inək süd verdi və sahibə o süddən yağ hazırlayıb toyuğa verdi. Toyuq yağı xoruzun boğazına yaxdı.

Noxud dənəsi, nəhayət, çıxdı və xoruz yerindən dik atılıb var səsiylə banladı:

– Quqqulu-quq!

TÜLKÜ, TISBAĞA VƏ QARIŞQA

Bir gün tülkü, tısbağa və qarışqa səyahətə çıxdı. Üçü də yanaşı addımlayanda yolun bir tərəfində yerə dağılmış toxum gördülər. Dayanıb düşündülər: "Bu darı toxumuyla nə edə bilərik".

Ən əvvəl Tülkünü ağlına bir fikir gəldi:

– Gəlin toxum götürüb əkək, – dedi. – Məhsul yığılanda bərabər bölərik.

Tısbağa və qarışqa razılaşıb toxumu yerdən yığdılar.

Tısbağa:

– İndi darını əkmək üçün münasib yer tapmalıyıq, – dedi.

Və hər üç yol yoldaşı əkin üçün yer axtarmağa yollandı.

Qarışqa dayanıb:

– Toxumu bax elə burada əkmək lazımdır, – dedi.

Tülkü və tısbağa qarışqayla razılaşıb işə girişdilər.

Bir az işləyəndən sonra tülkü qarşıdakı təpəyə baxıb:

– Ay dostlar, qorxuram, bu təpə uçub bizim tarlaya düşsün, – dedi, – onda bütün əməyimiz zay olacaq! Gəlin belə edək: siz torpağı qazın, mən də burada dayanıb təpəni saxlayım.

Tülkü bunu deyib təpənin arxasına keçdi və rahatca uzanıb yatdı.

Tarlanı şumlayıb bitirəndən sonra axşam dincəlmək üçün yer axtaranda tısbağayla qarışqa tülkünü gördü. Tülkü də onları görüb dərhal ah-ufla zarıya-zarıya, ayağını, başını tuta-tuta:

– Nə yaxşı vaxtında çatdım, – dedi. – Təpə artıq bizim tarlanın üstünə yıxılhayıxıldaydı... Əməyimiz də zay olacaqdı, canımız da...

Tısbağa və qarışqa tülküyə inandılar. O biri gün toxumu əkib məhsul gözləməyə başladılar.

Payız gəldi. İndi də tısbağa və qarışqa əvvəlki kimi ikilikdə yetişmiş darını yığırdılar. Yenə tülkü haradansa peyda oldu. Fərəhlə qızılı rəngli darı təpəliyinə baxıb, onun yan-yörəsində gəzişə-gəzişə:

– Dostlar, məhsul elə də çox deyil, – dedi, – onun nəyini bölək? Gəl bir mərc gələk, kim udsa, məhsul onun olsun.

– Nədən mərc edək? – tısbağa soruşdu.

– Üçümüz də eyni vaxtda bax oradakı qarağacın altından bu dağa qədər olan məsafəni qaçaq. Kim birinci çatsa, bütün məhsul onundur!

Tısbağa və qarışqa razılaşmalı oldu və tülküylə birlikdə qarağacın altına tərəf getdilər.

– Hazır olun! – tülkü qışqırdı. Tısbağayla qarışqa qaçışa hazır vəziyyətə gəldi.

– Qaçdıq! – tülkü elan etdi və hamıdan əvvəl yerindən götürüldü.

Ağıllı qarışqa vaxt itirmədən tez tülkünün quyruğundan yapışdı. Tülkü darının yanına hamıdan əvvəl gəlib yumşaq quyruğunu ehmalca yerə yıxdı və ucadan bəyan etdi:

– Hə, məhsul mənimdir!

Tülkü bunu deyib özündən razı halda qəhqəhə çəkdi.

– Ey tülkü, quyruğunu qaldır, məni əzirsən! – tülkü qarışqanın qışqırığına mat-məəttəl qaldı. – "Mənimdir" deyirsən? Yox, mən çoxdan buradayam!

– Məgər sən bura məndən əvvəl çata bilərsən? Dünyasında inanmaram ki, qaçmaqda sən mənə ötə bilərsən!..

Tülkü hay-küy qaldırdı. Elə bu vaxt tısbağa da sürünüb gəldi və qarışqanın tərəfini tutub:

– Əziz dost, dava salma! Məgər bilmirsən ki, iki ov iti səni axtarır? Onlar məni görüb sənin evinin yerini deməyimi istədilər, əl çəkmədilər. Amma mən səni satmadım, "bilmirəm" dedim.



Ona görə məni elə dişlədilər ki, yeri hələ də sızıldayır. Məgər hürüşmə səsini eşitmirsən? İtlər yenə bu tərəfə qaçır...

İtlərin xəbərini eşidən tülkü tısbağaya inanıb qorxudan qaçıb getdi. Beləcə, tısbağayla qarışqa hiyləgər tülküdən canlarını qurtarıb məhsulu aralarında bərabər böldülər və bütün qışı yemək sarıdan korluq çəkmədilər.

OVÇU VƏ DOSTLARI

Qədim əyyamlarda bir sərrast oxatan var idi – heç vaxt ovdan əliboş qayıtmazdı.

Bir dəfə ovdan qayıdanda yolda rastına kasıb kəndli çıxdı:

– Ovun həmişə belə yaxşı olsun! Əlidolu qayıtmısan! Bu quşa görə, yəqin, yaxşı da pul verirlər, eləmi?

Ovçu kasıb kəndliyə baxıb:

– Yaxşı olan yalnız iti göz və çevik əllərdir, – dedi. – Bu ova görə başqalarının mənə nə verəcəklərini bilmirəm, amma bunu sənə həvəslə satardım. Ürəyin neçəyə istəyir, al məndən.

– Ay səni sağ olasan, qardaş! Məndən ov alanmı çıxar?!

Töycülər lap axırıma çıxıb. Nə ev-eşiyimdə bir şey var, nə də həyət-bacamda – bir atdan başqa. Bütün yeməyimiz suyla bir tikə undan ibarətdir. Növbəti məhsul yığımınacan necə baş saxlayacağımızı bilmirəm.

Ovçu:

– Belədirsə, quşu havayı götür, halal xoşun olsun, – dedi. – Nuşluqla yeyərsən!

Kəndli ovu alıb:

– Çox sağ ol, dostum, sənin bu yaxşılığını unutmaram, – dedi. – Bu gündən məni özünə dost bil. Nə vaxt evimin yanından keçsən, mütləq içəri keç, mənim ən əziz qonağımsan.

Ovçu:

– Yaxşı, – deyib evinə getdi.

Ovçu bir neçə gündən sonra yenə ova çıxmışdı. Bu dəfə ovu lap yaxşı olmuşdu, xeyli quş vurmuşdu. Elə şəhərə girən kimi

hasarın yanında əldən düşmüş qoca bir kişinin uzanıb qaldığını gördü:

– Salam, ata! Sənə nə olub belə? – soruşdu.

– Pisəm, oğlum, qoca, xəstə adamam. Ömrüm boyu sarayda padşaha xidmət etmişəm, nə veriblər, onu da yemişəm, indi daha gücüm qalmayıb, işləyə bilmirəm. Bir baxanım da yoxdur, ac-susuz qalmışam.

– Götür bu ovumu, ata, – ovçu təklif etdi.

Qoca:

– Yox, oğlum, almaram, necə alım axı? – dedi. – Kim bilir, neçəyədir?

Ovçu:

– Baha olan yalnız iti göz və çevik əllərdir. Bu ov isə mənə ucuz, asan başa gəlib. Al götür, xeyli karına gələr, – dedi və bütün ovu qocanın qabağına qoydu. – Nuşcanlıqla ye, özünə gəl!

Qoca ovçunun bu hərəkətindən təsirlənib ağladı və dedi:

– Nə qədər ki sağam, məni özünə dost bil. Nə vaxt evimin yanından keçsən, mütləq içəri gir, səni doğma oğlum kimi qəbul edərəm.

Ovçu cavabında:

– Çox sağ ol, – deyib evinə getdi.

Bir necə gündən sonra ovçu təzədən ova çıxıb xeyli quş ovladı. Geri dönəndə taybatay açıq darvaza gördü. İçəridə varlı bir kişi xalçanın üstündə oturub çay içirdi. Küçədə, darvazanın çöl tərəfində isə cızığa alınmış dairənin ortasında, yerdə kasıb bir kişi oturmuşdu.

– Niyə dairənin içində oturmusan? Nə günah işlətmisən? – ovçu kasıbdan soruşdu.

Kasıb kişi:

– Bu varlı adama borcum var, – dedi, – heç cür qaytara bilmirəm. Odur ki məni bu dairədə oturdub axşamacan gözləməyimi tapşırdı. Əgər bu müddət ərzində məni ondan satın alan tapılmasa, bu varlının nökəri olacağam. Kimdir mənə görə pul

verən? Nə bir varlı qohumum, nə dostum var. Nə etməli, görünür, taleyimlə barışmalı olacağam.

– Qulağının dibini görər! – ovçu ucadan dedi. – Al, mənim ovumu ver o varlıya, səni buraxsın.

Kasıb tərəddüdlə ovçuya baxarkən o artıq belinə yüklədiyi bütün ovunu boşaldıb kasıbın qabağına qoymuşdu.

– Çox sağ ol, dostum, – kasıb dedi. – Sən məni xilas etdin. Qoy indi sənə borclu qalım. Bax oradakı mənim evimin qapısıdır. Nə vaxt xətrin istəsə, təşrif buyur, evimdə gecələ. Əgər yolun düşsə, gəlməsən, inciyərəm. Bu gündən məni özünə dost bil.

Ovçu:

– Yaxşı, imkan olsa, gələcəyəm, – deyib evinə getdi.

Az sonra ovçu yenə ova çıxdı. Bu dəfə meşəni ələk-vələk eləsə də, atdığı oxun biri də hədəfə dəymədi. Dilxor halda evə qayıtmaq qərarına gəldi.

Qəflətən meşədə gördü ki, padşah da öz dəstəsi ilə ov edir. Padşah da onun kimi bir heyvanın dalınca düşüb ha atırdısa, oxu hədəfə dəymirdi. Padşahın nökərləri heyvanı dövrəyə almışdılar. O da padşahın ovunu dövrəyə alanların cərgəsində keçib dayandı.

Qaçmaqdan yorğun düşmüş heyvan dövrənin içində karıxıb qalmışdı, amma padşah ha yayı çəkib atsa da, oxu heyvandan yan keçirdi. Və padşah bu uğursuzluğundan hiddətlənmişdi. Qəflətən heyvan ovçu dayanan tərəfə atılıb bir andaca yanından sivişib çıxdı və var gücüylə dağa tərəf qaçdı.

Padşah qaçan heyvanın dalınca ox atsa da, yenə əyri getdi. Elə bu an ovçu öz oxunun yayını çəkib atdı və heyvan daş kimi yerə düşüb qaldı.

Hiddətlənən padşah əmr etdi ki, ovuna qoşulub onun ovlaması üçün nəzərdə tutulan heyvanı öldürən ovçunu edam etsinlər.

Ovçunun əl-qolunu bağlayıb şəhərə gətirdilər və dar ağacına apardılar.

– Ey hökmdar! – ovçu padşaha tərəf qışqırdı. – Mənə ikicə saat vaxt ver, gedib dostumla vidalaşım!

Padşah ölümqabağı hansısa bir adamın dostunu fikirləşməsindən heyrətləndi. O, edamı təxirə salıb nəzarətçilərə ovçunu müşayiət etməyi tapşırdı:

– Qoy dostunun yanına getsin. Amma diqqətli olun ki, qaçmasın. Düz iki saatdan sonra bu adam asılacaq.

Nəzarətçilər ovçunu dostunun yanına gətirdilər. Padşah isə sarayın darvazasının yanındakı qarovulçu otağına girib əynini dəyişdi və kəndli paltarında onların dalınca getdi: bu ovçunun dostunun kimliyini v bəd ayaqda özünü necə aparacağını bilmək istəyirdi.

Ovçu birinci dostunun evinə yaxınlaşıb qapını döydü. Bayıra çıxan kənli ovçunu görüb sevindi, qarşısında təzim edib evə çağırdı.

– Dostum mənim, görmürsən ki, nəzarət altındayam? Başıma iş gəlib!

Və ovçu dostuna uğursuz ovu, padşahla rastlaşması, ölən heyvan və ən əsası, cəmi iki saat ömrünün qalması barədə danışdı. Dostu cavabında:

– Dayan, qəm eləmə, dostum, – dedi, – mən indi atımı padşaha verib yalvararam ki, səni azad etsin.

Padşah yaxınlıqda nə baş verdiyini öyrənməyə gələn insanların arasında dayandığından hər şeyi eşitdi: “Qəribə insandır! Sonuncu heyvanını – atını bu adama verməyə əli necə gəlir?” – düşündü.

Dostu dərhal atını tövlədən çıxarıb ovçunun yanına düşdü.

– Dayanın, mənim ikinci dostumun evi bax buradır! – ovçu ucadan dedi. – Gərək onunla da vidalaşım, onsuz da bir də görüşməyəcəyik!

Qapını döyüb dostunu səslədi.

Taqqıltı səsinə bir qoca çıxdı. Ovçunu görən kimi sevinc içində üstünə atıldı, qucaqlayıb bərk-bərk bağrına basdı və hal-əhval tutdu. Ovçu onu nə gözlədiyini dostuna danışdı.

– Yox, mən buna yol verə bilmərəm! – qoca ucadan dedi. – Padşahın ayaqlarına yıxılıb, səni əfv etməsini diləyəcəyəm. Ömrüm boyu padşaha xidmət etmişəm, inanmıram ki, mənim xahişimi yerə salsın. Ona baş lazımdırsa, yaxşısı budur, mənim ağsaçlı başımı bədənimdən ayırsın!

Adamların arasında olan padşah hər şeyi eşitdi: "Ola bilməz! – düşündü. – Kimsə öz həyatını başqasına qurban verə bilməz".

Ovçu iki dostu və nəzarətçilərlə birlikdə padşahın sarayına tərəf yollandı. Yolu keçəndə ovçu qəflətən üçüncü dostunun da qapısını gördü.

– Dayanın, hələ vaxtıma var! – ovçu ucadan dedi. – Gərək üçüncü dostumla da vidalaşım. Əgər evinin yanından onunla salamlaşmadan keçib getsəm, məndən inciyər.

Nəzarətçilər ovçunu üçüncü dostunun yanına buraxmaq istəmədilər. Qorxurdular ki saraya gecikərlər, padşah onları da ovçuyla bərabər edam edər.

Ovçu:

– Eh, insanlar, ölüm onsuz da həmişə vaxtında gəlir, nə tələsir, nə gecikir, – dedi.

Hay-küy səsinə dostu özü çıxdı. Ovçunu görüb sevinclə üstünə qaçdı, bərk-bərk qucaqlayıb:

– Məni yaman sevindirdin, dostum! – dedi. – İçəri buyur! Bu gün ovdan əliboş qayıtmısan, amma əvəzində mən əlidoluyam, gəl qonağım ol!

– Eh, dostum, mən özüm ovlanmışam!

Və ovçu başına gələnləri ona da danışdı.

– Bu olmayacaq! – kasıb kişi qışqırdı. – Mən bunun qarşısını almaq üçün hər şeyə hazıram! Əgər padşah dediyindən dönməsə, üstünə atılıb xəncərimi qarnına soxacağam!

Bu sözləri eşidən padşah donub qaldı və düşündü: "Mənim bu nökərim dəli olub? Məgər hansısa bir ovçuya görə padşaha əl qaldırarlar?"

Hirs-hikkəylə camaatın arasından çıxıb gizlicə saraya qayıtdı, əynini dəyişib şah libasını geyindi və ovçunun dostları ilə qayıtmağını gözlədi.

Onlar yaxınlaşanda padşah astanaya çıxıb edama başlanmasını əmr etdi.

Cəllad ovçunu dar ağacına tərəf itələdi.

Elə bu vaxt kəndli irəli çıxıb öz atını padşaha gətirdi:

– Ey hökmdar, – ovçunun birinci dostu ucadan dedi. – Gözümün ağı-qarası olan bu atımı al, mənim əziz dostumu əfv et!

Padşah dinmədi.

– Ey mənim ağam! – bu dəfə qoca padşahın ayaqları altına yıxılıb yalvardı. – Mən ömrüm boyu sədaqətlə sənə xidmət etmişəm. Bir xahişim var səndən: bu xeyirxah insanı bağışla! Yaxşısı budur, əmr et, onun əvəzinə məni assınlar.

Padşah sakitcə dayanıb-durmuşdu, heyrətlə gah ovçuya, gah dostlarına baxırdı.

Elə bu vaxt ovçunun üçüncü dostu bir kəlmə də demədən, xəncərini çıxarıb padşahın üstünə atıldı.

Padşah qorxub əl-qolunu yelləyə-yelləyə saraya qaçdı. Hamı düşündü ki, o, ovçunun azad olunmasını əmr etdi.

Dərhal dar ağacının altındakı ovçunun qollarını açdılar və dostları bir-bir onu bağrına basdı. Hamı sevinc içində deyirdi ki, doğrudan da, əsl dostluq padşah qəzəbinə də qalib gəlir.

Tanapol (Lamdaun) Çadxaydi

MAKATONUN RƏVAYƏTİ

Bu rəvayət Sukxotay krallığının hakimiyyəti dövrünü əhatə edir.

Biri vardı, biri yoxdu, Makato adlı bir oğlan vardı. Tacir oğlu olan bu oğlan bizim dövrümüzdə Myanma adını alan, o vaxtlar isə Mortama adlanan şəhərin Koxvan kəndində yaşayırdı. On beş yaş olanda atası öldü və Makato valideyninin bütün işlərini öz əlinə almalı oldu. Otuz nəfərdən ibarət böyük bir dəstəyə başçılıq edirdi. Onlar çiyinlərinə yüklədikləri malı Sukxotoya (o vaxtlar bu şəhər Tailandın paytaxtı idi) aparıb satırdılar. Bir gün tacirlər gəlib Matevə çatanda tacirlərdən birinin halı pisləşdi. Makatonun ona rəhmi gəldi və yükünü öz çiyninə alıb daşıdı. Gəlib təpəliyin yüksəkliyinə çatanda göy quruldadı və leysan başladı. Qəflətən ildırım malları bərkitdiyi çubuğu vurdu. Çubuq xıncım-xıncım olsa da, qəribədir ki, Makatonun tükünə də xələl gəlmədi. Çubuğu üç dəfə dəyişdi və hər dəfə eyni vəziyyət təkrarlandı. Makato qabağa baxdı. Uzaqdan görünən qərb istiqamətində ildırımın işığında gözünə qəsr, ya da saray göründü.

Tacir oğlan bu qəribə hadisə barədə daha artıq öyrənmək, qarşıda onu nələrin gözlədiyin bilmək üçün falçının yanına getdi. Falçı Makatoya izah etdi ki, yalnız ona qoltuğu hündürlüyündə pul gətirib verəcəyi təqdirdə gələcəyini deyəcək. Makatonun pulu o qədər çox olmasa da, biclik işlətdi, olub-qalanını sandığın içinə qoyub falçıdan gələcəyini oxumasını xahiş etdi. Falçı bu

cavan oğlanın ağlına hörmətlə yanaşıb Makatoya ləyaqətli insan kimi gələcəkdə qərb bölgəsində böyük mənsəb sahibi olacağını dedi.

Makato Sukxotay şəhərinə gəlib bütün malını satandan sonra adamlarına evə qayıtmağı tapşırdı, özü isə burada qaldı. Sonra özünə yer axtarmağa çıxıb Sukxotay kralının çobanının evində qaldı. Makato təbiət etibarilə zəhmətkeş adam idi və odur ki səhərdən axşamacan fillərə baxan çobana kömək edirdi. Çoban da ona qarşı mərhəmətliydi; hər dəfə kraldan pul alanda Makatoyla bölürdü.

Bir gün kral Ruanq fillərinə baxmağa gəldi. Hündürdən baxanda Makatonun necə həvəslə işlədiyini gördü. Çobandan onun kimliyini soruşdu. Həqiqəti biləndən sonra ona ehtiram göstərib çobana Makatonun qayğısına qalmağı tapşırdı. Kral məhəbbət dolu nəzərlərlə fillərinə baxanda ağzından qoz düşdü və necə tüpürdüsə, havaya toz qalxdı. Qəflətən yer altından balıqqulağı çıxdı ki, bu da elə pul hesab olunurdu. Kral Makatoya onu götürməyi tapşırdı. Makato krala hörmət əlaməti ilə təzim edib pul – balıqqulağını yerdən aldı.

Bu o qədər çox pul olmasa da, Makato çox sevindi. Bu balıqqulağının dəyəri gözündə çox böyük idi – çünki onu kralın özündən almışdı. Və bu pulu artırmaq üçün bibər toxumu dalınca bazara yollandı. Satıcı bu az pula nə qədər toxum düşdüyünü hesablaya bilmirdi. Və Makato ona kömək etdi. Barmağını qaldırıb diliylə yaşladı və toxuma batırdı:

– Yaxşıdır! Bu qədər bəsimdir, artıq lazım deyil, – dedi.

Satıcı gülümsəyib bu iti ağlına görə onu tərifləndi və düşündü ki, bu cavan oğlan gələcəkdə çox şeylərə nail olacaq.

Toxumu gətirib evdən bir az kənarda əkdi, torpağı səxavətlə fil peyini ilə qidalandırmağı da unutmadı.

Bir gün kral Ruanq təzədən fillərinə baxmağa gəldi. Makato tez-tələsik bibərlərdən bir neçəsini dərib krala verdi. Təəccübünə rəğmən kral ondan bu bibərləri haradan aldığını soruşdu.

Makato da bütün olanları danışdı. Kral çox razı qaldı və düşündü ki, bu tacir oğlu çox zəhmətkeş və ağıllıdır. Və Makato kral mətbəxində işləməyə başladı. O, həmişəki kimi yorulmaq bilmədən işləyirdi. Makatonun bu canfəşanlığı krala xoş gəldi və onu şəhərin nəzarətçisi vəzifəsinə təyin etdi. Bundan sonra o, şəhərdəki nizam-intizama nəzarət etməli, sakinlərin qayğısına qalmalıydı. Makato yenə çalışır, üzərinə düşən bütün vəzifələri yorulmadan ləyaqətlə yerinə yetirirdi. Buna görə kral onu öz oğlu kimi sevirdi. Bütün əyanlar da Makatoya hörmət və ehtiram göstərirdilər.

Bir müddət keçəndən sonra Makato öz doğma kəndinə gedib baş çəkmək üçün izn istədi. Makato yaxşı insan olduğundan həmkəndliləri onu sevir və kifayət qədər hörmətini saxlayırdılar. Amma Mortama şəhərinin Alimamanq adlı valisi ona paxıllıq edir və öldürmək istəyirdi. Makato ona qarşı sui-qəsd barədə öyrənib özü qabağa düşdü və Alimamanqı aradan götürdü və tezliklə şəhərin yeni valisi oldu. Makato şəhəri yenidən qurub kral Ruanqın yanına hədiyyələrlə yollandı və baş verənləri ona danışdı. Necə ürəyinə yatdısa, hökmdar Makatoya Yağışlı Səma Kralı anlamını daşıyan yeni Pxra Çao Fa Kua kral adını verdi. Və o vaxtdan Makato öz hakimiyyətinin sərhədlərini çox-çox uzaqlara qədər genişləndirdi.

Tanapol (Lamdaun) Çadxaydi

ƏTİRŞAH SAÇLI QADIN

Qədim əyyamlarda Saenxam adlı kral artıq uzun illər idi ki, Vapi səltənətinə hakimlik edirdi. Kralın kraliça Kxammaen adlı bir arvadı var idi. Uzun illər bir yerdə yaşasalar da, övladları olmurdu. Bir gün kraliça tanrılara ibadət edib onlardan taxt-tacın varisi olacaq bir övlad istədi.

Və möcüzə baş verdi – ibadətdən az sonra kraliça hamilə qaldı və bir qız dünyaya gətirdi. Uşağa Sid adını verdilər. On beş yaşında krallıqda ondan gözəl qız yox idi.

Gənc şahzadənin özünün ikinci yarısını tapmaq zaman gələndə ürəyi nədənsə narahat idi. Qəm-qüssəni dağıtmaq üçün valideynlərinin razılığını alıb meşə gəzintisinə çıxmaq istədi.

Şahzadə və əyanlar gəzintidən həzz alan zaman gözlənilmədən bir bədheybətlə qarşılaşdılar. Bədheybət ac idi, saray adamlarından bir neçəsini yemək üçün qamarladı. Sid birtəhər onun əlindən qaçıb ağacın koğuşunda gizləndi.

Bədheybət çıxıb gedəndən sonra şahzadə onu müşayiət edənləri ha axtarsa da, tapa bilmədi və yolu azdı. Ümidsiz halda meşədə var-gəl edə-edə hara gedəcəyini bilmirdi. Bərk susadığından öküzün ayaq izindəki sudan içdi, amma boğazı daha da qurudu. Sonra filin ayaq izindəki suyu ovuclayıb içdi və dərhal canına qüvvət gəldiyini hiss edib yoluna davam etdi və sağ-salamat saraya qayıtdı.

Gəzintidən az sonra bir kişinin əli toxunmasa da, şahzadə hamilə qaldı. Kral qızından həqiqəti öyrənmək istəsə də, cavabın

açarı tapılmadı, çünki necə hamilə qaldığını şahzadə özü də bilmirdi. Şahzadə doqquz ay, doqquz gün, doqquz gecədən sonra əkiz bacı dünyaya gətirdi. Böyüyə "ətirşah saçlı qadın" anlamında olan Nanq Pxomxom, balacaya Nanq Lun adını verdilər. Hər iki bacı böyüyüb anaları kimi gözəl oldular. Bir gün qızlar heç vaxt üzünü görmədikləri ataları haqqında düşünüb onu axtarmaq üçün meşəyə yollanmaq qərarına gəldilər.

Bir neçə gündən sonra bacılar meşədə, onların üstünə hücum çəkən fillərin yırtıcı kralıyla – bədheybətlə qarşılaşdılar. Onlar bədheybətdən imdad diləyib bura nə məqsədlə gəldiklərini dedilər. Bədheybət düşündü ki, bu iki qız, bəlkə də, onun övladlarıdır. Və qızlara dedi ki, yalnız onun qanından olan məxluq xortumundakı sümüklərdən yapışıb belində otura bilər. İki bacıdan yalnız Nanq Pxomxom qalxa bildi, Nanq Lun isə yıxılıb o dəqiqə canını tapşırdı. Fillərin kralı Nanq Pxomxomu öz səltənətinə aparıb qayğısına qaldı. Nanq Pxomxom beş il fil-atanın nəzarəti altında yaşadı. İyirmi yaşının tamamında qız insan məskəninə getmək istədi. O, ətirşah telindən kəsib balaca mücrüyə qoydu, sonra bir məktub da yazıb əlavə elədi. Yazmışdı ki, onun ikinci yarısı olmaq üçün doğulan oğlanın yolunu gözləyir. Və mücrünü çaya atdı. Mücrü çayla üzə-üzə gəlib Pattan krallığına çatdı, amma elə sürətliydi ki, heç kim onu tuta bilmirdi. Qəribə mücrü əhvalatı kral Pxenqkxamın da qulağına çatdı və onu tutmaq da özünə müyəssər oldu. Məktubu oxuyub tellərin ətrindən bihuş olan kral onun sahibəsinə bir könüldən min könülə vuruldu və nə yolla olursa olsun, o qızı tapmaq istədi.

Kral çayın mənbəyinə yetişəndə suda bir neçə ətirli saç gördü və dərhal anladı ki, məqsədinə çatıb. Bir tərəfdə gizlənib Nanq Pxomxomun çaya çimməyə gəlməsini gözlədi və qızı görən kimi qarşısına çıxdı. İlk baxışdan bir-birilərinə aşiq oldular, fil-ataya heç nə demədən, gizlicə ər-arvad kimi birlikdə yaşadılar. Fil-ata qızının ondan nəsə gizlədiyindən şübhələnmişdi, çünki adam iyi hiss etmişdi. Amma qızı həqiqəti açıb demək istəmirdi.



Sevgililər hər şeyi üç il sirr kimi saxlasalar da, nəhayət, sirri açmaq qərarına gəlib, bir-birilərini sevdiklərini fil-ataya deyib, ondan əfv dilədilər. Fil-ata qızının həqiqəti ondan gizlətdiyinə görə pis oldu, onun əriylə çıxıb getmək istəməsini biləndə isə möhkəm xəstələndi. Son nəfəsində fil-ata qızına yaxşı arvad olmasını, ərinin qayğısına qalmasını vəsiyyət edib, göz yaşları içindi canını tapşırdı. Sevgililər kədərlənib ona sonuncu dəfə ehtiramlarını bildirdilər. Elə bu vaxt filin xortumundakı sümüklərdən biri qayığa, o biri isə avarlara çevrildi. Kral Pxenqkxam Nanq Pxomxomla birlikdə bu qayıqla öz səltənətinə üzdü. Saraya varid olan kral Nanq Pxomxomu öz kraliçası elan etdi. Sevgililər Pattan krallığında uzun illər xoşbəxt ömür sürdülər.

XEYİRXAHLIĞIN MÜKAFATI

Qədim əyyamlarda bir kənddə bir əkinçi yaşayırdı. Hər səhər işləmək üçün öz əkin sahəsinə yollanırdı. Bir gün torpağı şumlayanda yaxınlıqdakı meşənin yandığını gördü. Alovu söndürmək üçün əlinə taxta alıb meşəyə qaçdı. Yanğın təzə başlamışdı – yalnız yerdəki quru otlar yanırdı, ağaclar hələ alovdan qızışmamışdı. Odu əlindəki taxtayla söndürmək istəyəndə alovun bir ağacdan o birinə necə sürətlə keçdiyini gördü, yaxın gələndə ağacda büzüşüb qalan ilanın ümidsiz fısıltısını eşitdi. İlan yalvarırdı:

– Əkinçi, nə olar, məni xilas et!

Kəndli bu yalvarışların qabağında tab gətirə bilməyib taxtasını hələ alov dilimlərinin çatmadığı ağac budağından asılıb qalan ilana uzatdı. İlan canını qurtarmaq üçün qıvrıla-qıvrıla taxtaya dolanıb ağır-ağır yerə düşdü. Kəndlinin əlinə yaxınlaşanda qəflətən atılıb boynuna dolandı.

Əkinçi ilandan soruşdu:

– Bacım mənim, nə etmək fikrindəsən?

İlan fısıldadı:

– Səni sancmaq istəyirəm.

Əkinçi təəccübləndi:

– Mən səni odun, alovun içindən xilas etdim. Əvəzində məni sancmaq istəyirsən?! Mənim sənə elədiyim yaxşılığın mükafatı budurmu?

İlan cavab verdi:

– Özün də bilirsən ki, biz düşmənik. Sən məni xilas etsən də, əlimdən çıxa bilməyəcəksən.

– Sənin düşündüklərin ədalətsizlikdir. Gəl üç heyvandan, ya üç adamdan soruşaq, bu hadisəyə qiymət versin. Onların çıxardıqları qərar ikimiz üçün də məqbul olacaq – əkinçi təklif etdi.

İlan razılaşdı.

Onlar yola düzəldilər və bütün yol boyu, əlbəttə ki, ilan insanın boynundan düşmədi. Rastlarına örüşün küncündə otlayan bir qoca öküz çıxdı. İlan hadisəni olduğu kimi öküzə danışdı. Öküz əkinçiyə azğını açmağa belə imkan vermədən böyürdü:

– Dişlə, sanc, elə bərk sanc ki, canı o dəqiqə çıxsın. Bilirsiniz, cavan vaxtlarımda sahibim məni çox işlətsə də, qayğıma da qalırdı. Elə ki qocalıb əldən düşdüm, qapısından qovdu.

Bu sözləri eşidən ilan insana:

– Hazır ol, indi səni dişləyəcəyəm , – dedi.

Əkinçi ucadan:

– Axı sənin lə üçdən danışmışıq. Bu hələ birincidir. O birilər də belə desə, daha əlacım qalmır, – dedi.



İlan razılaşdı və onlar yollarına davam etdilər. Bir az getmişdilər ki, yolda rastlarına qoca bir qatır çıxdı. İlan hadisəni bu dəfə ona danışdı.

Qatırın cavabı da öküzün cavabından fərqlənmədi:

– Sahibim həmişə məni gecə-gündüz işlədib. Ən ağır yükləri belimə şəlləyərdi. Onda bir dəfə də insaf deyilən şey görmədim. Qocalıb yararsız hala düşən kimi də məni evdən qovdu. İndi bu meşədə tamam tək qalmışam. Hə, ilan, dişlə bu adamı, vaxt öldürmə, dişlə.

Kişi qorxudan tir-tir əsdi.

İlan:

– Hə, əkinçi, ölməyə hazır ol, boş-boşuna vaxt itirməyək, – dedi.

Kişi son ümiddən də yapışıb yalvardı:

– Biri də qaldı, – dedi, – xahiş edirəm, onu da dinləyək.

İlan:

– Yaxşı, yaxşı, – deyib həvəssiz halda razılaşdı və yollarına davam etdilər.

Bir müddət gedəndən sonra yolları meşə cığırından təpəlik səmtə buruldu. Orada rastlarına bir tülkü çıxdı. İlan indi də hər şeyi ətraflı şəkildə tülküyə danışdı.

Tülkü zavallı insana baxıb ilana:

– Mən səni dinlədim, – dedi. – İndi imkan ver, əkinçi danışsın. Amma əvvəlcə onun boynunu boşalt, yazıq boğula-boğula qalıb. Qoy rahat danışa bilsin.

İlan əkinçinin boynundan açılıb düşdü və quyruğu üstə qaldı.

Tülkü əkinçidən soruşdu:

– Əlində tutduğun nədir?

Əkinçi cavabında:

– Taxtadır, – dedi.

– Ay səfeh insan, bir halda ki əlində taxta da var, niyə axı onunla bu naşükür ilanı vurmursan? – tülkü təklif etdi.

Tülkünün bu sözlərindən ayılıb özünə gələn əkinçi taxtayla ilanı elə vurdu ki, dərhal canı çıxdı.

Beləliklə, tülkünün hiyləgərliyi əkinçinin həyatını xilas etdi, ilan isə naşükürlüyünün güdazına getdi-nəhayət, ədalət zəfər çaldı.

ÜÇ TƏNBƏL QARDAŞ

Qədim əyyamlarda ucqar kəndlərdən birində ata və üç oğlu yaşayırdı. Kəndli ata dolanışıq üçün səhərdən axşamacan yer şumlayır, məhsul yetişdirir, üzümlüyə və bağa baxırdı. Ata çox çalışqan olsa da, oğlanları tənbəl idi, ümumiyyətlə, əllərini ağdan-qaraya vurmurdular. Ata nə qədər eləsə də, onları düz yola gətirə bilmirdi. Qardaşlar bütün gün atanın yan-yörəsində var-gəl edə-edə asan və zəhmətsiz pul qazanmağı, varlı olmağı xəyal edirdilər.

Beləcə, günlər, aylar, illər bir-birini əvəz etdi və ata qocaldı. Ömrünün son günlərini yaşadığını hiss edən ata oğlanlarını yanına çağırıb:

– Övladlarım, son nəfəsimdə sizə bir sirr açmaq istəyirəm, – dedi. – Mən bütün ömrüm boyu qazandıqlarımı böyük bir sandığın içinə qoyub tarlada, dərin bir yerdə basdırmışam. Mən öləndə o sandığı tapıb şad-xürrəm yaşayarsınız.

Bu sözləri eşidən kimi oğlanlar dərhal sandığın yerini öyrənmək istədilər, amma artıq gec idi, ata dünyasını dəyişmişdi. Amma oğlanlar kədərlənmədilər, əksinə, atalarından onlara qalan sandığa görə sevindilər. Bircə onu sual etdilər ki, görəsən, ata qazıb gizlətdiyi xəzinə barədə niyə bu vaxtacan heç nə deməyib.

Atanı dəfn edəndən sonra oğullar əllərinə bel alıb tarlaya üz tutdular. Amma bura çox böyük idi, sandığı harada axtaracaqlarını bilmirdilər. Həm də ata demişdi ki, sandığı çox dərində qazıb basdırıb. Xeyli mübahisə edəndən sonra qərara gəldilər ki, tarlanı bu başından o başınacan qarış-qarış qazsınlar.” Düzdür,

bu, çox vaxt apara bilər, amma xəzinəyə görə zəhmətimizə dəyər", – düşündülər.

Üç tənbəl qardaş tarlanı qazmağa başladı. Onlar tarlanı hər qarışınacan qazdılar, amma günlər bir-birini əvəz etsə də, sandıq tapılmadı. Bu müddət ərzində evdə atadan qalan nə vardısa, yeyib qurtardılar. Nələri vardısa, hamısı sanki havaya sovruldu. Axırıncı qəpiyi də xərcləyəndən sonra daha səylə qazmağa başladılar ki, xəzinəni tapmağı yubatmasınlar, amma əllərinə heç nə keçmədi. Nəhayət, bütün tarla boya-boy şumlanıb qurtarsa da, sandıq tapılmadı ki, tapılmadı.

Əllərində heç nə qalmamışdı. Kəndlinin oğlanları tamam ümidsiz halda fikrə getdilər. Bu vaxt qardaşlardan biri:

– Nə qədər axtarsaq da, xəzinəni tapa bilmədik, – dedi. – Heç nəyimiz yoxdur. Bu tarlanı qazmağa canımız da gedib, vaxtımız da. Gəlin dolanışıq üçün burada nəsə əkək, kim bilir, bəlkə, əmələ gəldi.

Başqa əlacları yox idi, o biri iki qardaş da razılaşdı və birlikdə tarlaya sünbül toxumu səpdilər. Üç qardaşın torpağa səpdiyi toxum bərəkətli oldu. Qardaşlar səylə çalışır, biçindən sonra yığdıqları taxılı satıb puluna şad-xürrəm yaşayırdılar. Qardaşlar hər dəfə atadan qalan tarlanı şumlayıb məhsulunu yığanda deyirdilər: "Əvvəllər anlamasaq da, atamız, həqiqətən də, bizə xəzinə miras qoyub. Əsl xəzinə insanın öz halal zəhməti ilə qazandığı azuqədir". Qardaşlar o vaxtdan tənbəlliyin daşını atdılar, qollarını çırmalayıb zəhmətlə qazandıqları puldan özlərinə xoşbəxt həyat qurdular və heç vaxt heç kimin yardımına ehtiyacları olmadı.

Bu rəvayət zəhməti dəyərləndirməyən bütün tənbəllərə aiddir.

ÜÇ PƏHLƏVAN

Belə-belə işlər Qədim əyyamlarda bir kişi vardı. Pis-yaxşı dolanırdı. Bu kişinin uç oğlu vardı. Ay parçası kimi gözəl olan oğlanlar həm də savadlı, dərrakəli idilər, pis adamlara yaxın getmirdilər.

Böyük oğul Tonquç-batırın iyirmi bir, ortancıl oğul Ortanc-batırın on doqquz, kiçik oğul Gəncə-batırın isə on səkkiz yaşı vardı. Bir gün ata oğlanlarını çağırdı, hər üçünü əyləşdirib nəvazişlə başlarını sığalladı və dedi:

– Oğlanlarım, bilirsiziniz ki, varlı deyiləm, məndən sizlərə elə bir var-dövlət qalmayacaq. Nəyəsə ümid etməyin və gözləməyin. Mən sizə üç qabiliyyət vermişəm. Birincisi, sizi sapsağlam böyütmüşəm – güclü olmusunuz, ikincisi, əlinizə qılınc vermişəm – döyüşkən olmuşunuz, üçüncüsü, heç nədən qorxmamağı öyrətmişəm-cəsur olmusunuz. İndi də sizə üç məsləhətim var. Qulağınıza sırğa edin: dürüst olun ki, rahat yaşaya biləsiniz, özündənrazı olmayın ki, sonra xəcalətdən qızarmayasınız və tənbəl olmayın ki, xoşbəxt yaşaya biləsiniz. Qalanlarını isə özünüz düşünün. Sizə üç at verəcəyəm: ağ, qara və boz at. Torbalarınıza da birhəftəlik azuqə yığmışam. Xoşbəxtliyiniz öz əlinizdədir. Yola düzəlin, dünya gör-götür dünyasıdır. Dünyanı dərk etməsən, adam olub adamlara qoşula bilməzsən. Gedin, xoşbəxtlik quşunu axtarın. Əlvida, mənin oğlanlarım!" Ata bu sözləri deyib ayağa qalxdı və evdən çıxdı.

Qardaşlar yola hazırlaşmağa başladılar. Sübh tezdən atlarının belinə minib tərpəndilər. Qardaşlar bütün gün yol gedib xeyli

uzaqlaşdılar. Axşam dincəlmək istədilər. Atlardan düşüb qarınlarını doyurdular və yatmazdan əvvəl məsləhətləşdilər. Böyük qardaş:

– Burada ins-cins gözə dəymir, hamılıqla yatsaq, düz olmaz. Bir gecəni üç yerə bölüb növbəylə keşik çəkək, – dedi.

Söz ağıllarına batdı.

Birinci böyük qardaş Tonquç növbə çəkdi və ikisi yatdı. Tonquç-batır ayın işığında qılıncına baxa-baxa bir xeyli oturub qaldı Sakitlik idi. Sanki yuxudaydı. Qəflətən meşə tərəfdən səs gəldi. Tonquç əlindəki qılıncla hazır vəziyyətdə dayandı. Qardaşların gecələdikləri yerdən bir az aralıda şir yuvası var idi. Adam iyini alan kimi şir yuvasından çıxmışdı.

Tonquç-batır şirin öhdəsindən tək gələcəyinə əmin idi, odur ki qardaşlarını narahat etməmək üçün kənara qaçdı, şir də onun dalınca cumdu. Tonquç-batır qaça-qaça cəld döndü,qılıncla şirin ayağına zərbə endirib yaraladı. Yaralı şir yenə ona hücum etdi və Tonquç-batır yenə yayınıb bu dəfə var gücüylə yırtıcının başına zərbə endirdi və şirin canı çıxdı.

Tonquç-batır şirin üstündə oturub dərisindən nazik zolaq kəsdi, köynəyinin içinə qoyub heç nə olmamış kimi yatan qardaşlarının yanına qayıtdı.

Sonra ortancıl qardaşın keşik çəkmək növbəsi gəldi və Ortanc-batırın növbəsində heç nə baş vermədi. Ən axırda üçüncü qardaş Gəncə-batır yuxudan oyanıb səhərəcən qardaşlarını qorudu. İlk gecə belə keçdi.

Səhər qardaşlar yenidən yola düzəldilər. Xeyli gedib dərə-təpə aşandan sonra böyük bir dağın yanında ayaq saxladılar. Dağın ayağında qollu-budaqlı tənha bir ağcaqayın var idi. Ağacın gövdəsinin altından bir bulaq axırdı. Bulağın yanındakı mağarada isə ilanlar şahı Əjdər-sultan yaşayırdı.

Pəhləvan qardaşların bundan xəbəri yox di. Rahatca atlarını bağlayıb yallarını daradılar, yem verib özləri də şam eləməyə oturdular. Yatmazdan əvvəl birinci gecədə olduğu kimi növbələşmək

qərarına gəldilər. Əvvəl böyük qardaş Tonquç-batırın, sonra ortancıl qardaş Ortanc-batırın növbəsi gəldi.

Aylı gecəydi, hər tərəfə sakitlik çökmüşdü. Amma qəflətən səs eşidildi. Əjdər-sultan küp boyda başı, şalban boyda bədəniylə sürünə-sürünə mağaradan bulağa tərəf gəldi. Ortanc-batır qardaşlarının yuxusuna haram qatmamaq üçün bulaqdan aralanıb çöllüyə qaçdı.

Adam iyini alan Əjdər-sultan onun dalınca süründü. Ortanc-batır kənara atılıb qılıncla ilanlar şahının quyruğuna zərbə endirdi. Əjdər-sultan qıvrıldı və pəhləvan çevik hərəkətlə bu dəfə ilanın belindən vurdu. Ağır yaralanan ilanlar şahı Ortanc-batırın üstünə atıldı və ortancıl qardaş bu dəfə ölümcül zərbəylə ilanın leşini yerə sərdi.

Sonra ilanın qabığından nazik bir zolaq kəsib köynəyinin içinə qoydu və heç nə olmamış kimi qardaşlarının yanına qayıdıb öz yerində oturdu. Sonra balaca qardaş Gəncə-batırın növbəsi gəldi. Sübh tezdən qardaşlar yenidən yola çıxdılar.

Çöl boyu xeyli gedib gün batanda bir təpəliyə gəlib çıxdılar. Dincəlmək üçün atlarından düşdülər. Ocaq qalayıb yemək yedilər və yenidən növbələşdilər. Əvvəl böyük, sonra ortancıl, nəhayət, növbə kiçik qardaşa çatdı. Gəncə-batır oturub qardaşlarının yuxusuna keşik çəkirdi. Ocağın nə vaxt söndüyündən də xəbəri olmadı. "Ocaqsız qala bilmərik", – düşündü.

Təpənin üstünə qalxıb ətrafa baxdı. Uzaqdan arabir işıq yanıb-sönürdü. Gəncə-batır atına minib həmin səmtə çapdı. Xeyli gedəndən sonra bir evə gəlib çatdı. Gəncə-batır atından düşüb pəncəsi üstə astaca pəncərəyə yaxınlaşıb içəri baxdı.

Otaq işıqlıydı, ocağın üstündəki qazanda yemək bişirdi. Və onun ətrafında iyirmi adam oturmuşdu. Hamının sifəti qəzəbli, gözləri bərəli idi. Görünür, nəsə pis bir şey haqqında fikirləşirdilər.

Gəncə-batır düşündü: "Aha, deməli, bura quldur dəstəsi toplaşıb. Onları belə qoyub getmək dürüst adama yaraşan iş

deyil. Gərək bir biclik işlədim: çalışıb inamlarını qazanım, sonra da işimi görüm".

Qapını açıb içəri girdi. Quldurlar dərhal qılınclarından yapışdılar. Gəncə-batır quldurların başçısına üzünü tutub:

– Ağa, mən uzaq ellərdən gəlmişəm, – dedi, – nökəriniz olaram. Bu vaxtacan xırda işlərlə məşğul olmuşam. Çoxdan arzulayırdım ki, sizin kimi hansısa dəstəyə qoşulum. Ağa, eşidəndə ki, buradasınız, qaça-qaça gəldim. Cavan olmağıma baxmayın, ümidim ancaq sizədir. Məni də dəstənizə qəbul edin. Əyri-üyrü işlərdən az başım çıxmır. Səngər qazmağı, adam güdməyi də bilirəm. Sizin işinizə yarıyaram.

Gəncə-batır əlini döşünə qoyub təzim etdi və ocağın yanında oturdu. Bişən yeməyi həzm-rabedən keçirdilər.

Həmin gecə quldurlar şah xəzinəsini qarət etmək qərarına gəldilər. Qarınlarını doyurandan sonra atlarına minib yola düzəldilər. Gəncə-batır da onlara qoşuldu. Az sonra saray bağçasına çatıb atlardan düşdülər və saraya necə girəcəklərini götür-qoy etdilər. Nəhayət, belə razılaşdılar: əvvəlcə Gəncə-batır hasarı aşıb keşikçilərin yatıb-yatmadığını öyrənir, ardınca da o birilər hasarı aşıb gözlənilmədən dəstəylə saraya soxulmaq üçün bağda gözləyir. Quldurlar hasara qalxmaq üçün Gəncə-batıra kömək etdilər. Pəhləvan oradan yerə atılıb bağı yoxladı və keşikçilərin yatdığını görüb yerdən tapdığı nərdivanı hasara dayadı, sonra nərdivana qalxıb divardan başını çıxardı və astadan:

– Ən münasib vaxtdır, – dedi.

Quldurbaşı dəstədəkilərə bir-bir hasarı aşmağı əmr etdi. Birinci quldur elə təzəcə hasarın üstünə çatıb ayağını nərdivana qoymaq istəyirdi ki, Gəncə-batır qılıncı çəkib boynunu vurdu və başı yerə düşüb diyirləndi:

– Sən də düş, – deyib quldurun cansız bədənini də yerə atdı.

Qısası, bütün quldurların boynunu vurub, sonra saraya yollandı. Yatmış keşikçilərin yanından asta-asta keçib üçqapılı hücrəyə daxil oldu. Burada keşik çəkən on qulluqçu qız da yatmışdı.

Gəncə-batır hamıdan xəbərsiz birinci qapıdan zər-zibalı otağa keçdi. Divarlardan asılan ipək pərdələr bənövşəyi ilmələrlə işlənmişdi. Ağ parçayla örtülmüş gümüş çarpayıda gözəllikdə dünyada misli-bərabəri olmayan bir qız uzanmışdı. Gəncə-batır səssizcə qıza yaxınlaşdı. Barmağındakı qızıl üzüyü çıxarıb cibinə qoydu. Sonra geri qayıdıb ürəyində fikirləşdi: "İndi də ikinci otağa baxım, görüm orada nə sirri-xuda var?"

Qapını açıb gördüyü bu dəbdəbəli otaq quş təsvirləri ilə işlənmiş ipək parçalarla bəzədilmişdi. Ortada qoyulan gümüş çarpayıda yatmış on qulluqçu qızın əhatəsində gözəl bir qız uzanmışdı. Bu qız aya deyirdi, sən çıxma, mən çıxım, günə deyirdi, sən çıxma, mən çıxım. Gəncə-batır qolbağını ehmalca qızın qolundan çıxarıb cibinə qoydu. Sonra yenə geri qayıtdı.

"İndi də üçüncü otağa baxmalıyam", – düşündü.

Burada zər-ziba daha çox idi, divarlar moruğu rəngdə ipəklə bəzənmişdi. Gümüş çarpayıda on altı yaraşıqlı qulluqçu qızın əhatəsində bir gözəl yatmışdı. Qız elə gözəl idi ki, hətta parıltısı





ilə göz qamaşdıran dan ulduzu, gözəllik tanrısı belə ona həsəd aparırdılar. Gəncə-batır qızın sağ qulağındakı sırğanı astaca çıxarıb cibinə qoydu. Sonra saraydan çıxıb hasarı aşdı və atına minib qardaşlarının yanına yollandı. Qardaşları hələ oyanmamışdılar. Beləcə, Gəncə-batır səhərəcən oturub qaldı.

Sübh tezdən pəhləvanlar yeməklərini yeyib atlarını yəhərlədilər və minib yola düzəldilər. Az sonra şəhərə girib karvansarada yerləşdilər. Atlarını bağlayıb dinclərini almaq üçün çayxanaya – çay süfrəsi arxasında oturmağa getdilər.

Bu zaman carçı çöldən car çəkdi:

– Ay camaat, sonra eşidib-eşitmədim deməyin! Bu gecə saray bağında kimsə iyirmi quldurun boynunu vurub, şah qızlarının isə hərəsindən bir qızıl oğurlanıb. Şah istəyir ki, kiçikdən böyüyəcən bütün səltənət əhli bu qəribə hadisənin izahına, bu cür igidlik göstərən qəhrəmanın kimliyinə aydınlıq gətirilməsinə yardımçı olsun. Kiminsə evində yad şəhərlərdən, yad məmləkətlərdən gələn varsa, dərhal saraya gətirilsin.

Karvansaranın sahibi öz qonaqlarına şahın hüzuruna getməyi təklif etdi. Qardaşlar qalxıb tələsmədən saraya yollandılar.

Şah qardaşların yadelli olduğunu öyrənən kimi əmr etdi ki, onları dəbdəbəli otağa aparsınlar, vəzirə də tapşırdı ki, vəziyyəti bilmək üçün sorğu-sual etsin.

Vəzir:

– Əgər birbaşa soruşsaq, bəlkə də, dinib-danışmayacaqlar, gizlədəcəklər, – dedi. – Yaxşısı budur, onları tək buraxıb danışıqlarına xəlvəti qulaq asaq.

Oturduqları otaqda qardaşlardan başqa heç kim yox idi. Qarşılarında süfrə açıb cürbəcür təamlar gətirdilər. Qardaşlar yeməyə başladılar. Qonşu hücrədə isə şahla vəzir sakitcə oturub onlara qulaq asırdı.

Tonquç-batır:

– Bizə quzu əti gətiriblər, – dedi, – amma it südü əmmiş quzu. Məgər şahlar it ətindən iyrənmir? Qərbədir, bəkməzdən də adam iyi gəlir.

– Doğrudur, – Gəncə-batır təsdiqlədi, – bütün şahlar qaniçəndir. Odur ki bəkməzə insan qanı qatıldığını eşitsən, təəccüblənib eləmə. Amma süfrəyə baxanda bir şeyə də təəccübləndim. Siniyə düzülən kökələr elə dadlıdır ki, hiss olunur, onları yaxşı bir aşpaz bişirib.

Tonquç-batır:

– Görünür, elədir, – dedi. – Nə isə, aydın məsələdir ki, bizi bura şah sarayında baş verənləri öyrənmək üçün çağırıblar. Təbii ki, sorğu-sual edəcəklər. Nə deyəcəyik?

Ortanc-batır dilləndi:

– Əsas odur ki, yalan danışmayaq, olanı deyək.

Gəncə-batır:

– Hə, bu üç gündə yolda başımıza gələnləri bir-birimizə danışmağın vaxtı çatıb,– dedi.

Beləcə, Tonquç-batır birinci gecə şirlə necə cəngə girdiyindən danışdı, sonra şirin dərisindən kəsdiyi zolağı çıxarıb qardaşlarının qabağına atdı. Ardınca Ortanc-batır da ikinci gecə başına gələnləri nəql etdi və ilanlar şahının qabığından kəsdiyi zolağı göstərdi. Nəhayət, Gəncə-batır üçüncü gecə başına gələnləri danışıb özüylə götürdüyü qızılları qardaşlarına göstərdi.

Şahla vəzir məsələdən hali oldular, amma qardaşların ət, bəkməz və kökə barədə dediklərindən narahat oldular. Odur ki ilk əvvəl çobanı çağırtdırdılar. Onu görən kimi şah soruşdu:

– Düzünü de, dünən göndərdiyin quzu it südü əmib?

Çoban əl-ayağa düşüb yalvardı:

– Ey hökmdar, əgər boynumu vurdurmasanız, deyərəm.

Şah:

– Narahat olma, həqiqəti danış, – dedikdə çoban özünə gəlib danışdı:

– Qışda qoyunum soyuqdan donub tələf oldu. Mənim də quzuya yazığım gəldi. Onu itə verdim. İt də quzunu öz südüylə əmizdirdi. Dünən sizə həmin quzunu göndərdim, çünki başqa heyvanım qalmayıb, hamısını xidmətçiləriniz gəlib aparıb.

Sonra şah bağbanı saraya çağırtdırdı:

– Düzünü danış, – dedi, – məgər bəkməzə insan qanı qatmısan?

Bağban da çoban kimi əl-ayağa düşdü:

– Hökmdarım, bir hadisə baş vermişdi, əgər məni edam etdirməsəniz, bütün həqiqəti danışaram.

Şah:

– Əfv edirəm səni, danış, – dedi.

Və bağban nəql etdi:

– Ötən yay kimsə hər gecə sizin üçün tənəkdə saxladığım ən yaxşı üzüm salxımlarını oğurlayırdı. Odur ki üzümlükdə gizlənib keşik çəkməli oldum. Onu görən kimi əlimdəki dəyənəklə var gücümlə başından vurdum. Sonra üzüm kolluğunun altında dərin çala qazıb meyiti basdırdım. Növbəti il tənəklər elə qol-qanad açdı ki, üzüm salxımları yarpaqlardan çox oldu. Amma dadı nəsə dəyişdi. Odur ki mən sizə üzümün özünü yox, bəkməzini göndərdim.

Kökələrə gəlincə, onları siniyə şah özü düzmüşdü. Axı şah aşpaz oğluydu.

Şah pəhləvanlar oturan otağa girib salamlaşdı və dedi:

– Sizin burada danışdıqlarınız hamısı doğru çıxdı. Odur ki sizi daha çox bəyəndim. Sizdən bir xahişim var, mənim əziz qonaqlarım, zəhmət olmasa, dinləyin.

Tonquç-batır:

– Eşidirik, – dedi, – əgər bacardığımız iş olsa, yerinə yetirərik.

Şah ürəyində olanları açıb dedi:

– Mənim dünyada gözümün ağı-qarası üç qızım var. Burada qalsanız, qızlarımı sizə verərəm, bütün şəhər əhlini yığıb toyunuzu edərəm, qırx gün hamını plova qonaq edərəm.

Tonquç-batır:

– Çox yaxşı təklifdir, – dedi, – amma biz şah övladı deyilik axı, adi bir kəndlinin övladlarıyıq. Şahzadə qızlar hara, biz hara? Sizin var-dövlətiniz şahlıqla, bizimki isə alın təriylə qazanılıb.

Şah israr etdi:

– Düzdür, mən bu məmləkətin sahibiyəm, amma sizləri

atanız öz əlinin zəhməti ilə böyüdüb və bir halda ki o kişi sizin kimi pəhləvanlar ərsəyə gətirib, məndən nəyi əskikdir? Əslində, o məndən də zəngindir. İndi mən – bu aşiq şahların, dünyanın hakimi-mütləqlərinin istədikləri qızlarımı qarşınızda diz çöküb yalvara-yalvara sizə gəlin vermək istəyirəm.

Qardaşlar razılaşdı. Bütün məmləkət düz qırx gün bu toyu bayram etdi və gənc pəhləvanlar şah sarayında yaşamağa başladılar. Şah kiçik kürəkəni Gəncə-batırı hamıdan çox istəyirdi.

Bir gecə şah bağda yatmışdı. Qəflətən üzümlüklərin arasından zəhərli bir ilan sürünüb şahı sancmaq istəyirdi ki, Gəncə-batır özünü yetirib qılıncını qınından çıxardı və ilanı iki bölüb kənara atdı.

Gəncə-batır qılıncını qınına qoyanda şah oyandı və ürəyində şübhələr yarandı: "Deyəsən, qızımı ona verməyimlə kifayətlənmək istəmir, məni öldürüb taxt-taca sahib olmaq həvəsinə düşüb".

Şah vəziri hüzuruna çağırıb hadisəni danışdı. Vəzir artıq çoxdan idi ki, qardaşlara qarşı kin bəsləyir, münasib şərait gözləyirdi. Odur ki şahın başını doldurmağa başladı:

–Məndən məsləhət-zad istəməyin. Hər yoldan ötənə qız verərlər?! Buyurun, indi bu sevimli kürəkəniniz sizi öldürmək istəyir. Ehtiyatlı olun, hansısa bir yolla onsuz da sizə qəsd edəcək.

Şah vəzirin sözlərinə inanıb əmr etdi:

– Gəncə-batırı zindana atın.

Gəncə-batırı zindana saldılar. Bu xəbərdən Gəncə-batırın cavan şahzadə arvadı qəm dəryasına batdı. Bütün gün ağlamaqda al yanaqları soldu. Nəhayət, bir gün atasının ayaqlarına yıxılıb yalvardı ki, öz kürəkənini zindandan azad etsin.

Şah Gəncə-batırın zindandan hüzuruna gətirilməsini əmr etdi:

– Gör bir sən neçə tamahkar adamsan, – dedi, – niyə məni öldürmək istədin?

Gəncə-batır cavabında şaha tutuquşunun rəvayətini danışdı:

– Qədim əyyamlarda bir şahın sevimli tutuquşusu var idi. Bu quşu o qədər sevirdi ki, bir an belə onsuz qala bilmirdi. Tutuquşu həmişə şaha xoş sözlər deyir, onu əyləndirirdi. Bir gün quş şahdan bir xahiş etdi:

– Mənim yurdum Hindinstanda atam, anam, qardaşım, bacılarım yaşayır, – dedi. – Çoxdandır onlardan uzaq düşmüşəm. İndi sizdən xahiş edirəm, məni iyirmi günlüyə onların yanına buraxasınız. Buradan ora altı gün, oradan da bura altı gün uçmağımın vaxtı eləyir, səkkiz günü də evdə atamla, anamla, qardaş-bacılarımla keçirərəm.

Şah razı olmadı:

– Yox, – dedi, əgər səni buraxsam, məni burada darıxa-darıxa qoyub qayıtmayacaqsan.

Tutuquşu onu inandırmağa çalışdı:

– Hökmdar, – dedi, – mən sözümün ağasıyam.

Şah cavabında:

– Yaxşı, əgər belədirsə, onda səni buraxıram, amma cəmi iki həftəliyə.

Tutuquşu sevindi:

– Xudahafiz, sağlıq olsa, qayıdaram, – deyib qəfəsdən çıxdı və hamıyla sağollaşıb cənuba uçdu. Şah dayanıb arxasınca baxdı. Tutuquşunun qayıdacağına inanmırdı.

Tutuquşu altı gün uçandan sonra Hindistana çatıb valideynlərini tapdı. Zavallı yaman sevinirdi – özünü gah günə, gah sərinə verir, o təpədən bu təpənin, o ağacdan bu ağacın üstünə uçur, yaşıl meşələrin, otların, çiçəklərin ətrini ciyərinə çəkir, qohum-əqrəbaya qonaq gedirdi. Beləcə, iki günün necə gəlib-keçdiyindən xəbəri olmadı. Təzədən qapanmış həyata, qəfəsə qayıtmaq vaxtı yetişdi. Ata- anasından, qardaş-bacılarından ayrılmaq tutuquşuya ağır gəlirdi. Şən dəqiqələr kədərli saatlarla əvəz olunacaqdı. Qanadları sallanmışdı. Görəsən, bu qanadlarla bir də bura qayıda biləcəkdimi? Yola salanların tutuquşuya yazığı gəldi və ona şahın yanına qayıtmamağı məsləhət gördülər. Tutuquşu cavabında:

– Yox, mən söz vermişəm, – dedi. – Sözümün də ağasıyam!

Tutuquşulardan biri:

– Sən də danışdın, – dedi. – Hansısa şahın sözünə əməl etdiyini heç görmüsən? Əgər şahında insaf olsaydı, səni on dörd il qəfəsdə saxlayıb cəmi on dörd günlüyə azadlığa buraxmazdı. Məgər sən qəfəsdə yaşamaq üçün doğulmusan? Kimisə əyləndirmək üçün öz azadlığını qurban vermə! Sənin şahının zülmü rəhmindən çoxdur. Şahla pələngə yaxın olmaq ağılsızlıqdır.

Amma tutuquşu məsləhətə qulaq asmayıb uçmağa hazırlaşdı. Onda anası söhbətə qarışdı:

– Mənim də sənə bir məsləhətim var, – dedi. – Biz tərəflərdə həyat ağacı bitir. Onun meyvəsindən cəmi birini yeyən qoca cavan oğlana, qarı cavan qıza çevrilir. Bu qiymətli meyvələrdən şaha aparıb xahiş elə ki, səni buraxsın. Bəlkə də onda ədalət hissi oyanar və səni azadlığa buraxar.

Bu məsləhəti hamı təqdir etdi. Dərhal üç həyat meyvəsi gətirdilər və tutuquşu qohum-əqrəbasıyla vidalaşıb şimala uçdu. Hamı ürəyində böyük ümidlərlə arxasınca baxdı.

Tutuquşu altı gündən sonra saraya çatdı və meyvəni şaha verib sehrini izah etdi. Şah sevinib tutuquşunu buraxacağını vəd etdi.

Vəzir hirs-hikkəsindən işi burmaq qərarına gəldi:

– Şahım, bu quşun gətirdiyi meyvəni siz hələ yeməyin, – dedi. – Gəl əvvəlcə yoxlayaq, əgər deyilən kimidirsə, onu yemək heç vaxt gec deyil.

Şah məsləhəti bəyəndi. Vəzir isə fürsət tapıb həyat meyvəsinin ikisinə zəhər qatdı və dedi:

– Hə, indi yoxlaya bilərik.

– İki tovuzquşuna meyvəni yedirtdilər və ikisi də elə həmin andaca öldü.

Vəzir soruşdu:

– Şahım, əgər bu meyvəni siz yesəydiniz, necə olardı?

– Mən də ölərdim! – şah bağırdı və zavallı tutuquşunu qəfəsdən çıxarıb başını qopardı. Beləcə, yazıq tutuquşu şahdan "mükafatını" aldı.

Az sonra şah bir qocaya qəzəblənib onun edamına fərman verdi. Şah cəza kimi tutuquşudan qalan üçüncü meyvəni ona yedirtməyi istədi. Meyvəni yeyən kimi qocanın ağ saçları şəvə kimi qapqara oldu, mırıq ağzına təzə dişlər çıxdı, gözləri gənclik ehtirasıyla alışıb-yandı. Qoca iyirmi yaşlı cavana çevrildi.

Şah sevimli tutuquşunu nahaqdan öldürdüyünü anlasa da, artıq gec idi.

Gəncə-batır bir qədər susduqdan sonra şaha:

– İndi isə sizə yuxuda olduğunuz vaxtda nəyin baş verdiyini izah edəyəcəm, deyib bağa tərəf getdi və oradan iki yerə bölünmüş ilan bədəni gətirdi.

Şah Gəncə-batırdan üzr istədi. Onun cavabı isə belə oldu:

– Hökmdar, icazə verin, qardaşlarımla öz yurdumuza, evimizə qayıdaq. Şahlarla firavanlıqda və əmin-amanlıqda yaşamaq mümkün deyil.

Şah nə qədər dilə tutub yalvarsa da, pəhləvanları yola gətirə bilmədi. Qardaşlar:

– Bizlərdən şah sarayında yaşayan əyan alınmaz. Biz öz zəhmətimizlə yaşamağa öyrəşmişik, – dedilər.

Şah:

– Onda heç olmasa qızlarım mənimlə qalsın, – desə də, söz ağzından çıxmamış şahzadələrdən cavab gəldi:

– Biz öz ərlərimizdən ayrılmayacağıq!

Beləcə, gənc pəhləvanlar öz arvadları ilə doğma yurdlarına, atalarının yanına qayıdıb öz zəhmətləri ilə şad-xürrəm ömür sürdülər.

DOĞRU TUQRI, OĞRU EQRI

Qədim əyyamlarda qışlaqlardan birində Tuqrı adlı cavan bir oğlan yaşayırdı. Tuqrınun atından başqa heç nəyi yox idi. Bütün qışlaqları gəzib iş axtarsa da, tapmadı. Onda atına minib xoşbəxtlik quşunu uzaq məmləkətlərdə axtarmağa yollandı.

Az getdi, çox getdi, bir piyada yolçuyla rastlaşdı. Tuqrı ondan kim olduğunu, haradan gəlib, hara getdiyini soruşdu. Yolçu cavabında:

– Adım Eqrıdır, özümə iş axtarıram, – dedi.

– Mənim də adım Tuqrıdır. Gəl dost olaq, bir yerdə işləyib, bir yerdə yaşayaq.

Və onlar ömürlük dost olmağı əhd etdilər.

Tuqrının piyada dostuna yazığı gəldi və ona bir az at belində getməyi təklif etdi. Eqrı ata minən kimi qamçıyla elə vurdu ki, heyvan yerindən götürüldü, izi-tozu da qalmadı.

Tuqrı köks ötürdü: ona sadiq dost olacağına and içən adam özünü ən qatı düşmən kimi aparmışdı.

Amma nə edə bilərdi – Tuqrı yoluna piyada davam etdi. Hava qaralanda ensiz bir cığır görüb onunla getdi. Bu cığır onu lal meşənin dərinliyinə gətirib çıxardı. Qəflətən alçaq təpəliyin üstündə köhnə təndir sobası görüb düşündü: "Hər halda, zülmət qaranlıqda meşənin içiylə getmək qorxuludur, səhərəcən burada yatsam yaxşıdır". Və Tuqrı sobanın içinə girdi.

Soba qoyulan təpəlikdə gecələr buranın sakinləri: meşənin şahı – şir, vəzirləri – pələng və ayı, dağlı canavar, cır səsli çaqqal və nağılçı tülkü toplaşırdı.

Ay görünən kimi çaqqal qaça-qaça gəlib uladı və o birilər də bu səsə toplaşdılar. Sonda meşənin şahı – şir gəlib hörmət-izzətlə öz yerində oturdu. Əvvəlcə nağılçı tülkü danışdı.

– Buralarda bir mağara var. Artıq on ildir ki, mən orada yaşayıram və bu müddətdə onun içinə nə desən yığmışam. Xalçalar, pərdələr, yorğan-döşəklər, libaslar... Adamlara məxsus nə varsa, mənim evimdə tapa bilərsən. Hələ dadlı-duzlu təamları demirəm, – kifayət qədər ehtiyatım var!

Tuqrı bunu eşidib düşündü: "Oho! Bu tülküyə qonaq getmək pis olmazdı".

Tülküdən sonra vəzir-ayı dilləndi:

– Bu nədir ki? Bax biz tərəfdə hündür qarağacın altında iki cavan ting bitib. Bu tinglərin yarpaqları dünyadakı bütün xəstəliklərin dərmanıdır. Bizim şəhərin şahının qızı yeddi ildir yataqdadır. Şah belə bir fərman verib: "Qızımı kim sağaltsa, ona verəcəyəm! Kim bu işi boynuna götürüb sağalda bilməsə, boynunu vurduracağam!" Artıq şah çox təbibi edam edib. Bax əgər kimsə bu qarağacın tinglərinin yarpaqlarını suda qaynadıb qıza içirtsə, o dəqiqə sağalacaq.

Ayıdan sonra dağlı canavar söz aldı.

– Meşənin talasında qırx min qoyundan ibarət bəy sürüsü otlayır. Mən hər gün o sürüdən iki qoyun yeyirəm. Çobanlar min yola əl atsalar da, məni tuta bilmirlər. Axı onlar yaxınlıqda – təpəliyin yanında yaşayan qocanın itindən xəbərsizdirlər. Əgər sürünü qorumaq ona etibar olunsa, məni tikə-parça eləyər.

Ardınca vəzir pələng dilləndi:

– Canavarın dediyi həmin bəyin on min başlıq at ilxısı da var. Onlar meşənin enişində otlayırlar. Hər gün atlarından birini oğurlayıb aparıram. İlxıda qara zolaqlı ağ bir at var. Kim bu ata minsə, gəlib məni yaxalaya bilər... Yaxşı ki bəxtimdən heç kim bunu bilmir.

Pələng sözünü bitirəndə hava işıqlandı və heyvanlar öz yuvalarına dağılışdılar.

Təpəliyin boşaldığını görən Tuqrı təndirdən çıxıb ilk əvvəl ayının dediyi qarağacı axtarıb tapdı və onun tinglərindən bir neçə yarpaq qopardı.

Sonra qoyun sürüsü tərəfə gedib çobanı tapdı, salamlaşıb hal-əhval tutdu. Çoban gileyləndi:

– İşlər pisdir, sürüyə bir canavar daraşıb, qoyunları aparır. Sürünün sahibi bilsə, başıma oyun açacaq. Mən yazıq bu canavardan sürümü necə qurtarım?

Tuqrı:

– Qəm eləmə, – dedi, – mən sürünü canavardan xilas edərəm.

Qocanın yanına gedib itini istədi və gətirib çobana verdi. Çobanın işləri düzəldi. İt elə ilk həmlədəcə canavarı elə boğub dişlədi ki, canını güclə qurtardı.

Tuqrı yoluna davam edib at ilxısını tapdı. Çobanla salamlaşanda o da öz növbəsində pələngdən şikayət etdi. Tuqrı ona da yol göstərdi:

– Qara zolaqlı ağ atını yəhərlə, həm də mənə bir uzun qalın qamçı ver.

Tuqrı qamçı əlində ata minib pələngi gözləməyə başladı.

Gecə vəzir pələng gəlib çıxan kimi ilxıya hücum çəkdi. Tuqrı əlindəki qamçıyla onu elə vurdu ki, o saatca canı çıxdı.

Çoban xilaskarının mindiyi atı Tuqrıya hədiyyə etdi. Tuqrı atının belində şəhərə üz tutdu. Şəhər bazarında carçının səsi aləmi götürmüşdü:

– Şahın qızı yeddi ildir yataqdadır. Şahzadəni kim sağaltsa, şah onu özünə kürəkən edəcək. Kim bu işi boynuna götürüb bacarmasa, boynu vurulacaq!

Tuqrı:

– Mən şahın qızını sağaldaram! – dedi.

Və saraya yollandı. Şah bu yeni təbibi qızının yanına apardı. Tuqrı qarağac tinginin yarpağını suda qaynadıb qıza içirtdi. Və qız dərhal sağaldı, şah toy-bayramla qızını Tuqrıya verib:

– Səni hansı şəhərin valisi təyin edim? – soruşdu.

Tuqrı cavabında:

– Mən vali olmaq istəmirəm, – dedi. – Xahişim budur ki, meşə tərəfdəki dağın üstündə mənə bir ev tikdirin. Öz əlimin zəhmətiylə yaşamaq istəyirəm.

Şah cavabdan təəccüblənsə də, kürəkəni istədiyini yerinə yetirdi. Beləcə, Tuqrı arvadıyla dağın üstündəki evində yaşamağa başladı.

Bir gün Eqrı Tuqrının yanına gəlib soruşdu:

– Dostum mənim, bütün bunları sən necə qazandın? Ev-eşiyin, həyət-bacan. Mən isə sənin atını oğurlayıb fikirləşdim ki, varlanaram. Amma hara gedirəmsə, qapılar üzümə bağlanır.

Tuqrı Eqrının xəyanətini yada salmaq istəməyib yalnız bunu dedi:

– Mən bütün bunları meşədə, köhnə təndirin içində cəmi bir gecə yatmaqla qazandım.

Sonra ona heyvanların toplaşdığı təpəlik haqqında danışdı.

Hava qaralanda Eqrı sobanın içinə girdi.

Gecə meşə heyvanları yenidən toplaşdı.

Şir:

– Di haydı, söhbətə başlayaq, – dedi və təəccüblə: – Niyə vəzirim pələng burada yoxdur? – soruşdu.

Çaqqal yerindən qalxıb:

– Yox, daha heç nə danışmayacağıq, – dedi. – Pələng elə bu söhbətlərin güdazına getdi.

Bu vaxt ayı qalxıb:

– Bizim qarağacın yarpaqları da qoparılıb – şikayətləndi.

Canavar da öz növbəsində:

– Mən isə ac qaldım, – dedi. – Çoban mən burada haqqında danışdığım o iti tapıb gətirdi. Mən indi sürüyə yaxın getməyə qorxuram, it məni tamam şil-küt eləyib.

Qəzəbli şir nərilti çəkdi:

– Bizim sirlərimizi açmağa kim cəsarət eləyib! Əmr edirəm, həmin xaini tutub öldürün!

Amma heyvanlar kimin onlara qulaq asdığını bilmirdi. Ayı çaqqaldan, çaqqal tülküdən soruşdu.

Bir quş bu zaman qışqırdı:

– Sobaya baxın! – və uçub-getdi.

Heyvanlar sobaya hücum çəkib Eqrını oradan çıxardılar və tikə-parça etdilər.

Beləcə, doğru Tuqrı və oğru Eqrı əməllərinə görə qiymətlərini aldılar.



Mündəricat

Ön söz 3
Azərbaycan.
Cırtdan 5
Banqladeş.
Saydul İslam Naoqaon. İplərlə toxunmuş tovuzquşu 9
Səlim əl-Din. Monri Manqçmui 17
Bəhreyn.
İli-ippaşra və qızının tarixçəsi 21
Enki və Ninxursağın tarixçəsi 22
Vyetnam.
Ban Qiay və Ban Çınq necə yarandı 24
Yüz yumurtanın tarixçəsi 29
Hindistan.
Xeyirxah fil 32
Artıq tamah baş yarar 38
İordaniya.
Xədisə Mahmud Mazari. Ağıllı qız 49
Əhməd Rəşid əl Öməri. Şahmat oyunu 53
İran.
Sədinin "Gülüstan" kitabından.
Düşmənlə həqiqət və əmin-amanlıq içində 58
Firdovsinin "Şahnamə"sindən. Zal və Simurq: dostluq 60
Qazaxıstan.
Ayı və ağcaqanad 62
Çəpişlər 66
Kamboca.
Kxmer xalq nağılları silsiləsindən.
Heyvanlar özlərinə şah seçirlər 69
Kxmer xalq nağılları silsiləsindən.
Ax Kvak, Ax Kven (Kor və iflic) 71